# ŞƏRQ TƏRƏFDAŞLIĞI ÖLKƏLƏRİNDƏ QADINLARIN SİYASİ TƏMSİLÇİLİYİNƏ DAİR REGİONAL ARAŞDIRMA




Partnership for Good Governance
Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq

EUROPEAN UNION

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

# Şərq Tərəfdaşlığı ölkələrində qadınların siyasi təmsilçiliyinə dair regional araşdırma

Vətəndaş Cəmiyyəti təşkilatları üçün

Avropa Şurasının tədris vəsaiti

Avropa Şurası

Bu nəşr Avropa Birliyi və Avropa Şurası tərəfindən maliyyələşdirilən layihənin bir hissəsi kimi hazırlanmışdır. Burada göstərilən fikirlər tərəflərin rəsmi mövqeyini heç bir şəkildə əks etdirə bilməz.

Bütün hüquqlar qorunur. Kommunikasiya Direktorluğunun (F-67075 Strasburq Cedex və yaxud publishing@coe.int) əvvəlcədən verilmiş icazəsi olmadan bu materialın heç bir hissəsi hər hansı formada və ya hər hansı yolla, elektron (CD-Rom, İnternet və s.) və ya mexaniki şəkildə, o cümlədən fotosurəti çıxarılmaqla, yazmaqla və ya məlumat saxlama və ya bərpa etmə sistemi vasitəsilə tərcümə edilə, çoxaldıla və ya ötürülə bilməz.

Üz qabığının dizaynı: Sənədlərin və Nəşrlərin İstehsalı Departamenti (SPDP), Avropa Şurası
Tərtibat: insécable, Strasbourg

Avropa Şurası Nəşriyyatı
F-67075 Strasburq Cedex
http://book.coe.int

© Avropa Şurası, aprel 2017-ci il
Avropa Şurasında çap edilmişdir

# MÜNDƏRİCAT


| | |
|---|---|
| **AÇIQLAMALAR** | 5 |
| **QISA MƏZMUN** | 7 |
| **GİRİŞ** | 9 |
| Layihənin əsaslandırılması | 9 |
| Araşdırmanın məqsədi | 9 |
| Araşdırma sahələri | 10 |
| Diqqətin seçilmiş amillərə yönəldilməsinin səbəbləri | 10 |
| **FƏSİL 1 – METODOLOGİYA** | **15** |
| Metodologiya seçimi | 15 |
| **FƏSİL 2 – ŞƏRQ TƏRƏFDAŞLIĞI ÖLKƏLƏRİNDƏ QADINLARIN SİYASİ HƏYATDA TƏMSİL OLUNMASININ HAZIRKI VƏZİYYƏTİ** | **19** |
| Seçki müşahidəçilərinin şərhləri | 21 |
| Gender siyasətləri və fəaliyyət planları | 22 |
| **FƏSİL 3 – ARAŞDIRMA NƏTİCƏSİNDƏ ƏLDƏ OLUNAN NƏTİCƏLƏR** | **23** |
| A. İqtisadi, sosial və mədəni amillər | 23 |
| B. Siyasi amillər | 37 |
| C. Qanunvericilik | 50 |
| D. Dəstəkləyici tədbirlər | 72 |
| **FƏSİL 4 – NƏTİCƏLƏR** | **79** |
| **FƏSİL 5 – TÖVSİYƏLƏR** | **83** |
| Ayrı-ayrı ölkələr üzrə | 83 |
| Bütün ölkələr üçün | 84 |
| **ÇƏRÇİVƏDƏN KƏNAR** | **88** |
| **1 SAYLI QOŞMA – ŞƏRQ TƏRƏFDAŞLIĞI ÖLKƏLƏRİNDƏ MÖVZU ÜZRƏ TƏHLİL APARILMASI ÜÇÜN İSTİFADƏ OLUNAN QISA SORĞU FORMASI** | **101** |
| **2 SAYLI QOŞMA – MÜSAHİBƏLƏR ÜÇÜN NÜMUNƏVİ FORMA** | **119** |

# Açıqlamalar

Bu araşdırma Avropa Şurası ilə Avropa Komissiyası arasında proqram üzrə 2015-2017-ci illəri əhatə edən əməkdaşlığın bir hissəsi kimi həyata keçirilmişdir. Məhz bu kontekst çərçivəsində Demokratiya Baş Direktorluğunun Seçkilərə Yardım və Siyahıyaalma Bölməsi "Seçki qanunvericiliyi və təcrübəsi üzrə islahatların aparılması, və seçki məsələləri ilə bağlı regional əməkdaşlığın inkişaf etdirilməsi" adlı regional bir layihə həyata keçirir.

Bu hesabatı və əldə olunan nəticələri Gender Bərabərliyinin Aktuallaşdırılması (Gender Equality Mainstreaming) üzrə Konsultasiya mərkəzinin direktoru, xanım Diane Bunyan yazmış, sorğular vasitəsilə toplanmış məlumatları Marketinq və Sorğular İnstitutunun (Institute of Marketing and Surveys) statistika üzrə mütəxəssisi cənab Doru Petruti təhlil etmişdir.

Sorğu formaları və müsahibələrlə bağlı işlər Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova və Ukraynadan olan altı tədqiqatçı tərəfindən icra edilmişdir. Avropa Şurası ölkələr üzrə tədqiqatçıları əlaqələndirən qeyri-hökumət təşkilatı (QHT) - Promo-Lex ilə açıq tender proseduru əsasında xidmət müqaviləsi bağlamışdır. Tədqiqatçılar tərəfindən müsahibələr vasitəsilə əldə edilmiş məlumatların həssas xarakterli olması nəzərə alınaraq, qərara gəlinmişdir ki, ölkələr üzrə tədqiqatçıların adları açıqlanmasın.

Araşdırmanın ümumi əlaqələndirilməsi Avropa Şurasının Gender Bərabərliyi Komissiyasının Katibliyinin və Avropa İttifaqının Avropa Gender Bərabərliyi İnstitutunun dəstəyi ilə Avropa Şurasının Seçkilərə Yardım və Siyahıyaalma Bölməsi (DGİİ) tərəfindən təmin edilmişdir.



# Qısa məzmun

Araşdırma nəticəsində Şərq Tərəfdaşlığı (ŞT) ölkələrində, yəni Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova və Ukraynada qadınların siyasətdə təmsil olunmasını məhdudlaşdıran əsas faktların və maneələrin nədən ibarət olması müəyyən edilmişdir.

Bütün bu ölkələrdə qadınların siyasi vəzifə tutmağa çalışması və həm qanunvericilik (milli) səviyyəsində, həm də inzibati (yerli) səviyyədə seçilmək imkanları kişilərlə müqayisədə daha azdır.

Bütün bu ölkələrdə qadınlar parlamentdə yerlərin 20%-dən azını tutur. Lakin, Belarus istisnadır, çünki orada parlamentdə yerlərin 30%-ni qadınlar tutur.

Hər bir ölkədə qanunvericiliyin vəziyyətinin öyrənilməsi nəticəsində məlum olmuşdur ki, qadınlar və kişilər arasında bərabərliyin hüquqi əsası mövcud olsa da, siyasi həyatda reallıq başqadır. Xüsusi tədbirlərin görülməsi nəticəsində bəzi irəliləyişlərin olmasına baxmayaraq, qadınların namizəd kimi çıxış etməsi və seçilməsi hallarında əhəmiyyətli dərəcədə artım olmamışdır. Səmərəli icra mexanizmlərinin olmaması, onsuz da çox az sayda olan bir neçə spesifik vasitələrin səmərəliliyini də azaldır.

Bununla belə, araşdırmanın aparıldığı bütün ölkələrdə qadınların siyasətdə təmsil olunmasının qarşısını alan əsas maneələr qadınların cəmiyyətdə oynamalı olduğu rol ilə bağlı mövcud olan stereotiplər və gözləntilərdir. Onlar qadınların iqtisadiyyatdakı və əmək bazarındakı mövqeyinə də mənfi təsir edir və qadınların öz namizədliklərini irəli sürməsi, namizəd kimi seçilməsi və seçkilərdə qalib gəlməsi ehtimallarını azaldır.

Birləşmiş Millətlər Təşkilatının İnsan İnkişafı İndeksindən və ölkələr üzrə tədqiqatçılardan əldə olunan məlumatlar göstərir ki, qadınlar əmək bazarında kişilərdən daha az iştirak edir və onların ümumi milli gəlirdəki təxmini payı kişilərin (Moldovada 77%, Gürcüstanda 50% olan) payından daha azdır.

Qadınlar ali təhsil almağa kişilərdən daha çox meyllidirlər, lakin, onlar mərkəzi inzibati orqanlarda kişilərlə eyni dərəcədə vəzifələr tutmurlar. Onlar əsasən ictimai sektorda, yəni, kişilərin tutduqları vəzifələrlə müqayisədə daha az maaşlı vəzifələrdə işləyirlər.

Maliyyə vəsaitlərinin çatışmazlığı da, nəticə etibarilə, qadınlara qarşı maneə rolunu oynayır, onların öz namizədliklərini verməsinin, yaxud effektiv təşviqat kampaniyası aparmasının qarşısını alır və ya bunu məhdudlaşdırır.

Araşdırma nəticəsində müəyyən edilmişdir ki, vətəndaşların bununla bağlı yanaşmaları dəyişməkdədir.

Hesabatda qadınların siyasətdə təmsil olunmasının dəstəklənməsi ilə bağlı siyasi partiyaların rolu araşdırılmış və müəyyən olunmuşdur ki, bir sıra istisnaları çıxmaq şərtilə, qadınlar partiyaların idarəetmə orqanlarında ciddi rol oynamırlar və seçicilərə təqdim olunan siyasət və proqramlarda qadınlarla bağlı məsələlər və problemlər öz əksini tapmır.

Buna baxmayaraq, bəzi Şərq Tərəfdaşlığı ölkələrində bütövlükdə regionda qadınların siyasi iştirakçılığını artırmaq üçün qəbul edilə bilən uğurlu təcrübə nümunələri, dəstəkləyici tədbirlər və strategiyalar, həmçinin tövsiyələr də vardır.



# Giriş

## LAYİHƏNİN ƏSASLANDIRILMASI

Gender bərabərliyi insan hüquqlarının müdafiəsi və demokratiyanın işləməsi üçün vacib rol oynayır. Yaşadıqları cəmiyyətlərin qanunlarının və idarə olunması ilə bağlı qərarların qəbul edilməsində qadınların təcrübələrinin, bacarıqlarının və qayğılarının tam şəkildə nəzərə alınmaması və ya öz əksini tapmaması düzgün hesab oluna bilməz.

Qadınlara qarşı Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv edilməsi haqqında BMT Konvensiyası (CEDAW) və Avropa İnsan Hüquqları Konvensiyası kimi sənədlərlə müəyyən olunan beynəlxalq standartlardan aydın olur ki, qadınlar və kişilər siyasi həyatın və demokratik prosesin bütün sahələrində tam şəkildə iştirak edə bilmək üçün bərabər hüquq və imkanlara malik olmalıdır. Avropa Şurası bunu bir neçə illər ərzində əsas konvensiyalarda və Nazirlər Komitəsinin, Parlament Assambleyasının və Yerli və Regional Hakimiyyətlər Konqresinin tövsiyələri vasitəsilə dəfələrlə vurğulamışdır.

Qadın və kişilərin bərabər siyasi hüquqlara malik olması formal olaraq tanınsa da, siyasi proseslərdə iştirak, o cümlədən siyasi partiyalara üzvlük və partiyaların fəaliyyətində iştirak, namizəd olmaq, seçilmək və qanunverici və ya inzibati orqanlarda vəzifə tutmaq əsas etibarilə kişilərə aiddir. Avropa Şurasının qadın və kişilərin siyasi və ictimai qərarların qəbul edilməsində balanslaşdırılmış iştirakı haqqında Rec(2003)3 saylı Tövsiyəsində də qeyd olunur ki: "Kişilər tərəfindən müəyyən olunan siyasi prioritetlər və siyasi mədəniyyət əsasən kişilər üçün əlverişlidir." Eyni vəziyyət 2016-cı ildə hələ də mövcud olmaqdadır.

Şərq Tərəfdaşlığı ölkələrində, yəni Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova və Ukraynada milli, regional və yerli səviyyələrdə qadınlar namizəd kimi və seçilmiş nümayəndələr kimi əhəmiyyətli dərəcədə çox az təmsil olunurlar. Həmçinin, qadınların siyasətdə iştirakı vəziyyəti barədə etibarlı, müqayisəli rəsmi və qeyri-rəsmi məlumat çatışmazlığı da mövcuddur.

Avropa Şurasının 2014-2017-ci illər üzrə Gender Bərabərliyi Strategiyasının strateji vəzifələrindən biri də qadın və kişilərin siyasi və ictimai qərarların qəbul edilməsində balanslaşdırılmış iştirakı haqqında Rec(2003)3 saylı Tövsiyənin daha yaxşı icra olunmasıdır. Avropa Komissiyasının qadın və kişilər arasında bərabərlik haqqında 2010-2015-ci illər üzrə Strategiyası Şərq Tərəfdaşlığı ölkələrini siyasi dialoq və təcrübə mübadilələri vasitəsilə gender bərabərliyini təşviq etməyə həvəsləndirir.

## ARAŞDIRMANIN MƏQSƏDİ

Araşdırmanın məqsədi hər bir Şərq Tərəfdaşlığı ölkəsində qadınların siyasi təmsilçiliyinin vəziyyəti ilə bağlı kəmiyyət və keyfiyyət dəyərləndirməsi aparmaqdan və bunun nəticəsində, əsaslandırılmış siyasi proqramlar və hamı tərəfindən istifadə oluna bilən uğurlu təcrübə nümunələri təklif etməkdən ibarətdir.

Bu məqsədə nail olmaq üçün, araşdırmada siyasi qərarların qəbul edilməsinin iki səviyyəsində, yəni qanunvericilik (milli parlamentlər) və inzibati (yerli və regional özünüidarəetmə orqanları) səviyyəsində qadınların siyasi proseslərdə iştirakına mane olan və iştirakını dəstəkləyən amillərə nəzər salınmışdır.

## ARAŞDIRMA SAHƏLƏRİ

Qadınların öz insan hüquqlarından tam istifadə edə və siyasi həyatda tam şəkildə iştirak edə bilməsi ölkədə cəmiyyətin və hüququn mövcud vəziyyətindən asılıdır. Qadınların ümumiyyətlə hüquqi, iqtisadi və mədəni baxımdan qeyri-bərabər vəziyyətdə olduğu cəmiyyətlərdə onların seçki prosesində iştirak etmək və seçilmək imkanları daha məhdud olur.

Araşdırmada, araşdırmanın aparıldığı ölkələrdəki milli (qanunvericilik) və ya yerli (inzibati) səviyyələrdə qadınların seçkili təmsilçilər ola bilməsi məqsədilə, müxtəlif mərhələlərdə onların siyasi həyatda iştirakının qarşısını alan və ya bu iştirakı dəstəkləyən əsas amillər, maneələr və ya pozitiv müdaxilələr təhlil edilir.

Araşdırma aşağıdakı əsas mərhələlər üzrə aparılmışdır[1]:

- Qadınlar seçkili vəzifələr uğrunda yarışmağa can atır;
- Seçkili vəzifələrə can atan qadınlar namizəd kimi seçilirlər;
- Namizədlər seçicilər tərəfindən müvəffəqiyyətlə seçilirlər.

Araşdırma üç əsas sahəni əhatə etmişdir:

- 1. Ölkənin iqtisadi, sosial və mədəni vəziyyəti barədə məlumatlar

  əsasında qadınların cəmiyyətdə müəyyən edilən yeri;
- 2. Siyasi kontekst, yəni, siyasi partiyaların qadınların namizəd olması və seçilməsi istiqamətində maneə xarakterli və ya dəstəkləyici rolu;
- 3. Qadınların hüquqlarının və onların nə dərəcədə həyata keçirilməsinin müəyyən olunduğu qanunvericilik normaları və seçki sistemləri.

## DİQQƏTİN SEÇİLMİŞ AMİLLƏRƏ YÖNƏLDİLMƏSİNİN SƏBƏBLƏRİ

### 1. İqtisadi, sosial və mədəni amillər

Qadınlar qadın və kişilərin cəmiyyətdəki fərqli rolları ilə bağlı əsas mədəni normaların və stereotip xarakterli yanaşmaların təsirinə məruz qalırlar. Hesab edilir ki, ictimai sferada – iqtisadi və siyasi həyatda - başlıca məsuliyyəti kişilər, şəxsi sferada – ev və ailədə isə əsas məsuliyyəti qadınlar daşıyır.

Bu stereotiplərdən kişilərin qadınlar üzərində tarixən formalaşmış hakimiyyətini, həmçinin qadınları inkişafdan saxlayan seksist yanaşmaları əsaslandırmaq və qoruyub saxlamaq üçün istifadə olunur. Avropa Şurasının 2014-2017-ci illər üzrə Gender Bərabərliyi Strategiyasında[2] gender stereotiplərinə və seksizmə qarşı mübarizə birinci prioritet kimi müəyyən olunmuşdur.

Namizəd olmaq barədə fikirləşən qadınlar özlərində, onları namizəd kimi seçənlərdə və səs verən və siyasəti qadının yeri hesab etməyən vətəndaşlar arasında mövcud olan stereotipləri dəf etməlidirlər.

Araşdırmanın aparıldığı ölkələrdə, bu amillərin qadınlara təsirini başa düşmək üçün aşağıdakı sahələr üzrə məlumatlar təhlil edilmişdir:

[1] Krook M.L. və Norris P. (2014), "Kvotalardan kənar: seçkili vəzifə ilə bağlı gender bərabərliyinin təşviqi strategiyaları", Siyasi Araşdırmalar 62, 1, səh. 2-20.

[2] Avropa Şurasının 2014-2017-ci illər üzrə Gender Bərabərliyi Strategiyası.

- Qadınların əmək bazarında iştirakı onların siyasi həyatda iştirakı ilə birbaşa əlaqəli olmasa da, bu, onların cəmiyyətdə rolunun bir göstəricisidir. Araşdırmada kişilərə nisbətdə qadınların gəlir payına da nəzər yetirilmişdir.

- Qadınların gördüyü işlər onların seçkili vəzifələr uğrunda yarışmaq qabiliyyətləri barədə özlərinin fikirlərinə, həmçinin onların bu cür vəzifələrə uyğunluğu barədə onları namizəd kimi seçənlərin fikirlərinə təsir edir. Araşdırma universitet məzunlarını, mərkəzi inzibati orqanlarda işləyən qadınları və, mümkün olduğu qədər, rəhbərlik səviyyəsində işləyən qadınlar barədə məlumatları əhatə edir.

- "Qadınlar və kişilər arasında mövcud olan qeyri-bərabər hakimiyyət bölgüsünün ən bariz ifadəsi qadınlara qarşı zorakılıqdır ki, bu da həm insan hüquqlarının pozuntusudur, həm də gender bərabərliyinə qarşı ən böyük maneədir".[3] Qadınlara qarşı zorakılığın həyata keçirilməsi forması qadınların cəmiyyətdə necə qəbul edilməsinin aydın göstəricisidir. Bu araşdırma zorakılıqla bağlı əlçatan sübutlara, xüsusilə də, qadınlara qarşı zorakılığa görə cəza nəzərdə tutan qanunların mövcud olub-olmamasına və bu qanunların nə dərəcədə səmərəli şəkildə icra olunub-olunmamasına nəzər salmışdır.

- Qadınların bərabərliyi məsələləri ilə məşğul olan fəal və təsirli QHT-lər dəyişikliklərə nail olunması və dəstəklənməsi üçün vacib rol oynaya bilər. Onlar qanunvericilik səviyyəsində dəyişikliklər üçün katalizator kimi çıxış edə və qadınların bərabərliyinin vacibliyinin başa düşülməsini və qəbul edilməsini təşviq etməklə vətəndaşların münasibətini dəyişə bilər. Onlar həmçinin, mövcud siyasətin, tətbiqi və nəticələri baxımından səmərəliliyinin təmin olunması üçün, faydalı monitorinq mexanizmini də təmin edə bilər. Bundan başqa, onlar maarifləndirmə və potensial qadın namizədlərin cəlb olunması və təlimləndirilməsi baxımından da əhəmiyyətli praktiki rol oynaya bilər.

- Qadınların siyasi təmsilçiliyinə təsir edə bilən, Cəmiyyətə qarşı digər təzyiqlərə həm də azlıqların mövcud olması və ölkədən miqrasiya aiddir. Azlıqlara mənsub olan qadınların vəziyyəti, mövcud stereotiplər səbəbindən, çoxluğa mənsub qadınların vəziyyətindən daha da çətin ola bilər.

- Bu araşdırmada, qadın namizədlərlə bağlı stereotiplərin gücləndirilməsində və ya mübahisələndirilməsində medianın oynadığı rol da təhlil edilmişdir.

- Bu araşdırmada namizəd olmuş və seçkilərdə qalib gəlmiş qadınların fikirləri öyrənilmişdir. Həmçinin, stereotip xarakterli yanaşmaların onların namizəd olmasında, seçki kampaniyalarında və onların seçilməsində oynadığı rol barədə nə hiss etdiklərini öyrənmək üçün araşdırmada milli, yaxud yerli seçkilərdə müvəffəqiyyət qazana bilməmiş qadınların da fikirlərinə yer verilmişdir.

- Seçicilərin qadın namizədlərlə və siyasətçilərlə bağlı fikirləri və onlara münasibətləri dəyişikliyin əsas göstəriciləridir. Seçicilərin öz səslərini qadınlara kişilərlə bərabər həddə və ya onlardan daha artıq həddə verməsini göstərən beynəlxalq əhəmiyyətli sübutlara baxmayaraq,[4] namizədləri seçənlər çox vaxt 'qadından güclü namizəd olmaz' fikrinin təsiri altında olurlar.

---

[3] Yenə orada.

[4] Murray R., Krook M.L. və Opello K.A.R. (2012), "Gender kvotaları niyə qəbul edilir?", Rüblük Siyasi Araşdırma 65, 3, səh. 529-43.

## 2. Siyasi amillər

Qadınların siyasi təmsilçiliyində siyasi partiyalar həlledici rol oynayır. Onlar seçilmək məqsədilə namizədliyini irəli sürmək istəyən qadınlar üçün qapıçı rolunu oynayır və bu səbəbdən də onlar qadınların qarşısını almaq üçün maneə kimi də çıxış edə bilər, yaxud qadınların siyasi təmsilçiliyinin artmasını təmin də edə bilər. Onların namizədlərin seçilməsindəki rolu Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı və Milli Demokratiya İnstitutu (NDİ) tərəfindən 2011-ci ildə[5] aparılmış araşdırmanın da predmeti olmuşdur. Həmin araşdırma nəticəsində, siyasi partiyalar tərəfindən tətbiq edilən, qadınları öz namizədliklərini irəli sürməyə həvəsləndirən və onların seçki kampaniyalarını dəstəkləyən, müxtəlif qabaqcıl təcrübələrə rast gəlinmişdir. Bu təcrübələrdən bəziləri haqqında, tədqiqatçılar tərəfindən rast gəlinən digər vasitələr haqqında məlumatların da yer aldığı, "Dəstəkləyici tədbirlər" bölməsində (3-cü Fəsilə bax) bəhs edilir.

Avropa Bələdiyyələr və Regionlar Şurasının (CEMR) Qadınların və kişilərin yerli həyatda bərabərliyi haqqında Avropa Xartiyası[6] təklif edir ki, onlar qadınların siyasi təmsilçiliyini aşağıda göstərilən bir sıra yollarla dəstəkləyə bilər:

- Qanunvericiliyin təşviqi və qəbul edilməsi ilə. Misal üçün: namizədlər siyahısında qadınların sayının artırılması üçün tədbirlərin görülməsini nəzərdə tutan kvotaların müəyyən olunması;
- Bu cür tədbirlərin könüllü şəkildə qəbul edilməsi ilə;
- Daxili strukturlar çərçivəsində qadınların qərarverici mövqelərə yüksəldilməsi ilə;
- Öz siyasətlərində və ümumilikdə cəmiyyətdə qadınların bərabərliyinin təşviq edilməsi ilə;
- Partiya proqramlarında qadınların problemlərinin və onları narahat edən məsələlərin tanınması;
- Kampaniyalarında və mediada qadınların siyasi təmsilçilərinin müsbət imiclərindən itifadə olunması ilə;
- Öz üzvlərinin davranışlarının bərabərlik və qadınlara hörmət dəyərlərinə uyğun olmasının təmin edilməsi ilə.

Avropa Şurası Parlament Assambleyası siyasi partiyalar və qadınların siyasi təmsilçiliyi haqqında qətnaməsində[7] bir sıra tədbirləri müəyyən etmişdir. Həmin tədbirlərə aşağıdakılar daxildir:

- Qadınlar partiya daxilində rəhbər mövqelərdə;
- Qadın təşkilatları və onların təsiri;
- Sonuncu seçkinin manifestində/proqramında qadınların problemlərinin yer alması;
- Sonuncu seçkidə mediada qadınlar;
- Qadınları dəstəkləyən və ya onları namizəd olmağa həvəsləndirən hər hansı tədbirlər.

---

[5] Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı və Milli Demokratiya İnstitutu (2011), "Daha güclü siyasi partiyalar üçün qadınların səlahiyyətləndirilməsi", UNDP və NDI, Nyu York.

[6] http://www.ccre.org/docs/charte_egalite_en.pdf

[7] Avropa Şurası Parlament Assambleyasının 1898 (2012) saylı Qətnaməsi "Siyasi partiyalar və qadınların siyasi təmsilçiliyi". Mənbə: http://assembly.coe.int/nw/xml/XRef/Xref-XML2HTML-en.asp?fileid=19134&lang=en

Qadınlar üçün daha bir maneə də namizəd kimi seçilmək və seçki kampaniyası çərçivəsində mübarizə aparmaq üçün çəkilməli olan xərcdir. İDEA-nın Siyasi Partiyaların və Seçki Kampaniyalarının Maliyyələşdirilməsi haqqında Vəsaitində[8] də göstərilir ki, ən böyük çətinliklə yeni və ya parlamentdə təmsil olunmayan siyasi partiyaların, çox vaxt dövlət vəsaiti əldə etmək imkanı olmayan qadın namizədləri qarşılaşır. Bu halda, çox vaxt qadınlar kampaniyalarını özləri maliyyələşdirməli olurlar.

Kişilərlə müqayisədə qadınlar daha çox ictimai sektorda təhsil və səhiyyə, özəl sektorda isə mehmanxana, iaşə və ticarət sahələrində işləyirlər. Bu sahələrdə əmək haqqı yüksək olmadığından, qadınların öz kampaniyalarını maliyyələşdirmək üçün istifadə edə biləcəkləri yığımları da olmur. Bundan əlavə, oturuşmuş əxlaq normalarına görə, qadınların özlərinin pul toplamaq imkanları azdır və hətta əgər toplaya bilsələr də həmin pulların ailəyə məxsus olduğu hesab edilir.[9]

Bütün bu tədbirlər və tədqiqatçılar tərəfindən verilən məlumatlar bu araşdırmanın predmetini təşkil edir.

## 3. Qanunvericilik

Qanunvericiliklə qadınların konstitusion hüquq və azadlıqları, o cümlədən seçkilərdə namizəd və seçici kimi bərabər şəkildə iştirak etmək və seçkili vəzifə tutmaq hüququnun əsası müəyyən edilir. Burada araşdırmanın aparıldığı ölkələrin qəbul etdiyi beynəlxalq öhdəliklərə, həmçinin onların milli konstitusiyalarına və qadınlara müsbət və ya mənfi təsir göstərə bilən hər hansı spesifik qanunlara nəzər salınır.

Venesiya Komissiyasının seçki sistemlərinin qadınların siyasətdə təmsil olunmasına təsiri haqqında 2009-cu il üzrə hesabatında[10] göstərilir ki, seçki sistemləri qadınların seçilmək şanslarına təsir edir. Proporsional siyahı sistemləri daha çox qadının seçilməsinə gətirib çıxarır, və bu baxımdan ən uğurlu sistemlər qadınlar üçün məcburi kvotaları siyahılarda qalib gəlməyin mümkün olduğu mövqelərdə tətbiq edən sistemlərdir. Araşdırmanın aparıldığı ölkələrdə bu təcrübənin mövcud olub-olmadığını öyrənmək üçün bu araşdırmada yerli və milli seçkilər üzrə seçki sistemləri təhlil edilmişdir.

Araşdırmada, sözügedən ölkələrin hər birində həm qanunvericilik, həm də inzibati orqanlara seçkilər üzrə qəbul edilmiş qanuni kvotalar və pozitiv tədbirlər sistemlərinin uğur və ya uğursuzluqları təhlil edilir. Burada məqsəd bu kimi tədbirlərin qadınların siyasi təmsilçilərinin sayının artmasına necə təsir etmiş olduğunu və həmin tədbirlərin həyata keçirilməsindən nə kimi dərslər çıxarmağın mümkün olduğunu müəyyənləşdirməkdən ibarətdir.

Qadınların öz namizədliklərini irəli sürməsinə təsir edən digər məsələlər namizədlərdən gəlirlərini bəyan etməyin və xüsusilə də pul depozitinin və ya qeydiyyat üçün rüsumun tələb olunmasından ibarətdir. Bu tələblərin şəxsən namizədlərin özləri tərəfindən yerinə yetirilməli olduğu tələb edildikdə, xüsusən də siyasi partiya tərkibində olmayan müstəqil namizədlər üçün, məsələ daha da çətinləşir.

---

[8] Demokratiya və Seçkilərə Yardım Beynəlxalq İnstitutu (2014), bax. Fəsil 9: Ballington J. və Kahane M., "Qadınlar siyasətdə: gender bərabərliyi üçün maliyyələşdirmə", IDEA, Stokholm

[9] Yenə orada, səh. 304.

[10] Mənbə: www.venice.coe.int/webforms/documents/default.aspx?pdffile=CDL-AD(2009)029-e

Araşdırma[11] nəticəsində məlum olmuşdur ki, qadınlar daha çox, milli səviyyədəki vəzifələrlə müqayisədə hakimiyyətin, təsirin və maaşların daha az olduğu yerli, rayon səviyyələrində keçirilən seçkilərdə namizəd olur və seçilirlər. Araşdırmada bu məsələ ilə bağlı faktlara da yer verilir.

Siyasi təsisatların fəaliyyət göstərdiyi şərtlər də qadınlara problemlər yarada bilər. Parlamentlərin üzvləri arasında keçirilmiş qlobal sorğu nəticəsində müəyyən olunmuşdur ki, qadınlar parlamentlərin ənənəvi iş üsullarını problemli hesab edirlər[12]. 2011-ci ildə Parlamentlərarası İttifaq tərəfindən aparılmış başqa bir araşdırmada[13] isə parlamentdə işləməklə bağlı "iş-həyat balansı" məsələsi ən böyük çətinlik kimi göstərilmişdir. Həmin araşdırmada parlamentlərin və yerli və regional hakimiyyət təsisatlarının bu məsələləri nə dərəcədə həll etdiyi nəzərdən keçirilir.

Hesabatda, özlərini potensial namizəd kimi görə bilmələri, müvəffəqiyyətli kampaniya aparmaları və seçilmiş nümayəndələr kimi öz işlərinin öhdəsindən gələ bilmələri üçün qadınlara kömək etmiş dəstəkləyici tədbirlərin də olduğu müəyyən edilmişdir. Hesabatda araşdırmanın aparıldığı ölkələrdən və, münasib olduğu halda, digər yerlərdən də götürülmüş nümunələrdən istifadə olunmuşdur.

[11] Avropa Şurası (2009), "Bərabər demokratiya: reallıqdan uzaq. Qadın və kişilərin siyasi və ictimai qərarların qəbul olunmasında balanslaşdırılmış iştirakı haqqında Avropa Şurasının Rec(2003)3 saylı Tövsiyəsinin monitorinqinin birinci və ikinci mərhələlərinin nəticələrinin müqayisəli təhlili". Strasburq.

[12] Ballington J. (2008), "Siyasətdə bərabərlik", Parlamentlərarası İttifaq, Cenevrə.

[13] Palmieri, S. (2011), "Gender baxımından həssas parlamentlər", Parlamentlərarası İttifaq, Cenevrə.

Fəsil 1

# Metodologiya

## METODOLOGİYA SEÇİMİ

Araşdırma üçün metodologiya seçimi Avropa Şurasının Seçkilərə Yardım və Siyahıyaalma Bölməsi tərəfindən 25-26 iyul 2015-ci il tarixlərində araşdırmanın aparıldığı ölkələrin hər birindən müstəqil ekspertlərin, gender üzrə aparıcı ekspert xanım Diane Bunyanın və statistika üzrə ekspert cənab Doru Petrutinin iştirakı ilə Tbilisidə keçirilmiş iki günlük seminar ərzində razılaşdırılmışdır. Avropa Şurasının eksperti, Barselonada Universitat Pompeu Fabradan xanım Tania Verge və Gender Bərabərliyi üzrə Avropa İnstitutunun Statistika üzrə Məmuru Dr. Anna Rita Manca da seminarda iştirak etmiş və öz ekspert məsləhətlərini vermişlər.

Seminarda qadınların siyasi təmsilçiliyinə təsir edən əsas məsələlər, yəni iqtisadi, mədəni və sosial amillər; siyasi amillər; və qanunvericilik normaları müzakirə olunmuş və razılaşdırılmışdır.

Metodologiyanın seçimi zamanı tədqiqatçıların, mövcud vaxt çərçivəsində rəsmi mənbələrdən ağlabatan şəkildə əldə edə bildikləri məlumatlar haqqında rəyi nəzərə alınmışdır.

### 1. Sorğu forması

Araşdırmanın strukturunun müəyyən edilməsi və toplanmış məlumatlar əsasında müxtəlif ölkələr arasında, mümkün olduğu qədər müqayisələr aparmağın mümkünlüyünün təmin olunması məqsədilə tədqiqatçılar üçün sorğu forması (1 saylı Qoşmaya baxın) hazırlanmışdır.

Qadınların siyasi təmsilçiliyinə təsir edən əsas sahələri əhatə etməkdən əlavə sorğu formasında tədqiqatçılardan əldə olunmuş əsas nəticələri və araşdırmanı apararkən qarşılaşdıqları xüsusi çətinlikləri göstərmək də xahiş olunur. Sorğu formasını doldurmaq üçün tədqiqatçıların üç ay vaxtı olmuşdur. Doldurulmuş sorğu formaları qəbul edildikdən sonra, aydınlıq gətirilməsi üçün 2015-ci ilin dekabrında onlara əlavə suallar verilmiş və cavablar alınmışdır. Ümumilikdə, məlumatların toplanması 2015-ci ilin avqustundan 2016-cı ilin fevral ayına kimi, təhlil və hazırlanma prosesi isə 2016-cı ilin fevralından 2016-cı ilin may ayınadək davam etmişdir.

### 2. Müsahibələr

Layihənin ikinci aspekti isə milli, regional və yerli səviyyələrdə keçirilmiş seçkilərdə namizəd olmuş və müvəffəqiyyətlə seçilmiş və ya seçilə bilməmiş qadınların təcrübələrini göstərməkdən ibarət olmuşdur. Layihədə siyasi partiyada rəhbər mövqedə işləyən bir qadının da təcrübələrinə yer verilmişdir. Məqsəd qadınların fəaliyyətini məhdudlaşdırdığını güman etdiyimiz amilləri sınaqdan keçirmək üçün qadınların real həyatdakı təcrübələrini araşdırmaqdan və hesabatın nəti-

cələri və tövsiyələri barədə məlumat verməkdən ibarət idi. Bu suallar üçün nümunəvi forma da hazırlanmışdır (2 saylı Qoşmaya baxın).

Tədqiqatçıların vaxt və imkanları məhdud olduğundan, müsahibələrin sayı da az olmuş, lakin mümkün olduğu qədər, bir sıra yeni seçilmiş rəsmiləri, təcrübəli siyasətçiləri, iqtidar partiya qruplarının qadın üzvlərini və müxalifətdə olan və seçilməmiş qadınları əhatə etmişdir.

## 3. Araşdırma metodu

Ölkələr üzrə tədqiqatçılar sorğu formalarını doldurmaq üçün, imkan daxilində, məlumat mənbələrini müəyyənləşdirmiş və həmçinin qadınların iştirakçılığına əsas maneə olduğunu hesab etdikləri şeylərlə bağlı öz şərhlərini vermişdir.

Verilən nümunəvi forma vasitəsilə, kimdən müsahibə almaq seçimi tədqiqatçıların öz ixtiyarına buraxılmışdı və çox vaxt seçim etmək imkanı vaxtın azlığı və müsahibədə iştirak etmək istəyənlər tərəfindən məhdudlaşdırılırdı. Əksər tədqiqatçılar müsahibələri üzbəüz, bəziləri isə telefon vasitəsilə aparmışdır. Sualların heç də hamısı bütün müsahibələrə uyğun gəlmirdi. Ümumilikdə 53 müsahibə alınmış və bu da, araşdırmanın aparılmasına çox dəyərli töhfə vermişdir.

## 4. Araşdırma ilə bağlı mövcud olan məhdudiyyətlər və çətinliklər

Məlumatların təhlili zamanı məlum olmuşdur ki, əldə edilmiş məlumatlar əsasında bəzi ehtimalların əsası yoxdur. Bəzi hallarda, rəqəmlər və ya əldə olan məlumatlar milli məsləhətçilərin rəy və müşahidələrini dəstəkləməmişdir.

Məlumatları təhlil etməyin çətinliyinin səbəblərindən biri də sorğu formalarında qeyri-dəqiq və natamam məlumatların verilməsi idi. Həmçinin, məlumatlar müxtəlif cür təfsir edilirdi. Bəzi hallarda məsləhətçilər onlardan nə istənildiyini yanlış anladıqlarından eyni suala fərqli cavablar vermişdilər. Sonradan bu cür anlaşılmazlıqların bəzilərinə aydınlıq gətirilməsi üçün məsləhətçilərdən izahat istənilmiş və izahat nəticəsində anlaşılmazlıqlar aradan qaldırılmışdı.

Bəzi göstəricilər və ya məlumatlar üzrə, məsləhətçilər müxtəlif mənbələrdən və hesablama üsullarından istifadə etmiş və gender baxımından ayırd edilmiş sanballı məlumatlar əldə etməklə bağlı ciddi çətinliklər olmuşdur. Bu da, xüsusilə də iqtisadi və seçkilər aspektindən, ölkələr arasında müqayisə aparılmasını çətinləşdirmişdir. Bunun aradan qaldırılması üçün, mümkün olduğu halda, araşdırmada Birləşmiş Millətlər Təşkilatının İnsan İnkişafı İndeksi kimi beynəlxalq məlumatlardan istifadə olunmuşdur.

Ölkələr üzrə tədqiqatçılar müsahibə götürəcəkləri şəxsləri çətin şərtlər altında seçə bilmişdilər. Onların araşdırma üçün ölkə haqqında topladığı məlumatları nəzərə alaraq, bu cür subyektivliyə göz yummaq olar.  Müsahiblərin fikirləri və şərhləri, həmçinin verdikləri məlumatlar hesabatın, nəticə və tövsiyələrin hazırlanması baxımından çox faydalı olmuşdur.

Götürülmüş müsahibələrin sayı hər ölkə üçün 10 müsahibə ilə məhdudlaşdırılmışdı. Bəzi hallarda, heç bir qadın müsahibədə iştirak etmək istəməmişdi. Məsələn, Belarusda iqtidar partiyasından parlamentə seçilmiş heç bir qadın müsahibə vermək istəməmişdi. Bəzi hallarda isə, seçilmiş qadın merlər yox idi. Avropa Şurası müsahibələrin aparılmasını asanlaşdırmaq məqsədilə, müsahiblərə

göstərmələri üçün hər bir tədqiqatçıya məktub göndərmişdir. Həmin məktubda qeyd olunurdu ki, müsahibələrdən götürülən bütün misallar anonim qalacaqdır.

Hər bir tədqiqatçı tərəfindən rast gəlinən spesifik məsələlər aşağıdakılardır:

Ermənistanda, seçilmiş qadın mer yoxdur və mer olmaq üçün yalnız iki qadın namizəd olmuşdu ki, həmin qadınlardan da heç biri müsahibədə iştirak etmək istəməmişdi. Eynilə, majoritar sistemlə seçilmiş yalnız iki qadın millət vəkili var ki, onlardan da heç biri müsahibə vermək istəməmişdi.

Azərbaycanda, qadınların siyasi iştirakçılığı ilə bağlı heç bir məlumat yoxdur. Bir xeyli məlumat isə cinslər üzrə ayırd edilməmişdir və rəsmi məlumatlar heç də həmişə etibarlı olmur. 1 noyabr 2015-ci il tarixində parlament seçkiləri keçirildiyindən, müsahibələrin aparılması ilə bağlı çətinliklər olmuşdu.

Belarusda, ekspertin sorğu formasını doldurması müxtəlif, o cümlədən aşağıdakı səbəblərdən, çətin olmuşdur:

- Merlər seçilmir, prezident tərəfindən təyin edilir;
- Belarus Parlamentində müxalifət yoxdur;
- Qismən müsahibələrin vaxtının 11 oktyabr 2015-ci il tarixində keçiriləcək prezident seçkiləri ilə üst-üstə düşməsi səbəbindən və Avropa Şurasının informasiya sorğusuna şübhə ilə yanaşıldığından deputatlarla və yerli məclislərlə görüşməklə bağlı problemlər var;
- Bəzi partiya nümayəndələri kampaniyalarda sadəcə nominal şəkildə iştirak etmişdir.

Gürcüstanda, genderlə bağlı bəzi statistik məlumatları əldə etmək mümkün olmamış və siyasətçiləri tapmaq və onlarla müsahibə təşkil etmək çox çətin olmuşdu.

Moldovada, namizədlərin sayı ilə əlaqədar, yerli seçkilərlə bağlı heç də bütün məlumatları əldə etmək mümkün olmamışdı. Namizədlərin yaşı və peşəsi barədə məlumat verilməmişdir.

Ukraynada, məlumatların heç də həmişə gender baxımından ayırd edilmiş formada toplanmaması səbəbindən, ekspert çətinliklərlə üzləşmişdir.

Fəsil 2

# Şərq tərəfdaşlığı ölkələrində qadınların siyasi həyatda təmsil olunmasının hazırkı vəziyyəti

Birləşmiş Millətlər Təşkilatı insan inkişafının illik qiymətləndirməsini, İnsan İnkişafı İndeksini aparır ki, bu da insan inkişafının əsas istiqamətləri olan uzun və sağlam ömür, bilik qazanmaq imkanı və layiqli həyat standartı üzrə əldə olunan nailiyyətlərin xülasəsindən ibarətdir. Qiymətləndirilən 188 ölkə insan inkişafı baxımından çox yüksək, yüksək, orta və aşağı kateqoriyaları üzrə təsnif edilir.

Qiymətləndirilən 188 ölkədə arasında ən yüksək üçlükdə olanlar Norveç, Avstraliya və İsveçrə, siyahıda ən aşağı yerləri tutanlar isə Mərkəzi Afrika Respublikası və Nigerdir.

Belarus, Gürcüstan, Azərbaycan, Ukrayna və Ermənistan insan inkişafının yüksək səviyyədə olduğu kateqoriyada, Moldova isə insan inkişafının orta səviyyədə olduğu kateqoriyada yer alır.

İnsan inkişafı təhlilinə daxil olan ölçülərdən biri də Gender Qeyri-bərabərliyi İndeksidir (GQİ)[14]. Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (UNDP) GQİ-ni səlahiyyət və iqtisadi status baxımından qadın və kişilərin nailiyyətləri arasındakı bərabərsizlik səbəbindən insan inkişafı potensialı üzrə itkinin göstərilməsi üsulu kimi təsvir edir, və qadınların sağlamlığının əsas istiqaməti üzrə ideal normalara nisbətdə ölkənin vəziyyətini əks elətdirir. Ümumiyyətlə, GQİ qadınların bu istiqamətlər üzrə necə əlverişsiz vəziyyətdə olduğunu göstərir.

Üç istiqamət aşağıdakı kimi müəyyən olunur:

- *reproduktiv sağlamlıq*: ana ölümü və yeniyetmə yaşda ana olanların nisbəti;
- *səlahiyyətləndirmə*: parlamentdə qadınlar tərəfindən tutulan yerlərin nisbəti və 25 yaşdan yuxarı olan orta təhsilli qadınların nisbəti;
- *iqtisadi vəziyyət*: əmək bazarında iştirak.

Heç bir ölkədə gender bərabərliyi mükəmməl səviyyədə deyil, bu səbəbdən də bütün ölkələr gender qeyri-bərabərliyi nəzərə alındıqda, insan inkişafının əsas aspektləri üzrə bəzi uğursuzluqlardan əziyyət çəkir. Bu, gender qeyri-bərabərliyi səbəbindən reproduktiv sağlamlıq, səlahiyyət və əmək bazarında iştirak baxımından ümumi uğursuzluqlar kimi də təfsir edilər bilər. GQİ dərəcəsinin 0 və 1 arasında dəyişməsi və daha yuxarı GQİ dərəcəsi qeyri-bərabərliklərin səviyyələrinin daha yüksək olduğunu göstərir.

[14] Mənbə: http://hdr.undp.org/en/composite/GII.

**1 saylı Cədvəl: İnsan İnkişafı İndeksi üzrə ən yüksək sıralar və araşdırmanın aparıldığı ölkələr, və GQİ**

| Ölkə | 188 ölkə arasında İnsan İnkişafı İndeksi üzrə sıralama (2014) | GQİ (2014) |
|---|---|---|
| Norveç | 1 | 0.067 |
| Avstraliya | 2 | 0.110 |
| İsveçrə | 3 | 0.028 |
| Danimarka | 4 | 0.048 |
| Niderland | 5 | 0.062 |
| Almaniya | 6 | 0.041 |
| Belarus | 50 | 0.151 |
| Gürcüstan | 76 | 0.382 |
| Azərbaycan | 78 | 0.303 |
| Ukrayna | 81 | 0.286 |
| Ermənistan | 85 | 0.318 |
| Moldova | 107 | 0.248 |

GQİ parlamentlərdə qadınlar tərəfindən tutulan yerlərin faiz nisbətini ölür.

**2 saylı Cədvəl: Araşdırmanın aparıldığı ölkələrin Avropanın ən yüksək sıralarda olan altı ölkəsinə nisbətdə mövqeyi; qadınlar tərəfindən tutulan yerlərin faizi**

| Ölkə | Parlamentdə qadınlar tərəfindən tutulan yerlərin faizi (2014) |
|---|---|
| İsveç | 43.6 |
| Finlandiya | 42.5 |
| Belçika | 42.4 |
| İslandiya | 41.3 |
| Norveç | 39.6 |
| Danimarka | 38 |
| Belarus | 30.1 |
| Moldova | 20.8 |
| Azərbaycan | 15.6 |
| Ukrayna | 11.8 |
| Gürcüstan | 11.3 |
| Ermənistan | 10.7 |

Parlamentdə qadınların iştirakı üzrə göstəricilər Avropanın ən yüksək sıralarda olan ölkələri ilə müqayisədə aşağıdır və araşdırmada bunun səbəblərinin daha təfsilatlı şəkildə öyrənilməsi məqsədi güdülür.

## SEÇKİ MÜŞAHİDƏÇİLƏRİNİN ŞƏRHLƏRİ

Seçki müşahidəçiləri qadınların siyasi təmsilçiliyi ilə bağlı öz narahatlıqlarını ifadə etmişlər. Misal üçün, 2014-cü ildə Ukraynada erkən parlament seçkiləri keçirilərkən ATƏT/DTİHB SMM[15] qeyd etmişdir ki, siyasi partiyalar haqqında qanuna 2013-cü ildə edilmiş dəyişikliklərlə partiya siyahılarında qadınlar üçün 30%-lik kvota müəyyən edilsə də, qanunda partiya siyahılarındakı sıralama haqqında heç nə deyilmir və bu dəyişikliklə bağlı heç bir təminat mexanizmi yoxdur.

ATƏT/DTİHB SMM tövsiyə etmişdir ki:

Seçki sisteminə edilmiş mümkün dəyişiklərə baxmayaraq, parlamentdə qadınların qənaətbəxş səviyyədə təmsil olunmaması bütün namizədlər üçün daha ədalətli şərtlər yarada bilən daha ciddi təminat mexanizmləri və/və ya əlavə xüsusi müvəqqəti tədbirlər yolu ilə aradan qaldırılmalıdır.[16]

Ukraynada 2012-ci ildə keçirilmiş parlament seçkiləri zamanı ATƏT/DTİHB SMM qeyd etmişdir ki, konstitusiyada gender bərabərliyinin təsbit edilməsinə baxmayaraq, partiyalar arasında qadın namizədləri təşviq etməyə maraq yoxdur və partiyaların namizədlər siyahılarında yuxarı və digər uyğun yerlərə az sayda qadın daxil edilib.

ATƏT/DTİHB SMM tövsiyə etmişdir ki:

Siyasi Partiyalar gender bərabərliyini təşviq etməyə və gender baxımından balanslaşdırılmış namizədlər siyahısı təqdim etmək istiqamətində qəti addımlar atmağa, seçki kampaniyaları zamanı qadın namizədlərin daha çox üzdə olmasını təmin etməyə və gender məsələlərini öz platformalarına daxil etməyə həvəsləndirilə bilər. Partiya siyahıları üzrə nominasiyalar üçün gender tələbinin qoyulması da müvəqqəti tədbir kimi nəzərə alına bilər.[17]

ATƏT/DTİHB SMM Ermənistanda 2012-ci ilin may ayında keçirilmiş parlament seçkiləri ilə bağlı aşağıdakıları müəyyən etmişdir:

Bu günə kimi görülmüş ən güclü müvəqqəti xüsusi tədbir proporsional namizədlər siyahılarında sırada 2-ci olan namizəddən başlayaraq hər bir beşlikdə hər iki cinsin nümayəndələrinin təmsil olunması tələbidir. Lakin, bu kvotanın səmərəliliyi də məhduddur, çünki, siyahı qeydiyyata alındıqdan sonra namizədlər öz namizədliklərini geri götürə bilərlər və bu halda ilkin gender mütənasibliyinin qorunub saxlanmasına dair tələb yoxdur ...

və

... qadınların namizəd olmaq hüququ olsa da, bu hüququn və namizəd olmaq imkanının reallaşdırılması çətin məsələdir. Bundan əlavə, 12 qadın majoritar namizəddən 3-ü seçki kampaniyasına heç bir xərc çəkmədiklərini bildirmişlər ki bu da onların namizədliklərinin həqiqiliyi ilə bağlı şübhə doğurur.[18]

---

15 Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu Seçkiləri Müşahidə Missiyası.

16 ATƏT/DTİHB SMM-in Ukraynada 2014-cü il Erkən Parlament Seçkiləri üzrə Yekun Hesabatı, səh. 32.

17 ATƏT/DTİHB SMM-in Ukraynada 2012-ci il Parlament Seçkiləri üzrə Yekun Hesabatı, səh. 37.

18 ATƏT/DTİHB SMM-in Parlament Seçkiləri ilə bağlı Yekun Hesabatı, 6 may 2012-ci il, səh. 10.

ATƏT/DTİHB SMM-in media monitorinqi nəticəsində müəyyən olunmuşdur ki:

... [dövlət yayımçısı] seçkilərlə bağlı xəbər proqramlarının vaxtının 4 faizini, ictimai radio isə 5 faizini qadın namizədlərə və qadın partiya təmsilçilərinə, həsr etmişdir. Bütün qeydə alınmış namizədlərin təxminən 21 faizinin qadın olduğunu və Ermənistanın qanunvericilik hakimiyyətində yer alanların 30 faizinin qadın olması ilə bağlı bəyan edilmiş hədəfini nəzərə alsaq, bu göstərici qeyri-mütənasib şəkildə aşağıdır.[19]

## GENDER SİYASƏTLƏRİ VƏ FƏALİYYƏT PLANLARI

Araşdırmanın aparıldığı bütün ölkələrin gender bərabərliyi üzrə milli siyasi proqramları və fəaliyyət planları var, lakin bu plan və proqramların necə həyata keçirildiyini göstərən hansısa dövlət sənədlərini tapmaq heç də asan deyil.

**Ermənistan.** Ermənistan Respublikasının Gender Siyasəti üzrə 2011-2015-ci illəri əhatə edən Strateji Proqramının məqsədi hökumətin plan və siyasətlərində gender məsələsinə yer ayırmaqdan ibarətdir. Əksər fəaliyyətlər üçün resurslar tələb olunur ki bunların da hamısı xarici donorlar tərəfindən maliyyələşdirilir.

**Azərbaycan.** 2012-ci ildə, Azərbaycan 2020: Gələcəyə Baxış konsepsiyasında "Gender bərabərliyinin təmin olunması və ailənin inkişafı" adlı bölmə yer alır. Uşaqlar və ailələrlə bağlı bəzi işlər görülmüş olsa da, xüsusi olaraq qadınlarla bağlı heç bir iş görülməmişdir.

**Belarus.** Gender Bərabərliyi haqqında 2011-2015-ci illər üzrə Milli Fəaliyyət Planında həyatın bütün sahələrində gender bərabərliyinə tam şəkildə nail olunması üçün şəraitin yaradılması məqsədləri yer alır. Əsaslandırma üzrə araşdırmaların aparılması istisna olmaqla, planların icra olunması üçün heç bir büdcə və ya resurslar nəzərdə tutulmamışdır.

**Gürcüstan.** 2014-2016-cı illər üzrə Avropa İttifaqı – Gürcüstan Assosiasiya Gündəliyində parlamentdə və yerli hakimiyyət orqanlarında qadınların da kişilərlə bərabər şərtlər altında təmsil olunmasının təmin olunması məsələsi yer alır. Gender Bərabərliyi Siyasətlərinin Həyata keçirilməsi ilə bağlı 2014-2016-cı illər üzrə Fəaliyyət Planında qadınların siyasi iştirakçılığının dəstəklənməsi üçün tədbirlər hazırlanması nəzərdə tutulur və həmçinin bizneslərin maliyyələşdirilməsi kriteriyaları kimi qadınların şirkətlərdə iştirakının müəyyən olunması üçün mexanizmlər təklif olunur.

**Moldova.** Gender Bərabərliyi üzrə 2010-2015-ci illəri əhatə edən Milli Proqramın icrası üçün büdcə ayrılıb və siyasi vəzifələrə namizədlər üçün təlimlərin təşkili və gender büdcələşdirməsi üzrə mütəxəssislər nəzərdə tutulub.

**Ukrayna.** Qadın və Kişilər üçün Bərabər Hüquqların və İmkanların Təmin olunması üzrə 2014-2016-cı illəri əhatə edən Dövlət Proqramında 2014-cü ilə aid tədbirlərə qadın namizədlər üçün 30%-lik kvotanın müəyyən edilməsi haqqında qanun layihəsinin təqdim olunması və parlament seçkilərinin gender üzrə monitorinqinin aparılması nəzərdə tutulmuşdur.

[19] Yenə orada, səh. 17.

# Fəsil 3

# Araşdırma nəticəsində əldə olunan nəticələr

## A. İQTİSADİ, SOSİAL VƏ MƏDƏNİ AMİLLƏR

### İqtisadi məlumatlar

#### 1. Məşğulluq dərəcələri

**3 saylı Cədvəl: Əmək bazarında iştirak[20]**

| Ölkə | 15 və daha yuxarı yaşda olan şəxslərin əmək bazarında iştirakı (2013) | |
|---|---|---|
| | Qadın | Kişi |
| Azərbaycan | 62.9 | 69.6 |
| Gürcüstan | 56.5 | 75.1 |
| Ermənistan | 54.2 | 72.6 |
| Ukrayna | 53.2 | 66.9 |
| Belarus | 50.1 | 63.1 |
| Moldova | 37.6 | 44.2 |

**4 saylı Cədvəl: Parlamentlərində qadınların ən çox yer tutduğu Avropa ölkələrində işçi qüvvəsində iştirak dərəcələri[21]**

| Ölkə | 15 və daha yuxarı yaşda olan şəxslərin əmək bazarında iştirakı (2013) | |
|---|---|---|
| | Qadın | Kişi |
| İsveç | 60.3 | 67.9 |
| Finlandiya | 55.7 | 64 |
| Belçika | 47.5 | 59.3 |
| İslandiya | 70.5 | 77.4 |
| Norveç | 61.2 | 68.7 |
| Danimarka | 58.7 | 66.4 |

[20] Mənbə: BMT İnkişaf Proqramı Gender İnkişaf İndeksi, http://hdr.undp.org/en/composite/GDI

[21] Yenə orada.

Moldovadakı aşağı və İslandiyadakı yüksək göstəricilər istisna olmaqla, Şərq Tərəfdaşlığı ölkələrində və parlamentdə qadınların sayının ən çox olduğu ölkələrdə qadınların işçi qüvvəsindəki payı o qədər də fərqli deyil.

İşçi qüvvəsinin kiçilməsinin qarşısının alınması və böyümənin artırılması məqsədilə, Avropa İttifaqı öz qarşısına 20 və 64 yaş arasında olan qadınların işçi qüvvəsindəki payını 75%-ə çatdırmaq hədəfini qoymuşdur. Nə parlamentində qadınların ən çox sayda təmsil olunduğu, nə də araşdırmanın aparıldığı heç bir ölkə bu göstəriciyə çatmayıb.

**5 saylı Cədvəl: Beynəlxalq Əmək Təşkilatının (BƏT) təxmini hesablamaları əsasında müəyyən olunmuş, Qadınların işçi qüvvəsində payı üzrə göstəricilər (əhali üzrə yaşı 15-dən yuxarı olan qadınların faizi)[22]**

| Ölkə | 1990 | 2014 |
|---|---|---|
| Ermənistan | 60 | 55 |
| Azərbaycan | 54 | 63 |
| Belarus | 60 | 50 |
| Gürcüstan | 55 | 57 |
| Moldova | 61 | 38 |
| Ukrayna | 56 | 54 |

Dünya Bankının verdiyi rəqəmlər qadınların işçi qüvvəsində payının azalmasını göstərir. Lakin, Sovet İttifaqının süqutundan və ölkələrin müstəqillik qazanmasından bəri bu sahədə Azərbaycanda 9%, Gürcüstanda isə 2%-lik artım baş vermişdir.

## 2. Gəlir

**6 saylı Cədvəl: Araşdırma ölkələrində adam başına düşən ümumi milli gəlir (ÜMG) (2011)**

| Ölkə | Adam başına düşən ÜMG, ABŞ Dolları ilə (2011) | | % ilə kişilərə nisbətdə qadınların ÜMG-i. |
|---|---|---|---|
| | Qadınlar | Kişilər | |
| Belarus | 12 922.3 | 21 009.7 | 61 |
| Azərbaycan | 10 120.3 | 22 814 | 44 |
| Ukrayna | 6 518.3 | 10 120.2 | 64 |
| Ermənistan | 6 042.1 | 10 089.4 | 59 |
| Moldova | 4 599.2 | 5 915.5 | 77 |
| Gürcüstan | 4 887 | 9 717 | 50 |

[22] Mənbə: http://data.worldbank.org/indicator/SL.TLF.CACT.FE.ZS

**7 saylı Cədvəl: Adam başına düşən ÜMG: parlamentdə qadınların sayı ən çox olan ölkələr**

| Ölkə | Adam başına düşən ÜMG, ABŞ Dolları ilə (2011) | | % ilə kişilərə nisbətdə qadınların ÜMG-i. |
|---|---|---|---|
| | Qadınlar | Kişilər | |
| İsveç | 40 221 | 51 084 | 78 |
| Finlandiya | 31 644 | 45 994 | 68 |
| Belçika | 31 879 | 50 845 | 62 |
| İslandiya | 28 792 | 41 486 | 69 |
| Norveç | 57 139 | 72 825 | 78 |
| Danimarka | 36 439 | 51 726 | 70 |

Ümumilikdə rəqəmlər göstərir ki, araşdırmanın aparıldığı bütün ölkələrdə qadınlar iqtisadi baxımdan kişilərlə müqayisədə əlverişsiz vəziyyətdədirlər, və qadınların siyasi təmsilçilik səviyyəsi yüksək olan ölkələrdə də eyni vəziyyət mövcud olsa da, qadınların və kişilərin gəlirləri arasında daha az fərq olduğu görünür.

## 3. İşlərin növləri

Dünya Bankının Belarus[23] üzrə araşdırması nəticəsində müəyyən olunmuşdur ki, qadınlar əmək bazarında əlverişsiz vəziyyətdədirlər. Hətta, peşə və insan kapitalı üzrə düzəlişlər edildikdən sonra da, qadınlar orta statistik olaraq kişilərdən daha az qazanır.

Həmçinin, daha yaxşı təhsil göstəriciləri olmasına baxmayaraq, qadınların özəl və dövlət təsisatlarında yuxarı vəzifələrdə təmsil olunması ehtimalı azdır.

Moldovada da oxşar araşdırma[24] nəticəsində məlum olmuşdur ki, əmək bazarında sektorlar, peşələr və rəhbər vəzifələr üzrə gender seqreqasiyası mövcuddur. Qadınların yetmiş beş faizi dövlət idarəetməsi və təhsil, kənd təsərrüfatı, ticarət və mehmanxana sahəsində işləyir.

Beynəlxalq Əmək Təşkilatının (BƏT) "Biznes və idarəetmədə qadınlar"[25] adlı materialı çərçivəsində BƏT-nın üzv dövlətlərində sorğu keçirilmişdir. Ermənistandan başqa, araşdırmanın aparıldığı bütün ölkələrdən əldə edilmiş məlumatlar göstərir ki, qadınlar idarəetmədə iştirak edir.

[23] Mənbə:http://documents.worldbank.org/curated/en/518041468201598756/pdf/763250ESW0P1320r0Assessment0020140.pdf

[24] Mənbə:wds.worldbank.org/external/default/WDSContentServer/WDSP/IB/2014/04/16/000442464_20140416103813/Rendered/PDF/760770ESWoP1310r0Assessment0020140.pdf

[25] "Biznes və idarəetmədə qadınlar: anı tutmaq", BƏT (2015). Mənbə: www.ilo.org/wcmsp5/groups/public/---dgreports/---dcomm/---publ/documents/publication/wcms_316450.pdf

**8 saylı Cədvəl: Qadınlar idarəetmənin bütün növlərində və səviyyələrində (dövlət və özəl sektor)**

| Ölkə | 128 ölkə arasında sıralamada yer | Məlumatın tarixi | % qadın |
|---|---|---|---|
| Belarus | 6 | 2009 | 46.2 |
| Moldova | 10 | 2012 | 44.1 |
| Ukrayna | 22 | 2012 | 39.9 |
| Azərbaycan | 41 | 2012 | 34.2 |
| Gürcüstan | 42 | 2012 | 34 |

Eyni araşdırma[26] çərçivəsində, 135 ölkədə 130 000 şirkət arasında keçirilmiş sorğu nəticəsində idarəetmədə rəhbər vəzifələrdə qadınların olduğu şirkətlər müəyyən olunmuşdur. Beş ölkə üzrə nəticələr aşağıdakı cədvəldə göstərilir.

**9 saylı Cədvəl: Yüksək vəzifəli şəxsləri qadın olan şirkətlərin faizi (2013)**

| Ölkə | % qadın |
|---|---|
| Belarus | 32.8 |
| Azərbaycan | 2.4 |
| Gürcüstan | 32.1 |
| Moldova | 26.3 |
| Ukrayna | 18.9 |

Bu rəqəmlər yalnız sorğunun keçirildiyi ölçülərdə və sektorlar üzrə göstərici hesab oluna bilər və buna görə də, tam olaraq ölkədəki ümumi vəziyyəti düzgün göstərməyə bilər.

## Sosial və mədəni məlumatlar

Aşağıdakı cədvəl onu göstərir ki, ən azı dörd ölkədə qadınlar arasında universitet məzunlarının sayının çox olmasına baxmayaraq, yuxarı/mərkəzi idarəetmə orqanlarında qadınların sayı tamamilə azdır.

[26] Yenə orada.

### 1. Universitet məzunları

**10 saylı Cədvəl: Universitet məzunları**

| Vəziyyət barədə məlumat<br>Qadınlar/kişilər | | Ermənistan | Azərbaycan | Belarus | Gürcüstan | Moldova | Ukrayna |
|---|---|---|---|---|---|---|---|
| Universitet məzunları | Q | 58% | 47.7% | 19.9% | 28% | 60.6% | Məlumat yoxdur |
| | K | 37% | 52.3% | 17.6% | 26.8% | 39.5% | Məlumat yoxdur |
| Yuxarı/mərkəzi idarəetmə orqanlarında olan qadınlar | Q | 11% | Məlumat yoxdur | 52.9% | 29.3% | 30% | 16.1% |
| | K | 89% | Məlumat yoxdur | 68.5% | 70.7% | 70% | 83.9% |

Azərbaycan istisna olmaqla, qadınlar universitet məzunu olmağa kişilərə nisbətən daha meyllidirlər. Lakin, mövcud məlumatlar onu deməyə əsas verir ki, qadınlar daha çox onları təhsil və səhiyyə kimi, adətən daha az maaşlı, ictimai xidmət sahələrində işləməyə istiqamətləndirən ixtisaslar seçirlər.

Yuxarı/mərkəzi idarəetmə orqanlarında qadınların ən az olduğu ölkələr Ermənistan və Ukraynadır. Yerli idarəetmə orqanlarında ən çox qadının iştirak etdiyi ölkə isə Belarusdur.



## 2. Qadınlara qarşı zorakılıq

Bu, cəmiyyətə qadınlara olan münasibətin ən əsas göstəricisidir. Araşdırmanın aparıldığı ölkələrin hamısında statistika eyni yolla toplanmadığından, məlumatlar nizamsızdır.

Vasitələrdən biri ölkələr tərəfindən imzalanmış və ratifikasiya edilmiş, Qadınlara qarşı Zorakılıq və Məişət Zorakılığının Qarşısının alınması və ona qarşı Mübarizə haqqında Avropa Şurası Konvensiyasıdır (İstanbul Konvensiyası kimi də tanınır).[27]

**11 saylı Cədvəl: Avropa Şurasının İstanbul Konvensiyasını imzalamış ölkələr**

| Ölkə | İmza | Ratifikasiya | İcranın təmin edilməsi |
|---|---|---|---|
| Ermənistan | - | - | - |
| Azərbaycan | - | - | - |
| Gürcüstan | 19 iyun 2014-cü il | - | - |
| Moldova | - | - | - |
| Ukrayna | 7 noyabr 2011-ci il | 16 iyun 2016-cı il | - |

Belarus Avropa Şurasının üzvü deyil. Lakin, İstanbul Konvensiyasına qeyri-üzv ölkələr də qoşula bilər.

Məsləhətçilər qadınlara qarşı zorakılıqla bağlı aşağıdakı məlumatları vermişlər.

Ermənistanda polis statistikası göstərir ki, il ərzində qadınlara qarşı orta statistik 621 zorakılıq hadisəsi baş verir, lakin qadın hüquqları ilə məşğul olan QHT-lərə il ərzində orta statistik 5 000 zorakılıq hadisəsi ilə bağlı müraciətlər daxil olur. Birləşmiş Millətlər Təşkilatının Əhali Fondu tərəfindən Ermənistanla bağlı 2010-cu ildə keçirilmiş sorğuya görə, sorğuda iştirak edən, partnyoru olan və ya nə vaxtsa münasibəti olmuş qadınların 61%-i nəzarət altında saxlanmışdır. Qadınların dörddə bir hissəsi psixoloji zorakılığa və ya sui-istifadəyə, 8.9%-i isə fiziki zorakılığa məruz qalmışdır. Qadınların yalnız 7.7%-i inanır ki, məişət zorakılığı kimi problemlər ailədən kənardakı insanlarla da müzakirə oluna bilər. 2013-cü ildə ailədə zorakılıq haqqında qanun layihəsi o əsasla rədd edilmişdi ki, həmin qanunun icrasını təmin etmək mümkün olmayacaq. Bununla belə, Aİ-nin 2016-2018-ci illər üzrə İnsan Hüquqları Büdcəsinə Dəstək Proqramının şərtlərindən biri də məişət zorakılığı haqqında ayrıca bir qanunun qəbul edilməsidir.

Azərbaycan, 2010-cu ildə, məişət zorakılığının qarşısının alınması haqqında qanun qəbul etmişdir. 2012-ci ildə məişət zorakılığı nəticəsində 1 633 cinayət hadisəsinin baş verdiyi qeydə alınmışdır. Bu cinayətlərdən 1 284-ünün qurbanı qadınlar olmuşdur.[28] Lakin, QHT-lər bu rəqəmlərin rəsmi statistikada göstərildiyindən daha yuxarı olduğunu bildirir.

Belarusda əhalinin 77%-i (qadınların 77.3%-i və kişilərin 76.7%-i) məişət zorakılığından əziyyət çəkmişdir. Hər üç qadından biri fiziki zorakılığa, hər beş qadından biri isə cinsi zorakılığa məruz qalır. Cinayət Məcəlləsi, Mülki Məcəllə və İnzibati Xətalar Məcəlləsində şəxsə qarşı qanunsuz zorakılıq hərəkətlərini müəyyən edən

[27] Mənbə:https://rm.coe.int/CoERMPublicCommonSearchServices/DisplayDCTMContent?documentId=090000168046031c

[28] Mənbə: www.osce.org/baku/110044?download=true

bir sıra maddələr yer alır, lakin bəzi hallarda bu cür hərəkətlər ailə daxilində baş verərsə, onları təqib etmək olmur. 2016-2017-ci illərdə məişət zorakılığı haqqında ayrıca bir qanunun qəbul edilməsi gözlənilir. Bu, Birləşmiş Millətlər Təşkilatının Əhali Fondunun (UNFPA) müxtəlif nazirliklər və QHT-lərlə apardığı işlərdən irəli gəlir.

Gürcüstanda məişət zorakılığına qarşı ayrıca bir qanun mövcuddur və 2014-cü ildə qadınlara qarşı 742 zorakılıq hadisəsinin baş verdiyi qeydə alınmışdır. Lakin, QHT-lər hesab edir ki, həmin qanunun mövcudluğu haqqında o qədər də çox adam bilmir və ya qanun geniş şəkildə tətbiq olunmur.

Moldovada 2012-ci ildə məişət zorakılığının yayılması göstəricisi 64% - psixoloji zorakılıq 59.4%, fiziki zorakılıq 39.7% və cinsi zorakılıq 18.6% - olmuşdur. Ailədaxili zorakılığa qarşı mübarizə haqqında xüsusi qanunvericilik mövcuddur, lakin geniş şəkildə tanınmır və yaxud tətbiq olunmur.

Ukraynada 2013-cü ildə 174 229 məişət zorakılığı hadisəsinin baş verdiyi qeydə alınmışdır. Avropa Şurası İstanbul Konvensiyasının tələblərinin həyata keçirilməsini dəstəkləmək üçün Ukrayna Hökuməti ilə əməkdaşlıq edir. Şərqi Ukraynadakı münaqişə qadınlara qarşı zorakılıq riskini artırmışdır.[29]

## 3. Qeyri-hökumət təşkilatları (QHT-lər)

Araşdırmanın aparıldığı ölkələrdəki tədqiqatçılar qadın problemləri ilə məşğul olan QHT-lərin mövcud olduğunu müəyyən etmişlər. Onların təsiri qarışıq olmuşdur.

Ermənistan üzrə tədqiqatçı bildirmişdir ki, Ermənistanda qadın təşkilatlarının əməkdaşları və üzvləri və digər qadın hüquqları fəalları müntəzəm şəkildə təhdid olunur və şifahi hücumlara məruz qalırlar. 2013-cü ildə gender bərabərliyi haqqında qanunvericiliyin qəbul edilməsinə dair çağırışlarının ardınca, Qadınların Xilas Mərkəzinə anonim ölüm təhdidləri daxil olmuşdur. İlin sonunadək bu insidentlərin heç biri barədə səmərəli təhqiqat aparılmamışdır.

Belarusda, QHT-lər gender bərabərliyi məsələləri barədə maarifləndirmə işlərinin aparılmasında əhəmiyyətli rol oynamasa da, onlar dövlətin gender bərabərliyi siyasətinin həyata keçirilməsi barədə məlumat verməsində rol oynamışdır. Belarusda 2014-cü ildə gender sahəsində aparılmış təhlilə[30] əsasən, Belarusda gender məsələsi üzrə ən fəal subyektlər vətəndaş cəmiyyəti təşkilatları, o cümlədən qadın QHT-ləridir. Ümumilikdə, QHT-lərin mövqeyinə o qədər də əhəmiyyət verilmir, onlar ictimai rəyə təsir edə bilmir. Lakin, çox vaxt bu təşkilatlar gender bərabərliyi dəyərlərini yetişdirən və dövlətin gender bərabərliyi siyasəti üzrə öz öhdəliklərini icra etməsinin lazım olduğunu vurğulayan unikal pozitiv subyektlərdir. Bu subyektlər həm də müəyyən gender məsələlərinin dövlət tərəfindən necə həll olunmasının monitorinqini aparır. Ölkədə gender məsələləri ilə məşğul olan 32 QHT mövcuddur. Gender məsələləri ilə məşğul olan digər QHT-lər də var, lakin onların fəaliyyəti ya daha az ictimaidir, ya da, bəzi ekspertlərin bildirdiyinə görə, onların verdiyi məlumatların keyfiyyəti sual doğurur. Belarusda insan hüquqları QHT-ləri gender məsələlərinə heç bir xüsusi maraq göstərmir.

Gürcüstanda gender və ya qadın məsələləri ilə məşğul olan 200-dən artıq QHT var. Lakin, onlardan yalnız az bir qismi fəaldır. Qadın qətlinə və qadınlara qarşı zorakılığa cavab olaraq müxtəlif sferalardan olan yüzlərlə qadın bir araya gəlmiş və

---

29 Əlavə məlumat üçün: www.ohchr.org/Documents/Countries/UA/9thOHCHRreportUkraine.pdf

30 Mənbə: http://eng.oeec.by/wp-content/uploads/2015/06/Analysis-of-Gender-Sector-in-Belarus.pdf

əsas fəaliyyəti qadınlara qarşı zorakılıqla mübarizəyə həsr olunan Gürcü Qadınlar Hərəkatını yaratmışlar. 25 noyabr 2014-cü il tarixində Gürcü Qadınlar Hərəkatı bütün Gürcüstan boyu qadınlara qarşı zorakılığı qınayan etiraz nümayişləri təşkil etmişdir. 8 mart 2015-ci ildə Gürcü Qadınlar Hərəkatı parlamentdə daha çox qadının olmasını tələb edən yürüşlər təşkil etmişdir.

Moldovada qadın hüquqları, o cümlədən qadınlara qarşı zorakılıq məsələləri ilə məşğul olan bir neçə QHT mövcuddur. 2012-ci ildən bəri Moldova Hökuməti donorların və zəif də olsa QHT hərəkatının dəstəyi ilə, deputatlığa namizədlər üçün kvotaların müəyyən edilməsini nəzərdə tutan qanun dəyişikliklərinin təsdiq olunmasını tezləşdirmək üçün gender bərabərliyi ilə bağlı işlər görməyə başladı. Qanun dəyişikliyi 2016-cı ilin aprel ayında qəbul edildi. 2015-ci ildə həmin QHT hərəkatı Gender Bərabərliyi üçün Platformaya çevrildi.

Ukraynada müstəqil qadınlar hərəkatının dərin köklərə malik və hal-hazırda yetkin bir hərəkatdır. Qadın qruplarının dəqiq sayını müəyyən etmək mümkün deyil, lakin ölkədə təxminən 500 belə qrup var. Onlar gender siyasəti sahələri (qadınların siyasi iştirakçılığı, ayrı-seçkiliyə yol verilməməsi, gender maarifçiliyi, sülh hərəkatı, insan alveri və məişət zorakılığı) üzrə fəal şəkildə işlər görür. Qadınlar hərəkatı siyasi dəyişikliklərin müxtəlif dövrlərində gender transformasiyası ilə bağlı təsisat yaddaşına malikdir. Son il ərzində hərəkat qadınlar üçün kvotalar barədə müzakirələr açmış və kvotaların qəbul edilməsini təşviq etmişdir. Yalnız 2015-ci ildə parlament, heç bir icra proseduru olmasa da, kvotaları yerli seçkilər haqqında qanuna daxil etmişdir.

## 4. Məcburi köçkünlər

Regiondakı münaqişələr səbəbindən Gürcüstan və Ukraynada çox sayda məcburi köçkünlər var. Onların seçki hüquqları ilə bağlı müxtəlif mexanizmlər mövcuddur (seçki sistemləri barədə sonrakı bölməyə baxın).

Gürcüstanda əhalinin 6%-i məcburi köçkündür ki, onların da 86 774 nəfəri kişi, 102 865 nəfəri qadınlardır.[31] Ukraynada təxminən 1 787 019 məcburi köçkün var ki, onların da 57%-ini qadınlar, 43%-ini kişilər təşkil edir.[32] Azərbaycanda gender tərkibi barədə məlumat verilmədən 597 000 məcburi köçkün olduğu bildirilmişdir.[33]

2005-ci ildə Norveç Qaçqınlar Şurası (NRC)[34] tərəfindən Ermənistan Respublikası Ərazi Administrasiyası və İnkişaf Nazirliyi yanında Dövlət Miqrasiya Xidməti ilə birlikdə aparılmış araşdırma çərçivəsində müəyyən edilmişdir ki, 1988-1994-cü illərdə Azərbaycan və Ermənistan arasındakı Dağlıq Qarabağ münaqişəsi nəticəsində Ermənistanda 65 000 məcburi köçkün ailəsi yaranmışdır. 2005-ci ildə onların əksəriyyəti geri qayıtmışdır, lakin, təxminən 8 399 nəfər isə hələ də məcburi köçkün həyatı yaşamaqdadır. Məlumatlar təsnif edilmir. Belarus və Moldovada məcburi köçkünlərlə bağlı heç bir məlumat əldə etmək mümkün olmamışdır.

NRC tərəfindən aparılmış araşdırma Ermənistanda məcburi köçkünlərin sayını göstərən yeganə məlumat mənbəyidir. Məcburi köçkünlərin hazırkı sayını

[31] Gürcüstan Dövlət Statistika İdarəsinin 2014-cü ildə keçirdiyi sonuncu siyahıyaalmaya uyğun olaraq. Məlumatın mənbəyi: http://census.ge/ge/results/census

[32] Məlumat 30 may 2016-cı il tarixində hökumətin internet səhfəsindən əldə edilmişdir: www.kmu.gov.ua/control/uk/publish/article?art_id=249069737&cat_id=244277212

[33] Mənbə: www.internal-displacement.org/europe-the-caucasus-and-central-asia/azerbaijan/2014/azerbaijan-after-more-than-20-years-idps-still-urgently-need-policies-to-support-full-integration/

[34] Mənbə: www.internal-displacement.org/europe-the-caucasus-and-central-asia/armenia/figures-analysis

göstərən heç bir heç bir əlavə araşdırma aparılmamışdır. Nə hakimiyyət orqanları, nə vətəndaş cəmiyyəti, nə də beynəlxalq təşkilatlar tərəfindən ən son məlumatların əldə edilməsi üçün tədbir görülməmişdir. 2005-ci ildə əhalinin sayı 3 219 200 nəfər[35] olmuşdur və bu da o deməkdir ki, məcburi köçkünlər əhalinin 0.3%-ni təşkil etmişdir.

## 5. Xaricdə yaşayan vətəndaşlar

BMT-nin hesablamalarına görə son onillik ərzində Moldovada işçi qüvvəsinin üçdə bir hissəsi daimi və ya müvəqqəti olaraq ölkəni tərk etmişdir.[36]

Gürcüstanda, 2014-cü ildə aparılmış siyahıyaalmaya görə, 88 541 Gürcüstan vətəndaşı xaricdə yaşayır ki, onlardan 40 182 nəfəri kişilər, 48 359 nəfəri qadınlardır.

2015-ci ildə Ukrayna vətəndaşlarının 11.5%-i ölkədən kənarda yaşayırdı.

2012-ci ildə 221 846 Ermənistan vətəndaşı xaricdə yaşayırdı ki, bu da müvafiq olaraq Ermənistan əhalisinin 6.8%-ini təşkil edirdi. Miqrasiya Siyasəti Mərkəzinin bildirdiyinə görə, xaricdə yaşayan ermənilər arasında gender balansı mövcuddur (kişilər: 47.5%, qadınlar: 52.5%).[37]

Belarus və Azərbaycanla bağlı bu sahədə etibarlı məlumat əldə etmək mümkün olmamışdır.

## 6. Milli azlıqlar

Milli azlıqlarla bağlı gender baxımından ayırd edilmiş məlumat yoxdur və məlumat olduğu halda da göstərici rəqəmlər nisbətən aşağıdır. Göstəricilərin ən çox olduğu yer əhalisinin 8.3%-ni rusların təşkil etdiyi Belarus olmuşdur. Moldovada əhalinin 8.3%-ini ukrainlər, Gürcüstanda əhalinin 4.5%-ni ermənilər və Azərbaycanda isə əhalinin 8.4%-ni ermənilər təşkil edir. Ukraynada sonuncu siyahıyaalma 2001-ci ildə aparıldığından, oradakı vəziyyət barədə məlumat vermək çətin olmuşdur. Bir neçə ölkədə qaraçılar (Roma) yaşayır, lakin bunu dəqiq müəyyən etmək mümkün olmamışdır, çünki çox vaxt onların sənədləri olmur.

## 7. Sosial media

Sosial mediadan istifadə bütün ölkələrdə artmaqdadır, lakin onun şəhərlərdə istifadəsi ilə əyalətlərdə istifadəsi arasında nəzərəçarpan fərqlər mövcuddur. Həmçinin, istifadəçilər arasında əhəmiyyətli yaş fərqi var.

Tədqiqatçılar bildirmişdir ki, sosial media ümumilikdə seçkilərdə hələ elə də böyük rol oynamamışdır.

---

[35] Ermənistanın İllik Statistik Hesabatı, Ermənistan Respublikası Dövlət Statistika Xidməti, 2006-cı il, Mənbə: http://armstat.am/en/

[36] Mənbə: http://md.one.un.org/content/unct/moldova/en/home/presscenter/stories/makingthe-most-of-migration-in-moldova.html

[37] Mənbələr: dövlət statistikası (əhalinin siyahıya alınması, əhalinin reyestri, əcnəbilərin reyestri, və s.): www.migrationpolicycentre.eu/docs/migration_profiles/Armenia.pdf

Ermənistandan olan tədqiqatçılar bildirmişdir ki, sosial media müxalifət partiyaları tərəfindən səmərəli şəkildə istifadə olunur, hələ əhalinin əksəriyyəti tərəfindən etibarlı məlumat mənbəyi kimi hesab olunmur, lakin bununla bağlı vəziyyət dəyişməkdədir.

Azərbaycanda müsahiblərdən ikisi öz seçki kampaniyalarında sosial mediadan istifadə etmişlər. Onlardan biri öz mesajlarını çatdırmaq üçün sosial mediada öz izləyicilərini formalaşdırmış və özünün təşviqat kampaniyası çərçivəsində bir video paylaşmışdır.

## Stereotiplər və yanaşmalar

### 1. Müsahibələr nəticəsində əldə edilən məlumatlar

Bütün tədqiqatçılar qadınların rolu ilə bağlı stereotip xarakterli neqativ baxış və gümanların mövcud olduğu və bunun da qadınların siyasi iştirakçılığına qarşı ən əsas maneə olması barədə nəticələrə gəlmişlər.

Müsahibələr zamanı 53 müsahibdən 21-i tərəfindən stereotip xarakterli yanaşmaların qadınların siyasi proseslərdə iştirakına qarşı əsas maneə olduğu qeyd edilmişdir. Həmin 21 nəfər müsahib arasında həm milli qanunvericilik orqanı səviyyəsində seçilmiş, həm istər kiçik şəhərlərdən və kəndlərdən, istərsə də iri şəhərlərdən yerli inzibati orqanlar səviyyəsində seçilmiş, həm də seçkilərdə müvəffəqiyyət qazana bilməmiş qadınlar iştirak etmişdir. Sözügedən qadınlar arasında keçmiş deputatlar və araşdırmanın aparıldığı bütün ölkələrdən olan qadınlar olmuşdur.

Müsahibələrdən götürülmüş bəzi sitatlar çox şeydən xəbər verir:

- “Mən orada olmayanda kişilər görüş təşkil etmiş və demişdilər ‘Biz imkan verə bilmərik ki, bizim icmamızı qadın idarə etsin, biz birlikdə olmalı və bir kişini dəstək verməliyik.’” Ermənistan
- “Mən öz opponentimi mənimlə debata çıxmağa çağırdım, lakin onun cavabı belə oldu ‘Mən heç vaxt qadınla debat və ya müzakirə aparmıram.’” Ermənistan
- “Seçicilər mənə dedilər ki, mətbəxə qayıdım və ərimə xidmət edim.” Ermənistan
- “Mənim opponentim dedi: ‘Qadın nə edə bilər? Kişilər problemləri və onların həlli yollarını daha yaxşı bilir.’” Moldova
- “Mən şəhərin bir qadın tərəfindən idarə edilməsinin qəbuledilməz olması barədə yanaşmanın öhdəsindən gəlməli idim.” Gürcüstan
- “Çox söz-söhbət var idi və insanlar mənə deyirdi ki, mətbəxə qayıdım və borş bişirim.” Ukrayna

Bir müsahibin dediyinə görə bu onun kampaniya aparmasına mane olurdu.

- “Mən tanımadığım insanlarla danışarkən özümü narahat hiss edirdim və kişilərə daha çox hörmət edilir; Mən xoşagəlməz sözlər eşitmək istəmirdim.” Ermənistan

Gənc qadınlar yaşa və həmçinin cinsə görə ayrı-seçkiliyə məruz qaldıqlarını bildimrişlər və bir gənc deputat demişdir:

- “Gənc bir qadın olduğuma görə, parlamentin əməkdaşları məni deputat kimi qəbul etmirdi.” Ukrayna

Bir neçə müsahib seçkilərdə namizəd olmaqları ilə əlaqədar ailələrinə qarşı əlavə təzyiqin olduğunu da qeyd etmişdir.

- “Mənim ailəmlə bağlı çox maraqlanırdılar; Kişi namizədlərlə bağlı isə belə bir hal yox idi.” Gürcüstan

Hətta seçildikdən sonra da, bir neçə qadın öz fikirlərini çatdırmaq üçün daha çox işləməli olduqlarını qeyd etmişdir.

- “Bir şey deməmişdən qabaq mən çox düşünməliyəm, çünki mütləq kimsə mənim sözümü kəsəcək.” Gürcüstan
- “Kişilər səninlə söhbət etmir, onlar başqa kişilərlə söhbət edirlər.” Ukrayna
- “Çox vaxt kişilər görüş çağırır və siyasi qərarlar qəbul edirlər, lakin məni dəvət etmirlər.” Ukrayna

Bir müsahib hesab etmişdir ki, siyasi vəzifə qazanan qadınlarla bağlı gümanları dağıtmaq çox vacibdir.

- “Qadınlar bir-birini dəstəkləmir, onlar özlərini ‘qeyri-adi’ bacarıqları və ya bəxtləri olan ‘istisna’ qadınlar hesab edirlər; biz bu qavrayışı dağıtmalı və bir-birimizlə həmrəy olmalıyıq.” Moldova

Bununla belə, bəzi sübutlar əsasında demək olar ki, bu yanaşmalar dəyişməkdədir. Müsahiblərdən biri demişdir:

- “Mən birinci dəfə seçkilərdə namizəd olanda, mənim bir qadın kimi idarəetmə qabiliyyətimin olmaması barədə xeyli şərhlər var idi. İkinci dəfə namizəd olanda isə suallar mənim təcrübəm və proqramım barədə idi.” Gürcüstan

## 2. Yanaşmalarla bağlı sorğular

Azərbaycan istisna olmaqla, araşdırmanın aparıldığı bütün ölkələrdə qadınlara münasibətlərlə bağlı sorğular keçirilmişdir. Bəzi hallarda məlum olmuşdur ki, sorğuda iştirak edənlərin qadınların cəmiyyətə yeri ilə bağlı münasibətləri dəyişməkdədir və bu baxımdan onlar siyasəti müəyyən edən siyasətçiləri də qabaqlayırlar.

### Ermənistan

2015-ci il üzrə Ermənistan Gender Barometri[38] sorğusu nəticəsində müəyyən edilmişdir ki, respondentlərin 60%-i hesab edir ki, Ermənistan cəmiyyətində kişilər və qadınlar bərabər deyillər. Əlli beş faiz hesab edir ki, bunun səbəbi cəmiyyətdə qadın hüquqları ilə bağlı məlumatlılıq səviyyəsinin aşağı olmasıdır.

Kişilər qadınlarla müqayisədə siyasətlə daha çox maraqlanır, lakin ötən seçkilərdə qadınlar daha çox səs vermişdir.

[38] Mənbə: www.ysu.am/files/Gender%20Barometer.Armenia.English.pdf

## Belarus

2010-cu ildə Sosial-İqtisadi və Siyasi Biliklər Müstəqil İnstitutu (HSEPS) Belaruslaların siyasətlə məşğul olan qadınlara münasibəti barədə sorğu keçirmişdir. Sorğu nəticəsində müəyyən olmuşdur ki, respondentlərin 55.6%-i qadının prezidentliyə namizəd olmasına qarşıdır. Lakin, əhalinin daha gənc hissəsi və təhsil səviyyələri daha yüksək olanlar prezidentliyə qadın namizədi dəstəkləyə bilərlər.[39]

2011-ci ildə Dünya Dəyərlər Sorğusu[40] müəyyən etmişdir ki, kişilərin 76.1%-i, qadınların isə 55.9%-i hesab edir ki, qadınlarla müqayisədə kişilərdən daha yaxşı siyasi liderlər çıxır.

2014-cü ildə, HSEPS tərəfindən keçirilmiş başqa bir sorğu çərçivəsində respondentlərdən parlamentdə kifayət sayda qadının olub-olmadığı barədə sual soruşulmuşdur. Müəyyən olmuşdur ki, 27.2% vəziyyətlə razı olsa da, 8% hesab edir ki, sayın artırılması üçün qanun qəbul edilməlidir.

## Gürcüstan

Qafqaz Barometri "2014-cü ildə Gürcüstanda olan gender məsələləri ilə bağlı yanaşmalar"[41] çərçivəsində məlum olmuşdur ki, siyasətlə məşğul olan qadınlar üçün ən böyük maneə ailə məsuliyyəti hesab edilir, və bu respondentlərin 28%-i tərəfindən qeyd edilmişdir.

"Gürcüstanda qadınlar kişilər qədər yaxşı qərar qəbul edə bilmirlər" sualına cavab olaraq:

- Respondentlərin 74%-i ya tamamilə razı olduğunu, ya da razı olduğunu bildirmişdir.
- Respondentlərin 51%-i ya razılaşmış, ya da tamamilə razılaşmışdır ki, kişilər qadınların siyasətlə məşğul olmasına mane olur.
- 39% hesab etmişdir ki, siyasətçilər qadın hüquqları haqqında çox az danışırlar – 37% hüquqlar haqqında, 2% çox az.
- Respondentlərin 64%-i qadınların iştirakçılığını artırmaq üçün Gürcüstanın parlamentdə məcburi kvotaları qəbul etməsini dəstəkləyir.

2014-cü ildə keçirilmiş Milli Demokratiya İnstitutunun Gürcüstanda İctimai Yanaşmalar sorğusu[42] nəticəsində məlum olmuşdur ki, sorğuda iştirak edənlərin 68%-i qadınların iştirakçılığının artırılması üçün parlamentdə məcburi kvotaların olmasını dəstəkləyir.

## Moldova

Lider və seçilmiş nümayəndələr olan qadınlara münasibətlər yavaş-yavaş dəyişir.

[39] Mənbə: www.iiseps.org
[40] Mənbə: www.worldvaluessurvey.org/WVSDocumentationWV6.jsp
[41] Mənbə: http://caucasusbarometer.org/en/no2014ge/HHASIZE/
[42] Mənbə: https://www.ndi.org/files/NDI%20Georgia_October%202014_Gender%20poll_Public%20ENG_Final_0.pdf

Moldova Gender Barometri 2006-cı ildə[43] müəyyən etmişdir ki, sorğuda iştirak edənlərin 50%-i hesab edir ki, kişilər qadınlardan daha bacarıqlı liderlərdir. 2014-cü ilədək bu göstərici 20%-ə düşmüşdür.

Yerli şuralara kimin seçilməsinə üstünlük verilməsi barədə sualın cavabında kişilərin faizi 2006-cı ildə olan 28.6%-dən 2015-ci ildə 22.1%-ə düşmüş, qadınların faizi isə 2006-cı ildəki 8.6%-dən 2015-ci ildə 14.8%-ə qalxmışdır. 2015-ci ildə sorğuda iştirak edənlərin 62.3%-i hesab etmişdir ki, bu məsələdə genderin fərqi yoxdur.

### Ukrayna

2015-ci ildə Milli Demokratiya İnstitutu[44] Ukraynada 2015-ci ilin oktyabrında keçirilən yerli seçkiləri nəzərə alaraq, qadınların siyasi iştirakçılığı ilə bağlı göstərilən münasibətlərə dair araşdırma aparmışdır.

Siyasətdə qadınların kişilərdən az olmasının səbəbləri barədə soruşanda, 76% səbəb kimi siyasi partiyaların daha çox kişilərin namizədliklərini irəli sürdüyünü bildirmiş, 60% isə seçkili vəzifələr üçün uyğun qadınların kifayət qədər olmaması fikri ilə razılaşmamışdır. Namizədlərin cinsi sorğuda iştirak edənlərin yalnız 4%-i üçün əhəmiyyət kəsb etmiş və ən vacib məsələnin namizədin dürüstlüyünün olduğu qeyd edilmişdir.

Demək olar ki, hər bir respondent qadın namizədlərə heç bir neqativ münasibət hiss etmədiyini qeyd etmişdir. Bu, təsadüfən seçilmiş qadın və ya kişi namizədlərin şəkilinin eyni məlumat ilə və respondentin həmin namizədə səs verib-verməyəcəyi barədə fikrini soruşmaqla da yoxlanmışdır. Kişi və ya qadınların şəkillərinin göstəriciləri arasında əhəmiyyətli fərq olmamışdır.

## 3. Media

Müsahiblərin əksəriyyətinin kampaniyalar zamanı media ilə bir əlaqəsi olmamışdır. Lakin, bir neçə mandatı olan bəzi qadın müsahiblər düşündürdülər ki, onlar media ilə yaxşı münasibətlər yaradıblar.

Eyni zamanda, müsahibə götürülmüş qadınlar kütləvi informasiya vasitələri ilə əməkdaşlıq zamanı bəzi çətinlik və uğursuzluqların da mövcud olduğunu bildirmişlər.

- Onlar özlərini kənarda qalmış hiss etmişdir, çünki mediadan faydalanmaq üçün ödəyəcək vəsaitləri yox idi.
- Onlar medianın yerli seçkilərlə maraqlanmadığını hiss etmişdir.
- Onlara ailə vəziyyətləri ilə bağlı sual verilmişdir və onlar inanır ki, kişi namizədlərə belə suallar verilmir.
- Onlar qadın namizəd olmaqla çətinliklərlə üzləşmişdir.

---

[43] Mənbə: Gender Barometeri: Moldovada, Kişenyovda İctimai Rəyin Öyrənilməsi, Moldova İctimai Siyasət İnstitutu, mənbə: www.ipp.md/lib.php?l=en&idc=156

[44] Mənbə: www.ndi.org/ukraine-gender-research-2016

Ermənistandan olan tədqiqatçılar o nəticəyə gəlmişdir ki, belə bir fikir var ki, hansısa neqativ mesaj vermək lazım olanda partiyalar qadınları televiziyaya çıxararaq onlardan istifadə edir.

Araşdırmanın aparıldığı ölkələrin heç birində medianın qadınlarla bağlı stereotip xarakterli baxışların aradan qaldırılmasında müsbət rol oynadığını göstərən o qədər də çox dəlil yoxdur.

## Gəlinən nəticələrin xülasəsi

- Qadınların cəmiyyətdə oynamalı olduğu rol ilə bağlı dərin və geniş yayılmış baxışlar və mədəni yanaşmalar mövcuddur. Qadınlardan evin, ailənin və qərar qəbul edən və çörək pulu qazanan kişilərin qayğısına qalmaq gözlənilir. Bu da özlərini siyasi vəzifələr tutmaq üçün potensial namizəd kimi görən qadınlara və onları namizəd kimi seçənlər və seçicilər üçün çətinliklər yaradır.
- Qadınlar iqtisadi baxımdan əlverişsiz vəziyyətdədir. Kişilərlə müqayisədə onların əmək bazarında iştirak etmək imkanları azdır. Qadınların əmək bazarında iştirak göstəriciləri, Azərbaycan istisna olmaqla, araşdırmanın aparıldığı bütün ölkələrdə aşağı düşmüşdür.
- Qadınların ümumi milli gəlir baxımından gəlir səviyyəsi kişilərdən aşağıdır. Qadınların gəlirləri ilə kişilərin gəlirləri arasındakı fərq adətən araşdırmanın aparıldığı ölkələrdə parlamentdə qadınların sayının çox olduğu Avropa ölkələrində olduğundan daha böyükdür.
- Qadınlar təhsil və səhiyyə kimi daha az maaşlı ictimai xidmətlərdə işləməklə, məşğulluqla bağlı cinsi ayrı-seçkilikdən əziyyət çəkirlər.
- Araşdırmanın aparıldığı bütün ölkələrdə qadınlar rəhbər vəzifələr tuturlar, lakin onların hansı səviyyədə rəhbər vəzifə tutduğunu göstərən heç bir məlumat yoxdur.
- Hətta, qadınların kişilərə nisbətən daha çox ali təhsilli olmaq ehtimalı olsa da, onlar mərkəzi idarəetmə orqanlarında mütənasib sayda vəzifələr tutmurlar.
- Ermənistanda və Belarusda qadınlara qarşı zorakılıq haqqında spesifik qanunlar yoxdur. Spesifik qanunların olduğu ölkələrdə isə az sayda qadın qabağa duraraq şikayət etmək istəyir və cinayət təqibi orqanları az sayda işləri araşdırır və ya təqib edir.
- Moldova, Gürcüstan və Ukrayna kimi bəzi ölkələrdə qadın QHT-ləri qadınların siyasi təmsilçiliyini artırmaq məqsədilə kvotaların müəyyən edilməsi və pozitiv tədbirlərin görülməsi üçün siyasətçilərlə əməkdaşlıq edir.
- Yeni medianın vətəndaşlar üçün informasiya mənbəyi kimi rolu getdikcə artır və yeni media siyasi təmsilçilər tərəfindən də istifadə edilməyə başlayır.
- Məcburi köçkünlər, milli azlıqlar və xaricdə yaşayan vətəndaşlar haqqında gender baxımından ayırd edilmiş məlumatlar yoxdur.
- Bu araşdırma üçün müsahibə vermiş qadınlar və tədqiqatçılar qeyd etmişdir ki, qadınların siyasi həyatda iştirakının qarşısını alan ən əsas maneə stereotip xarakterli yanaşmalar və geniş yayılmış ənənəvi fikirlərdir.

- Stereotip xarakterli yanaşmalar özünü təkcə seçicilərin baxışlarında deyil, həm də tez-tez opponentlərin və hətta siyasətçi həmkarların baxışlarında göstərir.
- Müxtəlif ölkələrdə yanaşmalarla bağlı keçirilmiş sorğularda müsbətə doğru inkişaf əlamətləri də var. Qadınların qərar qəbul etmək iqtidarında olmaması və buna görə də siyasi vəzifə tutmağa yaramaması ilə bağlı yanaşmalar dəyişməkdədir. Gənclər qadınların siyasətçi ola bilməməsi ilə bağlı fikirlərdən uzaqdır və onların nə vaxtsa seçicilərin əksəriyyətini təşkil edəcəyi qaçılmazdır.
- Ukraynada NDİ tərəfindən aparılmış araşdırma göstərir ki, seçiciləri şəxsin cinsi mənsubiyyətindən daha çox onun fərdi keyfiyyətləri, siyasi görüşləri və siyasətçi kimi göstəriciləri maraqlandırır.
- Araşdırmanın aparıldığı ölkələrin heç birində medianın qadınlarla bağlı stereotip xarakterli baxışların aradan qaldırılmasında müsbət rol oynadığını göstərən o qədər də çox dəlil yoxdur.

## B. SİYASİ AMİLLƏR

### Siyasi sistemlər

**Ermənistan** respublikadır. Prezident dövlətin başçısıdır və birbaşa seçilir. Milli Məclis hər beş ildən bir seçilir: 50 deputat majoritar və 41 deputat isə proporsional seçki sistemi yolu ilə seçilir.

**Azərbaycanda** prezidentlik sistemi mövcuddur. Prezident dövlət başçısıdır və hər beş ildən bir birbaşa seçilir. Baş nazir, nazirlər kabinetinin üzvü olan nazirlər və mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri prezident tərəfindən təyin olunur və Milli Məclis tərəfindən təsdiq edilir. Milli Məclis majoritar seçki sistemi yolu ilə birbaşa seçilən 125 deputatdan ibarətdir.

**Belarus** dövlət başçısı birbaşa seçilən prezidentli respublikadır. Milli Məclis Nümayəndələr palatasında 110 üzvdən, aşağı palatada isə 64 üzvdən ibarətdir. Nazirlər Şurasına baş nazir və beş müavini rəhbərlik edir və seçilməyin lazım olmadığı digərləri prezident tərəfindən təyin edilir.

**Gürcüstan** demokratik respublikadır. Prezident birbaşa seçilir. Parlamentin 150 üzvü var: 77-si partiya siyahısı üzrə, 73-ü isə majoritar yolla seçilir.

**Moldova** parlamentli demokratik respublikadır. Parlament ali orqandır və proporsional seçki sistemi ilə partiya siyahılarından seçilən 101 üzvdən ibarətdir. Moldova Konstitusiya Məhkəməsinin bu yaxınlarda verdiyi qərara[45] görə, prezidentin birbaşa vətəndaşlar tərəfindən seçilməsi gözlənilir. 16 il ərzində ilk birbaşa seçkilərin 30 oktyabr 2016-cı il tarixində keçiriləcəyi gözlənilir.

**Ukraynada** parlamentli prezidentli sistem mövcuddur. Prezident birbaşa seçilir. Əgər heç bir namizəd birinci turda səslərin 50%-ini toplamırsa, ən çox səs toplamış iki namizəd ikinci tura gedir. Parlament həm proporsional yolla partiya siyahılarından, həm də birmandatlı seçki dairələrindən majoritar yolla seçilmiş 450 üzvdən ibarətdir.

---

45 Mənbə: www.constcourt.md

## Siyasi partiyalar

Bu bölmədə seçilmiş siyasi partiyaların təşkilati strukturuna, xüsusilə də partiyanın qərar qəbuledici orqanlarında və ya siyasətə təsir edən təşkilatlarında qadınların olub-olmadığına, partiyalar tərəfindən hər hansı xüsusi tədbirlərin görülüb-görülmədiyinə və əgər bu cür tədbirlər görülmüşdürsə, onların qadın namizədlərin və seçilmiş nümayəndələrin sayının artmasına və ya azalmasına gətirib çıxarıb-çıxarmadığna  nəzər salınır.

Bütün aspektlər üzrə və bütün ölkələrdən məlumat əldə etmək mümkün olmamışdır.

### Sonuncu seçkilərdə iştirak etmiş partiyalar

**12 saylı Cədvəl: Sonuncu parlament seçkilərində iştirak etmiş siyasi partiyaların sayı və növləri**

| Ölkə | Siyasi partiyalar |
|---|---|
| Ermənistan | Sonuncu seçkidə iştirak etmək üçün qeydiyyatdan keçmiş 9 partiya |
| Azərbaycan | 11 partiya (3  müxalifət qrupu seçkidən əvvəl öz namizədlərini geri götürdü) |
| Belarus | (qeydiyyata alınmış 15 partiyadan) 8 partiya |
| Gürcüstan | 16 (15 partiya və 1 blok) |
| Moldova | 20 partiya (yalnız 5 partiya baryeri keçdi) |
| Ukrayna | 52 |

**13 saylı Cədvəl: Sonuncu yerli seçkilərində iştirak etmiş siyasi partiyaların sayı və növləri**

| Ölkə | Siyasi partiyalar |
|---|---|
| Ermənistan | Yerli seçkilərdə namizədlik müstəqil surətdə irəli sürülür. Namizədlərin partiya mənsubiyyəti barədə məlumat verməsinə ehtiyac yoxdur. Lakin, namizədlərin əksəriyyəti 5 əsas partiyaya mənsubdur. |
| Azərbaycan | 30 partiya; yerli seçkilərdə qalib gəlmiş namizədlərin 74%-nin partiya mənsubiyyəti var, lakin onlardan yalnız 59%-inin namizədliyi 8 siyasi partiya tərəfindən irəli sürülür. |
| Belarus | Yerli seçkilərdə iştirak edən namizədlərdən bəzilərinin siyasi partiya üzvləri olmasına baxmayaraq, onların namizədliyi siyasi partiyalar tərəfindən irəli sürülmür. |
| Gürcüstan | 24 seçki subyekti |
| Moldova | 43 yararlı; 21 partiya və bir blok iştirak etmiş və yalnız 9 partiyadan və bir blokun hərəsindən ən azı bir mer seçilmişdir. |
| Ukrayna | 142 |

## Partiyadaxili təşkilati struktur

Qadınların aşkar liderliyi daha çox qadını siyasi partiyaların fəaliyyətində iştirak etmək və həmçinin partiyanın siyasətinə təsir etmək üçün irəli çıxmağa həvəsləndirir.

**14 saylı Cədvəl: Partiya lideri və ya müavin kimi rəhbər mövqelərdə olan qadınlar (qanunvericilik orqanında təmsil olunan maksimum 5 siyasi partiyadan)**

| Ölkə | Rəhbər mövqedə olan qadınlar |
|---|---|
| Ermənistan | Çiçəklənən Ermənistan Partiyasının sədri<br>Hüququn Aliliyi Partiyasının Sədr müavini |
| Azərbaycan | Sədri qadın olan partiya yoxdur.<br>Birinci xanım prezidentin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının sədr müavinidir. |
| Belarus | Yoxdur |
| Gürcüstan | Gürcüstan Arzusu Blokunun bir üzvü və Respublika Partiyasının lideri qadındır. |
| Moldova | 29 sədr müavinindən 5-i qadındır |
| Ukrayna | Vətən (Batkivshchyna) Partiyasının lideri |

**15 saylı Cədvəl: Partiyada yüksək icra orqanında olan qadınlar**

| Ölkə | Yüksək icra orqanında olan qadınların faizi |
|---|---|
| Ermənistan | 5-10% |
| Azərbaycan | Azərbaycan Demokratik İslahat Partiyasında 40%<br>Yeni Azərbaycan Partiyasında 15%<br>Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasında 10% |
| Belarus | Məlumat yoxdur |
| Gürcüstan | Birləşmiş Milli Hərəkatda 16%<br>Gürcüstan Arzusu Blokunda 1 qadın<br>Respublika Partiyasında 33% |
| Moldova | 10%-ə qədər |
| Ukrayna | Həmrəylik Blokunda 12%<br>Xalqın Cəbhəsində 30%<br>Vətən (Batkivshchyna) Partiyasında 15% |

**16 saylı Cədvəl: Yüksək icra orqanında olan qadınlarla bağlı partiya qaydaları. Misal üçün: rezerv olunan yerlər**

| Ölkə | Qayda |
|---|---|
| Ermənistan | Yoxdur |
| Azərbaycan | Əsas partiyaların heç birində; Yalnız, seçkilərdən geri çəkilmiş, bir partiyada qadınlar üçün rəhbər vəzifələrlə bağlı 25%-lik kvota mövcuddur. |
| Belarus | Yoxdur |
| Gürcüstan | Respublika Partiyası bəyan etmişdir ki, onlar partiya daxilində gender kvotalarını dəstəkləyir, lakin bunu həyata keçirmək üçün heç bir prosedura yoxdur. |
| Moldova | Bəli, Qadınlar Qrupları Partiyasının prezidenti |
| Ukrayna | Yoxdur |

Araşdırma çərçivəsində nəzərdən keçirilmiş partiyalarda qadın sədrlərin və sədr müavinlərinin sayı azdır.

Bu sayın aşağı olmasına baxmayaraq, yalnız bir neçə partiyada qadınların cəlb olunmasını artırmaq üçün xüsusi mexanizmlər var. Gürcüstanda Respublika Partiyasının siyasəti mövcuddur, lakin hələ təcrübədə tətbiq olunmamışdır. Moldovada Qadınlar Qrupları Partiyasının prezidenti adətən icra orqanlarına daxil edilir.

**17 saylı Cədvəl: Qadınlar üçün altqruplar və onların hansısa xüsusi hüquqlara malik olub-olmaması**

| Ölkə | Qadınlar üçün altqruplar | Xüsusi rollar və ya hüquqlar |
|---|---|---|
| Ermənistan | Bəli, bütün partiyalarda qadınların altqrupları var | Partiya rəhbərliyinə heç bir təsiri və ya partiyanın siyasətinin müəyyən edilməsində iştirakı yoxdur |
| Azərbaycan | Bütün partiyaların qadın şuraları və ya qadın departamentləri var | Partiyanın konfransına nümayəndə heyəti göndərə bilər |
| Belarus | Yoxdur | - |
| Gürcüstan | Birləşmiş Milli Hərəkat-ın qadın qanadı var<br><br>Respublika Partiyası planlaşdırır | Heç bir spesifik hüquq yoxdur |
| Moldova | Bəli, bir qayda olaraq siyasi partiyalar daxilindəki qadın təşkilatları çox az gücə malikdir | Ən yüksək icra orqanında rezerv olunmuş yerlər var |
| Ukrayna | Yoxdur | - |

Qadın təşkilatları mövcud olduğu halda da onların bir o qədər də gücü və ya siyasətə təsir etmək imkanı yoxdur.

## Namizədlərin seçilməsi

Siyasi partiyalar seçkilərdə onların adından iştirak edəcək namizədləri seçir və həmçinin ayrı-ayrı şəxsləri namizəd olmağa həvəsləndirə bilir. Hətta, əgər namizəd siyahılarına qadınların daxil edilməli olmasını nəzərdə tutan kvotalar və yaxud daha çox qadını namizəd olmağa həvəsləndirən maliyyə stimulları (aşağıda növbəti bölməyə baxın) haqqında qanunvericilik olmasa da, siyasi partiyalar özləri daha çox qadın namizədi həvəsləndirmək və daha çox qadının seçilməsi üçün könüllü tədbirlər görə bilər.




### 1. Parlament seçkiləri

**18 saylı Cədvəl: Namizədlərin seçilməsində qadınların iştirak etməsini təmin edən xüsusi tədbirlər (misal üçün, minimal sayda qadın namizədlərin tələb olunması; və ya siyahıda yuxarı yerlərdə qadınların yer alması) və sonuncu parlament seçkilərində qadın namizədlərin faizi**

| Ölkə | Xüsusi tədbirlər | Qadın namizədlərin faizi | Seçkilərdən sonra hər bir partiyanın yerlərinin faizi |
|---|---|---|---|
| Ermənistan | Qanunvericiliklə müəyyən olunan kvota (aşağıda baxın) | Çiçəklənən Ermənistan: 17%<br>İrs Partiyası: 18%<br>Ermənistan Milli Konqresi: 19%<br>Ermənistan İnqilabi Federasiyası: 17%<br>Ermənistan Demokratik Partiyası: 20%<br>Ermənistan Kommunist Partiyası: 20%<br>Ermənistan Respublika Partiyası: 16%<br>Birləşmiş Ermənilər Partiyası: 21%<br>Hüququn Aliliyi: 18% | Məlumat yoxdur |

| | | | |
|---|---|---|---|
| Azərbaycan | Yoxdur | Yeni Azərbaycan Partiyası: 20%<br>Vətəndaş Həmrəyliyi Partiyası: 12%<br>Bütöv Azərbaycan Xalq Cəbhəsi: 23%<br>Azərbaycan Demokratik İslahatlar Partiyası: 15%<br>Milli Dirçəliş Hərəkatı Partiyası: 6% | Yeni Azərbay-can<br>Vətəndaş Həmrəyliyi: 0%<br>Bütöv Azər-baycan Xalq Cəbhəsi: 0%<br>Azərbaycan Demokratik İslahatlar: 0%<br>Milli Dirçəliş Hərəkatı: 0% |
| Bela-rus | Yoxdur | Belarus Sosial İdman Partiyasında 0.2%-dən Liberal Demokrat Partiyasında 16%-ə qədər | Məlumat yoxdur |
| Gürcüstan | Respublika Partiyası qadın namizədlərin 30%-nin propor-sional seçki siyahısının başında yerləş-dirilməsinə dəstək verdiyini bəyan etmişdir. | İki əsas partiyanın proporsional partiya siyahılarında ən az sayda qadına yer verilmişdir.<br>Birləşmiş Milli Hərəkat: ən yuxarı 10 yerdə 3 qadın<br>Gürcüstan Arzusu bloku: ən yuxarı 10 yerdə bir qadın | Birləşmiş Milli hərəkat: 11%<br>Gürcüstan Arzusu Bloku: 13% |
| Moldova | Demokratik Partiya, Liberal Demokratik Partiya, Liberal Partiya və Bizim Partiya mini-mum 30%-lik kvota müəyyən etmişdir. | 30% | Liberal Partiya: 13%<br>Demokratik Partiya: 21%<br>Liberal Demokratik Partiya:17%<br>Kommunist Partiyası: 33%<br>Sosialistlər Partiyası: 20% |
| Ukrayna | Yoxdur | Həmrəylik Bloku: 24%<br>Xalq Cəbhəsi: 19%<br>Vətən (Batkivshchyna) Partiyası: 29%<br>Samopomich: 34%<br>Radikal Partiya: 14% | Həmrəylik Blo-ku: 12%<br>Xalq Cəbhəsi: 15%<br>Vətən (Batkiv-shchyna) Partiyası: 26%<br>Samopomich: 31%<br>Radikal Partiya: 14% |

Qadın namizədlərin faizi ilə seçilmiş qadınların faizi arasında aydın bir əlaqə yoxdur, çünki adətən hansısa xüsusi bir tədbir görən və ya, Moldovada olduğu kimi, könüllü kvota tətbiq edən partiyalara təklif edilən həvəsləndirici maliyyə

dəstəyini əldə etmək istəyən daha kiçik partiyalar olur. Eynilə, Gürcüstanda da həvəsləndirici maliyyə dəstəyinin olması daha çox sayda qadının namizəd olması və ya seçilməsi ilə nəticələnməmişdir.

## 2. İnzibati (yerli səviyyəli) orqanlara seçkilər

Tədqiqatçılar tərəfindən keçirilmiş sorğularda iştirak edən bütün partiyalar yerli seçkilərdə də öz namizədlərini irəli sürür. Lakin, namizədlərin partiya təmsilçiləri olmadığı, lakin əksəriyyətinin partiya üzvləri olduğu Ermənistan, və siyasi partiyaların xalqla danışa bilmək üçün öz namizədlərini irəli sürdüyü, lakin seçkiləri "ədalətli" hesab etmədiyindən namizədliklərini geri götürdüyü Belarus istisna təşkil edir.

Araşdırmanın keçirildiyi ölkələrdə partiyaların yerli şuraya namizədlərin seçilməsi prosesində qadınların da təmsil olunması ilə bağlı heç bir qayda və ya xüsusiyyətləri yoxdur. Yeganə istisna Moldovadır. Moldovada üç partiya könüllü şəkildə 30%-lik kvota müəyyən etmişdir (yuxarıda 18 saylı Cədvələ baxın), lakin bu qayda yerli səviyyədə tətbiq edilmir.

**19 saylı Cədvəl: İnzibati səviyyədə partiyaların qadınlar tərəfindən tutulmuş yerləri**

| Ölkə | Partiyanın qadınlar tərəfindən tutulmuş yerli səviyyəli yerlərinin faizi |
|---|---|
| Ermənistan | Məlumat yoxdur |
| Azərbaycan | Yeni Azərbaycan Partiyası: 40%<br>Vətəndaş Həmrəyliyi Partiyası: 20%<br>Bütöv Azərbaycan Calq Cəbhəsi: 0%<br>Azərbaycan Demokratik İslahatlar Partiyası: məlumat əldə etmək mümkün olmayıb<br>Milli Dirçəliş Hərəkatı: məlumat əldə etmək mümkün olmayıb |
| Belarus | Məlumat yoxdur |
| Gürcüstan | Məlumat yoxdur |
| Moldova | Məlumat yoxdur |
| Ukrayna | Regional səviyyə -<br>Həmrəylik Bloku: 9%<br>Vətən (Batkivshchyna) Partiyası: 13%<br>Samopomich: 29% |

## Qadın məsələləri ilə bağlı partiya siyasəti

Qadınlar onların problemləri və onları narahat edən məsələlərin nəzərə alındığını və ya vacib hesab edildiyini görəndə, siyasətlə məşğul olmağı daha çox istəyirlər. Bu məsələlərdən bəzilərinin partiya manifestlərinə və ya proqramlarına daxil edilməsinə baxmayaraq, onlara partiyanın seçicilərə münasibətlərində o qədər də çox toxunulmur.

**20 saylı Cədvəl: Son seçkilərdə qadınlarla bağlı partiya siyasətləri**

| Sonuncu seçki proqramında partiyanın aşağıdakı məsələlərlə bağlı siyasəti var idimi? | | | | | | |
|---|---|---|---|---|---|---|
| | Ermənistan | Azərbaycan | Belarus | Gürcüstan | Moldova | Ukrayna |
| Qadın və qızlara qarşı zorakılıq | Xeyr | Bəli | Xeyr | Xeyr | Bəli | Xeyr |
| Qadınların təmsilçiliyi | Xeyr | Bəli | Xeyr | Xeyr | Bəli | Xeyr |
| Ayrı-seçkiliyə yol verilməməsi | Xeyr | Bəli (5-dən 3) | Xeyr | Xeyr | Xeyr | Xeyr |
| Cinsi və reproduktiv hüquqlar | Xeyr | Bəli (5-dən 2) | Xeyr | Xeyr | Xeyr | Xeyr |
| İş-həyat balansı | Xeyr | Xeyr | Xeyr | Xeyr | Bəli | Xeyr |
| Qadınların əmək bazarında iştirakı | Xeyr | Bəli (5-dən 3) | Xeyr | | Bəli | Xeyr |
| Qadınların sağlamlığı | Xeyr | Bəli (5-dən 4) | Xeyr | Xeyr | Bəli | Xeyr |
| Təhsil imkanları | Xeyr | Bəli | Xeyr | | Bəli | Xeyr |

Tədqiqatçılar bu məsələ ilə bağlı aşağıdakı şərhləri vermişdir.

Ermənistanda sonuncu seçkilərdə iştirak etmiş heç bir partiya qeyd edilmiş məsələlərə spesifik şəkildə toxunmamışdır. Onların hamısı ümumi şəkildə təhsil və səhiyyədən danışmış və bəzi hallarda qadınlara da toxunmuşdur. Lakin, partiyalardan heç biri (o cümlədən partiyadakı qadınlar) yuxarıda qeyd olunan məsələlərdən hər hansı birini xüsusi şəkildə qaldırmamışdır və qadın hüquqlarının təşviqi və müdafiəsi ilə bağlı hər hansı formada təbliğat aparmır və iş görmür.

Moldovada seçki proqramları ciddi qəbul edilmir – vətəndaş cəmiyyəti təşkilatları seçkiqabağı vədləri gözdən keçirməyə çalışır. Seçki proqramları ümumi xarakterli, demək olar ki, qeyri-mümkün və fantastik və maaşların artırılması, ÜDM-un 16%-inin təhsilə xərclənməsi, pensiyaların artırılması və s. kimi vədlərlə doludur. Gender bərabərliyi ilə bağlı heç bir əhəmiyyətli vədin verilməsi müşahidə edilməmişdir.

### Qadın namizədlər və ya siyasətçilər mediada

Seçki kampaniyaları zamanı mediada qadınlara o qədər də çox yer verilmir. Qadın namizədlərin efirdə görünməməsi və qadınların siyasi partiyalar adından çıxışlar etməməsi onu göstərir ki, qadın namizədlərə hələ də adi hal kimi yox, istisna hal kimi baxılır.

Tədqiqatçılardan ötən seçkilərdə qadınların siyasi partiyalar adından mediada çıxış edib-etmədikləri barədə də soruşulmuşdur.

#### Ermənistan

Bəli. Partiya sədrlərinin qadın müavinlərinin mediaya çıxışları var idi, lakin adətən onlar çətin mesajların ictimaiyyətə ötürülməsi rolunu oynayırdılar. Hamısı kişi olan partiya sədrləri isə əsasən seçicilərə pozitiv mesajlar çatdırmaq üçün mediaya çıxırdılar.

#### Azərbaycan

Xeyr. Sonuncu parlament seçkilərində namizədlərə pulsuz efir vaxtı ayrılmamış və yalnız (əsasən namizədlərin öz təşəbbüsləri il) hərdən bir bəzi müsahibələr dərc edilmişdi.

Qadın namizədlər diqqətin onların ailə vəziyyətlərinə yönəlməsini bəyənməmişdir. Bir müsahibin dediyi kimi:

Mənim ailəmlə bağlı maraqlananlar çox idi; kişilərlə bağlı isə vəziyyət belə deyildi.

Qadınlar həm də hesab edirdilər ki, pulları yoxdursa, onlar media baxımından əlverişsiz vəziyyətdədir.

Bir müsahib bu barədə belə qeyd etmişdir:

Media yalnız oliqarxlarla danışmaq istəyirdi.

Lakin, bəzi müsahiblər hesab edirdi ki, onların media ilə yaxşı münasibətləri var. Belə namizədlər, xüsusən də, ikinci və ya daha artıq dəfə namizəd olmuş və media ilə əlaqələr qurmağa vaxtı və imkanı olmuş qadınlar idi.

#### Belarus

Bəli (təfsilatlı məlumat verilmir).

### Gürcüstan

Bəli. Qadınların mediada partiya adından çıxış etməsi istisna hal deyildi. Lakin, bu cür çıxış nümunələrini təhlil etmək üçün hansısa araşdırma aparılmamışdır.

### Moldova

Bəli. Namizəd siyahılarında olan qadınların faizi – 30.5% ilə müqayisədə Televiziya debatlarında qadınların iştirak faizi 12.4% idi. Monitorinqi aparılmış 71 debatdan yalnız 16-sında qadın namizədlər iştirak etmişdir.

### Ukrayna

Bəli. Xüsusi şəkildə heç nə qeyd olunmur. Kişi və qadınlar bəzi hallarda partiya adından danışırdılar.

## Qadın namizədlərin və seçilmiş qadınların profilləri

Araşdırma çərçivəsində qadın namizədlərin və seçilmiş qadınların profilləri haqqında məlumat toplamağa çalışılmışdır. Bu məlumatlara onları siyasətdəki təcrübəsi (daha əvvəl vəzifə tutub tutmadıqları), bəyan edilmiş gəlirləri, yaşı, hansısa etnik azlığa mənsub olub-olmadıqları, təhsil və peşələri aid idi. Bunlar barədə o qədər də çox məlumat əldə etmək mümkün deyildi və ya bu məlumatları araşdırmanın məhdud müddəti çərçivəsində toplamaq çətin idi.

Əldə etməyin mümkün olduğu məlumatlar onu göstərir ki, seçilmiş qadın və kişilərin böyük əksəriyyəti ali təhsillidir: Ermənistanda, Azərbaycanda və Belarusda 100%, Ukraynada seçilmiş kişilərin 97%-i, qadınların isə 98%-i ali təhsillidir.

**21 saylı Cədvəl: Namizədlər (qanunvericilik hakimiyyəti)**

| | Moldova | | | Ukrayna | | | Gürcüstan | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | K | Q | Cəmi | K | Q | Cəmi | K | Q |
| Cəmi | 1 885 | 1 310 | 575 | 6 339 | 5 099 | 1 240 | 2 742 | 1 954 | 788 |
| Partiya | 1 881 | 1 306 | 575 | 4 403 | 3 450 | 953 | 2 313 | 1 584 | 729 |
| Müstəqil | 4 | 4 | 0 | 1 936 | 1 649 | 287 | 429 | 370 | 59 |

| | Ermənistan | | | Azərbaycan | | |
|---|---|---|---|---|---|---|
| | Cəmi | K | Q | Cəmi | K | Q |
| Cəmi | 1 164 | 950 | 214 | 767 | 626 | 141 |
| Partiya | 1 164 | 950 | 214 | | | |
| Müstəqil | | | | | | |

Belarus barədə heç bir məlumat yoxdur.

**22 saylı Cədvəl: Seçilmiş namizədlər (qanunvericilik hakimiyyəti)**

| | Moldova | | | Ukrayna | | | Gürcüstan | | | Ermənistan | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | K | Q | Cəmi | K | Q | Cəmi | K | Q | Cəmi | K | Q |
| Cəmi | 101 | 80 | 21 | 422 | 371 | 51 | 150 | 132 | 18 | 131 | 117 | 14 |
| Partiya | 101 | 80 | 21 | 327 | 276 | 51 | 77 | 66 | 11 | | | |
| Müstəqil | | | | 95 | 95 | | 73 | 66 | 7 | | | |

| | Azərbaycan | | | Belarus | | |
|---|---|---|---|---|---|---|
| | Cəmi | K | Q | Cəmi | K | Q |
| Cəmi | 125 | 104 | 21 | 110 | 80 | 30 |
| Partiya | 83 | 70 | 13 | 5 | 3 | 2 |
| Müstəqil | 42 | 34 | 8 | 105 | 77 | 28 |

**23 saylı Cədvəl: Qadın namizədlərin və seçilmiş qadınların faizi – Qanunvericilik hakimiyyəti**

| Ölkə | Namizədlər | | Qalib gəlmiş namizədlər | |
|---|---|---|---|---|
| | Kişi | Qadın | Kişi | Qadın |
| Ermənistan | 82 | 18 | 90 | 10 |
| Azərbaycan | 82 | 18 | 84 | 16 |
| Belarus | Məlumat yoxdur | Məlumat yoxdur | 73 | 27 |
| Gürcüstan | 72 | 28 | 88 | 12 |
| Moldova | 70 | 30 | 80 | 20 |
| Ukrayna | 81 | 19 | 88 | 12 |

Seçkidə qalib gəlmiş qadınların faizinin ən aşağı olduğu ölkə Ermənistan, ən yuxarı olduğu ölkə isə Belarusdur. Qadın namizədlərin faizinin ən çox olduğu ölkə Moldovadır.

**24 saylı Cədvəl: Komissiyaların/komitələrin sədrləri və sədr müavinləri**

| | Moldova | | Ukrayna | | Gürcüstan | | Belarus | |
|---|---|---|---|---|---|---|---|---|
| | Qadın | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın | Kişi |
| Sədrlər/ Rəhbərlər | 3 | 6 | 7 | 21 | 1 | 14 | 2 | 11 |
| Sədr müavinləri | 1 | 13 | 2 | 1 | 7 | 37 | 13** | 23* |

*13 komissiyada

** 7 komissiyada

Qanunvericilik hakimiyyətində vəzifə tutan qadın və kişilər barədə məlumat göstərir ki, qadınlar az sayda komitə sədri və sədr müavini vəzifələrini tuturlar. Hansı komitədə/komissiyada qadınların vəzifə tutması və onlar arasında hüquqi məsələlər, iqtisadi siyasət və ya müdafiə kimi əsas sahələrlə bağlı məsul vəzifələrin olub-olmadığı barədə məlumatımız yoxdur.

### Maliyyə

Tədqiqatçılar və müsahiblər qadınlar barədə stereotip xarakterli baxışların və gümanların mövcudluğunun qadınların siyasi təmsilçiliyinə ən böyük maneə olduğunu müəyyən etsələr də, maliyyə və onun çatışmazlığı da qadınlar üçün ciddi problemdir.

Seçki kampaniyası aparmaq üçün pul xərcləmək lazımdır və hətta namizədlər siyasi partiyaların üzvləri kimi çıxış edəndə də onlara partiya tərəfindən verilən maliyyə dəstəyi kampaniyanın xərclərini ödəmək üçün kifayət etmirdi. Seçki kampaniyasının xərcindən əlavə, müstəqil namizədlər depozitin məbləğinin də çox yüksək olduğunu hesab edirdilər.

Bir tədqiqatçı bildirmişdir ki, qadınlar ailələri üçün pul qazanırlar, özlərinə xərcləmək üçün deyil, və siyasi kampaniya da pulu özünə xərcləmək kimi bir şeydir.

Müsahibə verən qadınların əksəriyyəti həm məktəb və həm də universitet səviyyəsində təhsil, tibb, QHT-lər və jurnalistika sahəsində işləyirdilər. Bu sektorlarda maaş yaxşı deyil və buna görə də qadınların öz kampaniyalarını maliyyələşdirmək üçün istifadə edə biləcəkləri pulu yığmaq imkanları demək olar ki yoxdur.

Bir keçmiş millət vəkili demişdi ki, o, hər şey üçün pul istəməli olurdu və hətta sonra:

> Partiya üzvləri ona təkəbbürlə baxırdılar, çünki o, pul istəməyə məcbur idi.

Maliyyə dəstəyinin olmaması qadınların niyə öz namizədliklərini yenə verə bilməmələri ilə bağlı göstərdikləri ən əsas səbəb idi. Onlar həmçinin hesab edirdilər ki, kampaniya üçün pul qoya bilmədiklərinə görə onların namizədlikləri qalib gəlməyin mümkün olduğu yerlərdən verilmir və onların adları partiya siyahılarında qalib gəlməyin mümkün olduğu yerlərə salınmırdı.

## Gəlinən nəticələrin xülasəsi

- Araşdırmada göstərilən siyasi partiyalardan yalnız üçünün qadın sədrləri; yeddisinin isə qadın sədr müavinləri var. Yuxarı icra orqanlarında yer alan qadınların faizi Azərbaycandakı bir partiyada 40%-dən Ermənistanda 5-10%-ə qədər dəyişir. Bu o deməkdir ki, partiyalar adından mediada yalnız bir neçə qadın çıxış edəcək və ya siyasətin müəyyən olunmasında yalnız bir neçə qadın iştirak edəcəkdir.
- Əldə edilən məlumatlara görə, partiyaların əksəriyyətində qadınlar üzrə alt-qruplar var, lakin onların yüksək statusu və ya siyasətə təsiri yoxdur.
- Araşdırma çərçivəsində nəzərdən keçirilmiş siyasi partiyalar, əsasən, qadınların sayını artırmaq üçün tədbir görmür.
- Azərbaycan və Moldovada bəzi partiyaların qadın məsələləri ilə bağlı siyasətləri var; sorğu keçirilmiş digər ölkələrdə isə qadınlara qarşı zorakılıq kimi qadın məsələləri ilə bağlı heç bir spesifik siyasət yoxdur.

- Qadınlar mediada siyasi partiyalar adından o qədər də çox çıxış etmirdilər.
- Bir neçə partiya qadın namizədlər üçün könüllü olaraq 30%-lik kvotalar müəyyən etmişdir. Lakin, bunlar kiçik partiyalar olduğundan, onların qadınların tutduğu yerlərin faiz göstəricisinə əhəmiyyətli bir təsiri olmamışdır. Bunlar yerli səviyyədə tətbiq olunmur.
- Gürcüstanda namzidələrin 30%-nin qadın olması tələbini yerinə yetirmiş siyasi partiyalara verilən maliyyə həvəsləndirməsi seçilmiş qadınların sayının artmasına gətirib çıxarmamışdır, çünki bu siyasət yalnız kiçik və seçkilərdə qalib gəlmək ehtimalı olmayan partiyalar tərəfindən qəbul edilmişdir.
- Partiyanın namizədlərinin seçilməsinin aydın və şəffaf mexanizmlərinin olması namizədliyini verə bilmək üçün partiya daxilində tanınmış olmalı olan qadınlardan asılılığın azaldılmasına kömək edə bilər.
- Qadın namizədlərin və seçkidə qalib gəlmiş qadınların təhsil göstəriciləri daha yüksəkdir.
- Araşdırmanın aparıldığı bütün ölkələrdə qanunvericilik hakimiyyəti səviyyəsində seçilmiş qadınların sayı azdır.
- Namizədlərin yaşı, bəyan edilən gəliri, peşəsi və ya etnik mənsubiyyəti barədə məlumatları əldə etmək mümkün olmayıb.
- Seçildikdən sonra, qadınların komissiya və ya komitələrin sədrləri olmaq ehtimalı azdır: Moldovada 6-dan 3; Ukraynada 12-dən 7; Gürcüstanda 4-dən 1; Belarusda 11-dən 2. Qadınlar tərəfindən sədrlik edilən komitələr/komissiyaların səlahiyyət sahələri barədə məlumat əldə etmək mümkün olmayıb.
- Seçilmək və kampaniyanı maliyyələşdirmək üçün vəsaitin olmaması qadınların siyasi təmsilçiliyi üçün əsas maneədir.



## C. QANUNVERİCİLİK

### Beynəlxalq öhdəliklər

Araşdırmanın aparıldığı bütün ölkələr Qadınlara qarşı Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv edilməsi haqqında BMT Konvensiyasını (CEDAW)[46] ya imzalamış, ya da Konvensiyanın onlara münasibətdə məcburi hüquqi qüvvəyə malik olmasına razılaşmışdır. Bununla da, onlar öz üzərinə 2-ci Maddəyə əsasən qadın və kişilərin bərabərliyi prinsipini öz milli konstitusiyalarına daxil etmək və qanunlar və başqa vasitələrlə həmin prinsipin praktiki baxımdan həyata keçirilməsini təmin etmək öhdəliyi götürmüşdür. Konvensiyanı imzalamış dövlətlərdən qadınlar üçün bərabərliyə nail olunması üzrə görülən işlərin gedişatı barədə BMT komitəsinə müntəzəm hesabatlar təqdim etmək tələb olunur. Hesabatlar seçilmiş qadın təmsilçilərin sayının artırılması üçün görülən işlərin gedişatı ilə bağlı mövcud olan çətinliklər barədə QHT-lərin məlumat verə bilməsi və komitə tərəfindən verilən tövsiyələrlə bağlı sonrakı gedişatı izləmək üçün faydalı bir mexanizmdir.

**25 saylı Cədvəl: BMT CEDAW Konvensiyasını imzalamış dövlətlər[47]**

| Ölkə | Ratifikasiya/Qoşulma |
|---|---|
| Ermənistan | 13 sentyabr 1993-cü il |
| Azərbaycan | 10 iyul 1995-ci il |
| Belarus | 4 fevral 1981-ci il |
| Gürcüstan | 26 oktyabr 1994-cü il |
| Moldova | 1 iyul 1994-cü il |
| Ukrayna | 12 mart 1981-ci il |

Ölkələrdən beşi Avropa Şurasının üzvüdür və Avropa İnsan Hüquqları Konvensiyasının və onun protokollarının tərəfləridir.[48] 14-cü Maddə Konvensiyada təsbit olunmuş hüquq və azadlıqlarla bağlı cinsə görə ayrı-seçkiliyi qadağan edir. 1 saylı Protokolun 3-cü Maddəsində azad seçki hüququ təsbit edilir. 12 saylı Protokol ilə qanunla nəzərdə tutulan hüquqlardan istifadə ilə bağlı ayrı-seçkilik ümumiyyətlə qadağan edilir və göstərilir ki, heç kəs dövlət hakimiyyəti orqanı tərəfindən cinsə görə ayrı-seçkiliyə məruz qalmamalıdır. Lakin, Belarus istisnadır.\

Bütün ölkələr BMT-nin Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktı[49] imzalamış və onun hüquqi qüvvəsini tanımışdır ki, bu da üzv ölkələrin üzərinə Paktda təsbit edilmiş bütün mülki və siyasi hüquqların həyata keçirilməsi ilə bağlı qadın və kişilərin hüquq bərabərliyini təmin etmək öhdəliyi qoyur. Bu hüquqlara aşağıdakılar da daxildir:

- dövlət işlərində iştirak etmək hüququ və imkanı;
- seçmək və seçilmək hüququ.

Bu o deməkdir ki, bütün dövlətlərin qadınların səs verməsi, namizəd olması və seçilməsi üçün kişilərlə bərabər hüquqlara malik olmasını təmin etməsi üçün beynəlxalq standartlar baxımından möhkəm hüquqi əsaslar vardır.

### Milli qanunvericilik

[46] Mənbə: Available at: www.un.org/womenwatch/daw/cedaw/

[47] http://tbinternet.ohchr.org/_layouts/TreatyBodyExternal/Treaty.aspx?Treaty=CEDAW&Lang=en

[48] Mənbə: www.echr.coe.int/pages/home.aspx?p=basictexts

[49] Mənbə: www.ohchr.org/en/professionalinterest/pages/ccpr.aspx

Hər bir dövlətdə qadın və kişilərin hüquq bərabərliyinə təminat verən milli qanunvericilik sistemi vardır.

## 1. Qadınlar üçün bərabər hüquqlar

**26 saylı Cədvəl: Qadınlar üçün bərabər hüquqlara təminat verən qanunvericilik sistemi**

| Ölkə | Qanunvericilik |
|---|---|
| Ermənistan | Qadın və Kişilər üçün Bərabər Hüquqlar və Bərabər İmkanlar haqqında 2013-cü il Qanunu |
| Azərbaycan | Konstitusiyanın 25-ci Maddəsi: "Dövlət, irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir."<br><br>Gender (kişi və qadınların) Bərabərliyinin Təminatları haqqında Qanun. |
| Belarus | Konstitusiyanın 22-ci Maddəsində qeyd olunur ki, bütün vətəndaşlar qanun qarşısında bərabərdir və ayrı-seçkilik olmadan hüquqlarının və qanuni mənafelərinin bərabər şəkildə qorunması hüququna malikdir. Əsas qanunda cinsi ayrı-seçkiliyi qadağan edən və ya qadın və kişilərin bərabərliyi haqqında xüsusi müddəalar yoxdur. |
| Gürcüstan | Gender Bərabərliyi haqqında 2010-cu il Qanununun 3-cü Maddəsinə (anlayışlar) əsasən Gender Bərabərliyi dedikdə: "bərabər hüquqlar və öhdəliklər, məsuliyyətlər və kişi və qadınların şəxsi və ictimai həyatın bütün sahələrində bərabər iştirakı ilə bağlı, insan hüquqları hüququnun bir hissəsi başa düşülür." |
| Moldova | Qadın və kişilərin bərabər hüquqlarının təmin olunması haqqında qanun |
| Ukrayna | Konstitusiyanın 24-cü Maddəsi: Vətəndaş bərabər konstitusion hüquqlara və azadlıqlara malikdir və qanun qarşısında bərabərdir. İrq, dərinin rəngi, siyasi, dini və digər əqidələr, cins, etnik və sosial mənşə, əmlak vəziyyəti, yaşayış yeri, dil və digər xüsusiyyətlər əsasında tətbiq hər hansı üstünlüklərə və ya məhdudiyyətlərə yol verilmir. |

## 2. Seçkilərdə hüquq bərabərliyinə təminat verən qanunvericilik normaları

Bəzi dövlətlərdə xüsusi olaraq seçkilərlə bağlı hüquq bərabərliyini təmin edən bəzi normalar vardır.

**27 saylı Cədvəl: Seçkilərdə hüquq bərabərliyi**

| Ölkə | Seçki qanunvericiliyi üzrə təminatlar |
|---|---|
| Ermənistan | Seçki Məcəlləsi, Maddə 3 – Bərabər Seçki hüququ<br>1. Seçicilər seçkidə bərabər şəkildə iştirak edir.<br>2. Dövlət seçicilərin seçki hüququndan istifadə edə bilməsi üçün bərabər şəraitin yaradılmasını təmin edir.<br>Seçicilər etnik mənşə, irq, cins, dil, din, siyasi və ya digər əqidə, sosial mənşə, əmlak vəziyyəti və ya digər vəziyyət baxımından heç bir fərq olmadan səs vermək və seçilmək hüququna malikdir. |
| Azərbaycan | Xüsusi bir qanunvericilik norması yoxdur. |
| Belarus | Xüsusi bir qanunvericilik norması yoxdur. |
| Gürcüstan | Gender Bərabərliyi haqqında Qanun, 11-ci Maddə<br>1. Hər kəsin ayrı-seçkilik olmadan, bərabər şərtlərlə seçkilərdə iştirak etmək hüququ var.<br>2. Qanunvericilik hakimiyyəti orqanına seçilmək hüququnun həyata keçirilməsi zamanı hər iki cinsin nümayəndələrinin iştirakı üçün bərabər imkanlar təmin edilməlidir.<br>Qadınlar və kişilər ayrı-seçkilik olmadan, bərabər şərtlərlə seçilə bilərlər. |
| Moldova | Xüsusi bir qanunvericilik norması yoxdur. |
| Ukrayna | Prezident Seçkiləri haqqında Qanun, Maddə 3 - Bərabər Seçki hüququ<br>Parlament Seçkiləri haqqında Qanun, Maddə 3 - Bərabər Seçki hüququ<br>Yerli Seçkilər haqqında Qanun, Maddə 4 - Bərabər Seçki hüququ<br>Ukrayna vətəndaşları seçkilərdə bərabər şəkildə iştirak edir. Bütün namizədlər və partiyalar seçki prosesində iştirak etmək üçün bərabər hüquqlara və imkanlara malik olmalıdır ki, bu da aşağıdakı yollarla təmin edilməlidir:<br>(i) irq, dərinin rəngi, siyasi, dini və ya digər əqidə, cins, etnik və sosial mənşə, maddi vəziyyət, yaşayış yeri, dil və ya digər əsaslar üzrə üstünlük və ya məhdudiyyətlərin qadağan olunması;<br>(ii) qanunvericiliklə müəyyən edilən hallar istisna olmaqla, dövlət orqanlarının və özünüidarəetmə orqanlarının seçki prosesinə müdaxiləsinin qadağan olunması;<br>(iii) Dövlət orqanları və yerli özünüidarəetmə orqanları tərəfindən namizədlərə/partiyalara bərabər və qərəzsiz münasibət göstərilməsi;<br>(iv) namizədlərin/partiyaların seçki üçün nəzərdə tutulan müvafiq vəsaitlərdən başqa resurslardan istifadə etməsinin qadağan olunması;<br>(v) Kütləvi informasiya vasitələri tərəfindən namizədlərə/partiyalara bərabər və qərəzsiz münasibət göstərilməsi. |

### 3. Qadınlar üçün əlverişsiz olan qanunvericilik normaları

Məsləhətçilərdən qadınlar üçün əlverişsiz olan qanunvericilik müddəalarını tapıb göstərmək xahiş edilmişdir.

**28 saylı Cədvəl: Qanunvericilik normaları qadınlar üçün əlverişsizdirmi?**

| Ölkə | Bəli/Xeyr | Təfsilatlar |
|---|---|---|
| Ermənistan | Xeyr | - |
| Azərbaycan | Xeyr | Qadınların ictimai siyasi həyatda iştirakı məsələsi ilə bağlı heç bir əlverişsiz müddəa yoxdur. Lakin, müxtəlif məsələlərlə, misal üçün, məcburi köçkün qadınların statusu ilə bağlı bəzi əlverişsiz müddəalar vardır. |
| Belarus | Bəli | Bəzi xüsusi sənədlər, misal üçün, "qadınların işə götürülməsinin yol verilmədiyi fiziki güc tələb edən və zərərli və/və ya təhlükəli iş şəraiti olan işlərin siyahısına dəyişiklik edilməsi haqqında" direktiv. Bu sənəddə kimya, mədən, gön-dəri və ağır sənaye ilə bağlı qadınların işləməsinə icazə verilməyən 181 peşənin siyahısı verilir. Siyahı sonuncu dəfə 12 iyun 2014-cü il tarixində yenilənmişdir. |
| Gürcüstan | Xeyr | Birbaşa müddəa yoxdur. Gürcüstan qanunları gender baxımından neytraldır ki, bu da çox vaxt qadınlar üçün əlverişsiz olur. Çünki, qadınlar üçün xüsusi hüquqlar lazımdır. |
| Moldova | Xeyr | Birbaşa müddəa yoxdur. Lakin, qadınlar üçün dolayısı ilə əlverişsiz olan xeyli müddəa vardır. Misal üçün, kampaniyanın maliyyələşdirilməsi ilə bağlı, maliyyə dəstəyini məhdudlaşdırmayan müddəalar. Bu müddəalar nəticəsində, maliyyə əldə etmək imkanları az olan qadınlar əlverişsiz vəziyyətdə qalır. |
| Ukrayna | Xeyr | - |

Məsləhətçilərdən bir neçəsi müəyyən etmişdir ki, qanunların gender baxımından neytral olması özü-özlüyündə qadınların öz hüquqlarını həyata keçirməsinə dəstək vermir və, buna görə də, misal üçün, kampaniyanın maliyyələşdirilməsi ilə bağlı xüsusi tədbirlərin görülməsi qadınlara qarşı dolayı ayrı-seçkilik effekti yarada bilər.

## Seçki sistemi

### 1. Qanunvericilik hakimiyyətinə seçkilərlə bağlı

Ən sonuncu seçkilər və seçki sistemləri aşağıdakı cədvəllərdə göstərilir.

**29 saylı Cədvəl: Qanunvericilik hakimiyyətinə seçkilər**

| Ölkə | Sonuncu seçkilərin tarixi |
|---|---|
| Ermənistan | 6 may 2012-ci il |
| Azərbaycan | 1 noyabr 2015-ci il |
| Belarus | 23 sentyabr 2012-ci il |
| Gürcüstan | 1 oktyabr 2012-ci il |
| Moldova | 30 oktyabr 2014-cü il |
| Ukrayna | 26 oktyabr 2014-cü il |

**30 saylı Cədvəl: Hər bir ölkə üçün qəbul edilmiş seçki sistemləri**

| Ölkə | Seçki sistemləri |
|---|---|
| Ermənistan | Yarım-proporsional |
| Azərbaycan | Majoritar sistem: sadə çoxluq |
| Belarus | Majoritar sistem: sadə çoxluq |
| Gürcüstan | Yarım-proporsional |
| Moldova | Proporsional təmsilçilik |
| Ukrayna | Qarışıq proporsional-majoritar |

## 1. Namizədlik üçün tələblər

Bütün ölkələrdə namizədlik üçün tələblər seçki məcəlləsində və/və ya konstitusiyada müəyyən edilir.

- Yaş: qanunvericilik hakimiyyəti üçün namizədin yaş həddi Moldovada 18 yaşdan Azərbaycanda 25 yaşa qədər dəyişir.
- Vətəndaşlıq: bütün ölkələrdə namizəd vətəndaş olmalı, bir neçə ölkədə isə namizəd son beş il ərzində həmin ölkədə yaşamış olmalıdır.
- Digər məhdudiyyətlər: namizədliyini verən şəxsin üzərində hər hansı məhkumluq və ya hüquqi məhdudiyyətlər olmamalıdır.
- Siyasi nominasiya: Ermənistanda, Moldovada, (majoritar seçki dairələrində) Gürcüstanda və Belarusda namizəd siyasi partiyanın (və ya siyasi partiyalar blokunun) onun namizədliyinin irəli sürülməsi barədə qərarını təqdim etməlidir.
- Müstəqil namizədlər: dörd ölkədə (Moldovada, Gürcüstanda, Belarusda və Azərbaycanda) namizədlər seçicilərin/dəstəkçilərin imzalarını təqdim etməlidir. İmzaların sayı Gürcüstanda beşdən Belarusda 1400-ə qədər dəyişir.
- Üç ölkədə, namizəd pul depoziti qoymalıdır: özü öz namizədliyini irəli sürmüş namizədlər üçün / tək mandatlı seçki dairələrində partiyalar tərəfindən irəli sürülmüş namizədlər üçün minimum əmək haqqı məbləğinin 10 misli məbləğində və ölkə miqyaslı seçki dairələrində namizədlər irəli sürmüş partiyalar üçün Ukraynada minimum əmək haqqının 1000 misli məbləğində, Ermənistanda minimum əmək haqqının 8 000 misli məbləğində və Gürcüstanda GEL 5 000[50] məbləğində depozit tələb olunur. Namizədliyi siyasi partiyalar və ya partiya blokları tərəfindən irəli sürülmüş namizədlər üçün bu depozitlər partiya tərəfindən ödənilir.

[50] 2 093 Avro





**31 saylı Cədvəl: Namizədlik üçün əsas tələblər – Qanunvericilik hakimiyyəti**

| Ölkə | Nominasiya | | Namizədlər haqqında məlumat | | Pul depoziti | |
|---|---|---|---|---|---|---|
| | Siyasi partiya | Özü tərəfindən | Digər | Yaş | Gəlir / əmlak / maliyyə öhdəlikləri | |
| Ermənistan | - partiyanın nizamnaməsi<br>- daimi icra orqanın qərarı<br>- seçki siyahısı<br>- Namizədlərin yazılı razılığı<br>- pul depozitinin ödənilməsi barədə qəbz<br>- vətəndaşlığı təsdiq edən bəyanat<br>- şəxsi sənədlərin surətləri | | Siyasi partiyaların alyansı | | Yox-dur | Proporsional seçkilər üçün minimum əmək haqqının 8 000 misli<br><br>Majoritar seçkilər üçün minimum əmək haqqının 1 000 misli |
| Azərbaycan | | - minimum 450 imza<br>- ötən il əldə edilmiş gəlirlər barədə məlumat<br>- əmlak barədə məlumat | Namizədliyi seçicilər və ya siyasi partiyalar bloku tərəfindən irəli sürülmüş | 25+ | Mə-lum deyil | |

| Ölkə | Nominasiya | | Namizədlər haqqında məlumat | | Pul depoziti | |
|---|---|---|---|---|---|---|
| | Siyasi partiya | Özü tərəfindən | Digər | | Siyasi partiy | Özü tərəfindən |
| Belarus | Müstəqil namizədlər üçün olduğu kimi, üstəlik:<br>- ali orqanın nominasiya haqqında protokolu<br>- siyasi partiyanın qeydiyyat şəhadətnaməsinin surəti<br>- partiyanın nizamnaməsi<br>- namizədin siyasi partiyanın üzvü olduğunu göstərən şəhadətnamə | - ərizə və razılıq<br>- şəxs haqqında məlumat<br>- gəlir və əmlak bəyannaməsi<br>- lazım olarsa, vəzifədən getmək və ya səlahiyyətlərə xitam verilməsi barədə razılıq | Nümayəndələr Palatası – 10 nəfərdən az olmayan seçicilər qrupu üçün<br><br>Deputatlar Şuraları – 3-dən 10-a qədər olan şəxslər qrupu üçün | 21+ | Yoxdur | |
| Gürcüstan | - ərizə<br>- dəstəkləyən namizədlərin imzaları<br>- şəxsiyyəti təsdiq edən sənədin sürəti<br>- 2 ədəd fotoşəkil | | Seçki bloku 5 üzvdən ibarət təşəbbüs qrupu | 21+ | | 5 000 GEL |
| Moldova | - Ali və ya ərazi üzrə orqanın nominasiya ilə bağlı protokolu<br>- namizədlərin siyahısı<br>- bioqrafik məlumatlar<br>- namizədlərin nominasiya olunmağa dair razılığı | - tələb olunan sayda imza ilə verilmiş petisiyalar | | 18+ | - daşınmaz əmlak, bank hesabları, miras, gəlir və heç bir qanuni məhdudiyyətin olmaması haqqında bəyannamə | |

| Ölkə | Nominasiya | | Namizədlər haqqında məlumat | | Pul depoziti | |
|---|---|---|---|---|---|---|
| | Siyasi partiya | Özü tərəfindən | Digər | | Siyasi partiy | Özü tərəfindən |
| Ukrayna | - qeydiyyata alınmaq üçün partiyanın rəhbəri tərəfindən imzalanmış ərizə<br>- partiyanın nizamnaməsi və qeydiyyat şəhadətnaməsi<br>- partiyanın ali orqanının qərarı<br>- namizədlərin siyahısı<br>- namizədlərin nominasiya olunmağa dair razılığı<br>- bioqrafik məlumatlar<br>- pul depozitinin ödənilməsi barədə qəbz<br>- 4 ədəd fotoşəkil<br>- namizədlərin Ukraynanın vətəndaşlıq pasportunun birinci və ikinci səhifələrinin fotosurəti | | | 21+ | - əmlak, gəlir, xərclər və maliyyə öhdəlikləri haqqında bəyannamə<br><br>- minimum əmək haqqının 1 000 misli | |

Bəzi müsahiblər müstəqil namizəd kimi imza toplamağın seçiciləri tanımaq və namizəd olacaqları barədə daha çox insana məlumat vermək baxımından nə qədər faydalı olduğunu qeyd etmişdir. Müsahiblərdən biri qeyd etmişdir ki:

> Bu, insanlarla söhbət etmək baxımından faydalıdır.

Lakin, tələb olunan pul depozitləri qadınların müstəqil namizəd kimi çıxış etməsini çətinləşdirirdi.

Müstəqil namizədlər və seçkidə qalib gəlmiş namizədlər

Müstəqil namizəd kimi çıxış edən namizədlərin sayı, Ukraynada sonuncu 2014-cü il seçkiləri istisna olmaqla, o qədər də çox deyil.

**32 saylı Cədvəl: Müstəqil namizədlər və seçkidə qalib gəlmiş müstəqil namizədlər**

| Ölkə | Müstəqil namizədlər | | Seçkidə qalib gəlmiş müstəqil namizədlər | |
|---|---|---|---|---|
| | Kişi | Qadın | Kişi | Qadın |
| Ermənistan | | | | |
| Azərbaycan | | | 34 | 8 |
| Belarus | | | 77 | 28 |
| Gürcüstan | 370 | 59 | 66 | 7 |
| Moldova | 4 | 4 | | |
| Ukrayna | 1 649 | 287 | 95 | |

## Vakant yerlər

Vakant yer yaranarsa, həmin yeri partiya siyahısında olan növbəti şəxsin qazanması seçkilərlə bağlı xüsusi bir mövzudur. Bəzi hallarda, o cümlədən Ermənistanda, qadın namizədlərlə bağlı kvotanın olduğu vəziyyətlərdən çıxmaq üçün bundan istifadə olunmuşdur. Qanunvericilikdə qadın nümayəndənin yerinin başqa bir qadın tərəfindən tutulmalı olması tələb olunmur. Ermənistandan olan tədqiqatçının da izah etdiyi kimi, bu, qadın namizədlərin seçkilərdən sonra öz namizədliklərini geri götürməsi (bunun əvvəlcədən planlaşdırılmış şəkildə edilib edilmədiyi aydın deyil) və onların kişi namizədlə əvəz olunması təcrübəsinin yaranmasına gətirib çıxarmışdır.

Araşdırmanın aparıldığı ölkələr arasında Ermənistan, Moldova, Gürcüstan və Ukrayna kimi proporsional təmsilçilik (PT) sistemlərinə malik olan ölkələrdə vakant yer siyahıda olan növbəti şəxs tərəfindən tutulur. Majoritar/pluralist seçki sistemi olan ölkələrdə isə boşalmış yerlər üzrə yeni seçkilər keçirilir.

## Kvota

### 1. Qanunun tələbi

Ermənistan Milli Məclisə seçkilərdə qadınlar üçün qanunla müəyyən olunan kvota qəbul etmiş yeganə ölkədir.

Seçki Məcəlləsinin 108-ci Maddəsinin – Proporsional Seçki Sistemi ilə Milli Məclisin Deputatlığına Namizədlərin İrəli sürülməsi – 1-ci Hissəsi ilə tələb olunur ki:

> hər bir siyasi partiyanın və ya siyasi partiyalar alyansının yalnız bir namizədlər siyahısı təqdim etmək hüququ var. Siyasi partiyalar alyansına daxil olan siyasi partiyanın öz adından da ayrıca bir seçki siyahısı təqdim etmək hüququ yoxdur. Siyasi partiyanın və ya siyasi partiyalar alyansının və alyansa daxil olan hər bir partiyanın proporsional seçki sistemi əsasında Milli Məclisə seçkilər üzrə namizədlər siyahısında ikinci yerdən başlayaraq, namizədlərin beş namizəddən ibarət tam qruplarında (2-6, 2-11, 2-16, və s. siyahının sonunadək) hər bir cinsin nümayəndələrinin sayı 80%-dən artıq ola bilməz.

Təcrübədə bu o deməkdir ki, partiya siyahısında hər beş namizəddən ən azı biri qadın olmalıdır.

Lakin, qanunda namizədliyini geri götürən qadının başqa bir qadın namizədlə əvəz olunması tələbi olmadığından, belə bir təcrübə formalaşmışdır ki, siyahı qəbul edildikdən sonra qadınlar namizədliklərini geri götürür və kişilərlə əvəz olunur.

## 2. Müsbət ayrı-seçkilik

Gürcüstanda qanun seçilən qadınların sayının artırılması üçün müsbət ayrı-seçkilik tədbirlərinə icazə verir. 2011-ci ildə Gender Bərabərliyi üzrə Parlament Şurası Gürcüstanın Seçki Məcəlləsinə və siyasi partiyalar haqqında qanuna könüllü kvotanın müəyyən edilməsi ilə bağlı dəyişikliklər edilməsini təklif etdi. Bu dəyişiklik nəticəsində seçki siyahısındakı hər 10 namizəddən ən azı ikisi fərqli cinslərdən olan partiyalar büdcələrinin 10%-i qədər əlavə maliyyə dəstəyi almaq imkanı əldə etdilər.[51]

Bununla belə, bu dəyişiklik qadın namizədlərin və qalib gəlmiş qadınların sayının artırılması baxımından uğurlu olmadı, çünki 16 seçki subyektindən yalnız altısı seçki siyahılarında könüllü kvota tətbiq etdi, lakin həmin altı siyasi partiyadan heç biri parlamentdə təmsil olunmaq üçün tələb olunan 5%-lik baryeri keçə bilmədi. Digər partiyalarla müqayisədə ən az qadın iki əsas partiyanın/blokun (Birləşmiş Milli Hərəkat və Gürcüstan Arzusu Bloku) seçki siyahılarında idi.

Qanunda əlavə maliyyə dəstəyinin daha çox qadının öz namizədliyini verməyə həvəsləndirilməsinə və ya qadın namizədlərin dəstəklənməsinə xərclənməsi tələb edilmir və Gender Bərabərliyi üzrə Parlament Şurasında bu məsələyə baxılır.

Belarusda prezident qeyri-rəsmi şəkildə, Milli Məclisin deputatlarının 30%-nin qadınlardan ibarət olması hədəfini müəyyən etmişdir.

**33 saylı Cədvəl: Kvotalar və müsbət ayrı-seçkilik**

| Ölkə | Qəbul edilən kvota | Qanunun tələbi | Sanksiya | Məcburiyyət | Könüllü | Təşəbbüs |
|---|---|---|---|---|---|---|
| Ermənistan | Yoxdur | Var | Yoxdur | | Yoxdur | Yoxdur |
| Azərbaycan | Yoxdur | Yoxdur | Yoxdur | | Yoxdur | Yoxdur |
| Belarus | 30%-lik qeyri-rəsmi kvota | Yoxdur | Yoxdur | | Yoxdur | Yoxdur |
| Gürcüstan | Könüllü kvota | Yoxdur | Könüllü kvotaya əməl etməmiş siyasi təşkilatlar 2012-ci ildə 10%-lik əlavə maliyyə dəstəyi almamışdır. 2014-cü ildən bəri bu, 10%-dən 30%-ə qədər artmışdır. | | Var | Var |
| Moldova | Yoxdur | Yoxdur | Yoxdur | | Yoxdur | Yoxdur |

[51] Vətəndaşların Birlikləri haqqında Gürcüstan Respublikasının Konstitusiya Qanunu, Maddə 30.

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Ukrayna | 30%-lik könüllü kvota | Yox-dur | Yoxdur | | Var | Var[1] |

**34 saylı Cədvəl: Qanunvericilik orqanlarına seçkilərdə qadın və kişilərin müvəffəqiyyət göstəriciləri**

| Ölkə | Namizədlər | | Seçilmiş namizədlər | | Müvəffəqiyyət göstəricisi | |
|---|---|---|---|---|---|---|
| | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın |
| Ermənistan | 950 | 214 | 117 | 14 | 12% | 7% |
| Azərbaycan | 626 | 141 | 104 | 21 | 17% | 14% |
| Belarus | | | 80 | 30 | | |
| Gürcüstan | 1 954 | 788 | 132 | 18 | 7% | 2% |
| Moldova | 1 310 | 575 | 80 | 21 | 6% | 4% |
| Ukrayna | 5 099 | 1 240 | 371 | 51 | 7% | 4% |

Qadın və kişilərin siyasi və ictimai qərarların qəbul edilməsində balanslaşdırılmış iştirakı haqqında Rec(2003)3 saylı Tövsiyənin[53] icrasının monitorinqi üçün bu tədbir barədə Avropa Şurasına məlumat verilməlidir və seçilmiş şəxslərin sayını namizədlərin sayına bölmək və 100-ə vurmaqla ölçülür.

Qadın namizədlərin müvəffəqiyyət dərəcələri kişilərinkindən ardıcıl şəkildə geridədir, lakin o qədər də böyük fərqlə yox. Ən çox fərq Ermənistanda, kvotanı qəbul etmiş yeganə ölkədədir, lakin orada seçildikdən sonra namizədliklərini kişilərin xeyrinə geri götürmüş qadınların sayının təsiri barədə məlumatımız yoxdur.

Araşdırma çərçivəsində, həmçinin, məlumatımız olan müxtəlif seçki sistemlərində qadın və kişilərin müvəffəqiyyət dərəcələrinə də nəzər salınmışdır.

**35 saylı Cədvəl: Seçki sistemləri üzrə müvəffəqiyyət göstəricisi**

| Ölkə | Seçki sistemi | Namizədlər | | Seçilmiş namizədlər | | Müvəffəqiyyət göstəricisi | |
|---|---|---|---|---|---|---|---|
| | | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın |
| Ermənistan | Proporsional | 824 | 202 | 90 | 12 | 11% | 6% |
| | Majoritar | 125 | 12 | 41 | 2 | 33% | 17% |
| Gürcüstan | Proporsional | 1 584 | 729 | 61 | 16 | 4% | 2% |
| | Majoritar | 370 | 59 | 66 | 7 | 18% | 11% |

Ermənistan və Gürcüstandan əldə edilmiş məlumatlar göstərir ki, qadınların namizədliyi onların təmsil etdikləri partiyanın qalib gəlmək ehtimalının olduğu majoritar dairələrdə irəli sürüldükdə, onların seçilmək şansı daha çox olur.

[52] Əgər bir siyasi partiyanın parlamentə seçilmiş nümayəndələri arasında bir cinsdən olan şəxslər parlamentə həmin siyasi partiyadan seçilmiş nümayəndələrin ümumi sayının üçdə ikisindən artıq deyilsə, parlamentdə təmsil olunan siyasi partiyaların dövlət tərəfindən siyasi partiyaların maliyyələşməsi üçün ayrılan illik büdcənin 10%-i həcmində əlavə maliyyə dəstəyi almaq hüququ var.

[53] Mənbə: Available at: https://search.coe.int/cm/Pages/result_details.aspx?ObjectID=09000016805e0848

Eyni şeyi proporsional təmsilçilik/partiya siyahısı sistemi ilə seçilən yerlər barədə də demək olar.

Əgər qadınların namizədliyini siyahılarda qalib gəlmək ehtimalının çox olduğu mövqelərdə yerləşdirmək tələbi yoxdursa, onda müvəffəqiyyət üçün ən həlledici amil ehtimaldır və ya, əks təqdirdə, partiyanın səs qazanmasıdır.

Lakin, aydındır ki, proporsional sistem vasitəsilə majoritar sistem vasitəsilə olduğundan daha çox qadın seçilir. Gürcüstanda qadınların 61%-i öz yerlərini proporsional partiya siyahısı sistemi, 39%-i isə majoritar sistem vasitəsilə qazanıblar.

## 3. Qadınların iştirakçılığını asanlaşdırmaq üçün görülən hüquqi və ya inzibati tədbirlər

Heç bir ölkədə vaxt cədvəllərinin və iş metodlarının qadınların iştirakçılığını asanlaşdırmasının təmin edilməsi, misal üçün: görüşləri məktəb tətilləri vaxtına salmamaq və ya mümkün olduğu qədər gec saatlarda iclas keçirməmək kimi hər hansı xüsusi tədbirlər görülmür.

Əslində, bəzi parlamentlərdə və milli məclislərdə elə qaydalar var ki, onlar qadınların iştirakını çətinləşdirir. Misal üçün: 16 yaşdan aşağı uşaqlar Ukrayna Parlamentinə daxil ola bilməzlər və parlamentin binasında körpələri yedizdirmək üçün otaq ayrılmayıb.

### Yerli və regional inzibati orqanlar

Seçki metodu mandatın ölçüsündən asılı olaraq dəyişir; çox vaxt şəhərlər kiçik kəndlərdən fərqli əsaslarla seçir.

Araşdırmada istifadə olunan məlumatlar aşağıdakı cədvəldə göstərilmiş ən sonuncu seçkilərə əsaslanır.

**36 saylı Cədvəl: Sonuncu yerli (inzibati orqanlara) seçkilərin tarixləri**

| Ölkə | Sonuncu seçkilərin tarixi | Qeydlər |
|---|---|---|
| Ermənistan | - | Ermənistanda yerli seçkilər üçün dəqiq müəyyən edilmiş tsikl yoxdur və seçkilər bütün seçkilər eyni vaxtda keçirilmir. Bu araşdırma 2010-2015-ci illər arasındakı dövrü əhatə edir. 145-ci Maddə (Müntəzəm Seçkilərin Elan edilməsi və Keçirilməsi Müddətləri və Namizədlərin İrəli sürülməsi və Qeydiyyatı) ilə tənzimlənir. |
| Azərbaycan | 23 dekabr 2014-cü il | |
| Belarus | 23 mart 2014-cü il | |
| Gürcüstan | 15 iyun 2014-cü il | |
| Moldova | 14 iyun 2015-ci il | |
| Ukrayna | 25 oktyabr 2015-ci il | |

**37 saylı Cədvəl: Namizədlərin seçilməsi üzrə tələblər və metod**

| Ölkə | Mandatın ölçüsü (seçicilərin sayı) | Namizədliyin siyasi partiya tərəfindən irəli sürülməsi | Şəxsin namizədliyinin özü tərəfindən irəli sürülməsi | Namizədliyin digər formada irəli sürülməsi | Namizədin gəliri | Pul depoziti |
|---|---|---|---|---|---|---|
| Belarus | Məlumat yoxdur | | | | | |
| Gürcüstan | 5242-dən 153537-ə kimi | Partiyalar proporsional seçkilər üçün siyahılar müəyyənləşdirir. | | Seçicilərin 1%-nin imzalarını toplamış seçki bloku tərəfindən<br>5 nəfərdən ibarət təşəbbüs qrupu tərəfindən | | |
| Moldova | Məlumat yoxdur | Partiyanın qərar qəbul edən orqanının proto-kolu<br>Bioqrafik məlumatlar<br>Namizədliyin irəli sürülməsinə razılıq<br>Şəxsiyyəti təsdiq edən sənədin surəti | Yerli şuraya seçkilər<br>50 nəfərdən az olma-maqla, seçicilərin 2%-nin dəstəyi<br>Mer seçkiləri<br>150 nəfərdən az və 10000 nəfərdən çox olmamaqla, seçicilərin 5%-nin dəstəyi | | Son 2 il üçün gəlir və əmlak bəyan-naməsi | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Ermənis-tan | Məlumat yoxdur | Partiyanın nizamnaməsi və İrəvan seçkiləri üçün seçki siyahısı<br>Partiyanın ərazi bölmə-sinin qərarı<br>Depozitin ödənilməsi barədə qəbz<br>6 ay həmin ərazidə yaşamaqla bağlı bəyanat<br>Şəxsiyyəti təsdiq edən sənədin surəti | Siyasi partiyaların namizədləri üçün tələb edilən eyni məlumatlar | | | Seçicilərin sayından asılı olaraq Mer olmağa namizəd üçün minimum əmək haqqının 50-dən 1000 mislinədək<br>Şuranın üzvlüyünə namizəd üçün minimum əmək haqqının 10 mislin-dən 100 mislinədək |
| Azərbay-can | 51-dən 48778-ə qədər | | | | Sonuncu ilin gəlirləri barədə məlumat<br><br>Namizədin özünün və arvadının/ərinin adına qeydiyyat-da olan əmlak barədə məlumatlar | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Ukrayna | 83-dən 17000-ə qədər | - qeydiyyata alınmaq üçün siyasi partiyanın yerli təşkilatının rəhbəri tərəfindən imzalanmış və möhürlənmiş ərizə<br>- partiyanın yerli təşkilatının ən ali idarəetmə orqanının qərarının surəti<br>- siyasi partiyanın yerli təşkilatının konfransının qərarı<br>- (çoxmandatlı dairə üçün) namizədlərin siyahısı<br>- namizədlərin nominasiya olunmağa və bioqrafik məlumatlarının dərc olunmasına dair razılığı<br>- bioqrafik məlumatlar<br>- əmlak, gəlir, xərclər və maliyyə öhdəlikləri haqqında bəyannamə<br>- 4 ədəd fotoşəkil<br>- (çoxmandatlı dairə üçün) pul depozitinin ödənilməsi barədə qəbz<br>- Ukraynanın vətəndaşlıq pasportunun birinci və ikinci səhifələrinin fotosurəti | - namizədliyin şəxsin özü tərəfindən irəli sürülməsi üçün ərizə və bioqrafik məlumatlarının dərc olunmasına dair razılığı<br>- bioqrafik məlumatlar<br>- əmlak, gəlir, xərclər və maliyyə öhdəlikləri haqqında bəyannamə<br>- 4 ədəd fotoşəkil<br>- (mer olmağa namizədlər üçün) pul depozitinin ödənilməsi barədə qəbz | | Əmlak, gəlir, xərclər və maliyyə öhdəlikləri haqqında bəyannamə | Müvafiq seçki dairəsində hər 100 000 seçici üçün 4 aylıq minimum əmək haqqı məbləğində depozit |

## 1. Seçki sistemləri

Seçki sistemləri müxtəlifdir. Ermənistanda, Gürcüstanda və Ukraynanın nisbətən kiçik şəhərlərində merlər və şura üzvləri majoritar sistemlə seçilir.

Ukrayna və Moldovada nisbətən böyük şəhərlərdə merlər bir və ya, birinci turda heç bir namizəd səslərin 50%-ni toplaya bilmədikdə, iki mərhələli seçkilər nəticəsində seçilir.

Azərbaycanda merlər seçkilərdən sonra birinci görüşdə bələdiyyə üzvləri tərəfindən seçilir.

Belarusda respublika prezidenti yerli icra hakimiyyətlərinin başçılarını təyin edir.

Gürcüstanda, Moldovada və Ukraynada yerli və regional şuraların üzvləri proporsional təmsilçilik sistemi vasitəsilə seçilir.

## 2. Depozitlər

Yerli seçkilərdə namizəd olmaq üçün olan tələblər milli səviyyədə keçirilən seçkilərdə iştirak edən namizədlər üçün olan tələblərdən daha azdır. Əgər namizədlər siyasi partiyaları təmsil edirsə, depozitlər partiya tərəfindən ödənilir.

## 3. Mandatın ölçüsü

Yuxarıda göstərilən cədvəldən də göründüyü kimi, mandatların ölçüləri çox fərqlidir. Yerli və kənd səviyyələrində böyük şəhərlərlə müqayisədə daha çox qadının seçildiyini müəyyənləşdirmək üçün bütün ölkələrlə bağlı məlumatımız yoxdur, lakin əvvəlki araşdırmanın[54] nəticəsi bunun belə olduğunu göstərir.

**38 saylı Cədvəl: Belarusda yerli seçkilər – 27-ci çağırış (2014-cü il) yerli şuraların seçilmiş deputatlarının tərkibi barədə məlumat**

| Şura | Seçilmiş qadın deputatların sayı | Seçilmiş deputatların cinslər üzrə % (faiz) göstəricisi | |
|---|---|---|---|
| | | Kişi | Qadın |
| Minsk şəhəri | 1 | 70.2 | 29.8 |
| Regional | 6 | 80.3 | 19.7 |
| Rayon | 118 | 67.6 | 32.4 |
| Şəhər regionu | 10 | 71.7 | 28.3 |
| Şəhər rayonu | 14 | 59.1 | 40.9 |
| Kiçik şəhər (borough) | 19 | 58.2 | 41.8 |
| Kənd | 1 160 | 48.4 | 51.6 |
| Cəmi | 1 328 | 53.7 | 46.3 |

Tədqiqatçı şərh etmişdir ki, şura nə qədər kiçik olarsa qadınların seçilmək ehti-

[54] "Bərabər demokratiya: demokratiyadan uzaq. Qadın və kişilərin siyasi və ictimai qərarların qəbul olunmasında balanslaşdırılmış iştirakı haqqında Avropa Şurasının Rec(2003)3 saylı Tövsiyəsinin monitorinqinin birinci və ikinci mərhələlərinin nəticələrinin müqayisəli təhlili", Avropa Şurası (2009), Strasburq.

malı o qədər çoxdur məsələsinə qadınların qoyduğu qayda kimi baxmaq olmaz. Kiçik bir yerli şurada deputat olmaq qazanc olmadan işləməyi tələb edir və tədqiqatçı hesab edir ki, məhz bu da kişiləri çəkindirir.

Ukrayna Seçicilər Komitəsinin yerli seçkilər barədə hesabatında55 qeyd olunur ki, 2013-cü ildəki vəziyyət göstərir ki, təmsilçi orqanın səviyyəsi nə qədər yuxarı olarsa, orada qadın üzvlərin sayı bir o qədər daha az olur.

| | |
|---|---|
| *Regionlar (Oblastlar)* | 12% |
| *Rayonlar* | 23% |
| *Kənd* | 51% |
| *Qəsəbə* | 46% |

Bir neçə müsahib ərazini tanıdığına və özü də orada yaxşı tanındığına görə namizəd ola biləcəyini hesab etdiyini bildirmişdir.

Mən burada doğulmuşam və işimlə əlaqədar (şəxs məktəb direktoru idi) insanları tanıyıram və problemləri bilirəm.

[55] Ukrayna Seçicilər Komitəsi, Ukraynada 2015-ci ildə keçirilmiş yerli seçkilərdə seçki prosesində qadınların iştirakının monitorinqi üzrə Yekun Hesabat.

### 4. Müstəqil namizədlər

Əldə etdiyimiz məlumatlardan görünür ki, müstəqil namizədlər Ermənistanda, Moldovada və Ukraynada müstəqil namizədlər qəbul edilir. Belarusda müstəqil namizədlər faktiki olaraq dövlət orqanlarından və dövlət mülkiyyətində olan iri təşkilatlardan olur.

### 5. Vakant yerlərin tutulması

**39 saylı Cədvəl: Yerli (inzibati) səviyyədə olan vakant yerlərin tutulması**

| Ölkə | Vakant yerin necə tutulması |
|---|---|
| Ermənis-tan | İcma ağsaqqallar şurasının üzvlərinin seçkisi etibarsız elan edildikdə, seçkidə iştirak etmiş eyni namizədlərin iştirakı ilə səsvermə günündən 21 gün sonra təkrar səsvermə keçirilir. Eyni namizədlərlə təkrar səsvermə yalnız bir dəfə keçirilə bilər. |
| Azərbaycan | Vakant yerlər namizəd tərəfindən toplanmış sadə səs çoxluğu ilə tutulur; minimal seçici tələbi (kvorum) yoxdur.<br>Hansısa bir rayonda seçkilərin nəticəsi qanunsuzluq səbəbindən ləğv olunarsa, sonrakı iki ay ərzində həmin rayonda yeni seçkilər təşkil olunmalıdır.<br>Əgər ölkə üzrə bələdiyyə seçkilərinin keçirilməsinə altı aydan çox müddət qaldığı zaman a) seçilmiş bələdiyyə üzvü mandatdan imtina edirsə, və ya b) mandatını itirirsə, və yaxud c) vəfat edərsə, həmin rayonda növbəti iki ay ərzində yeni seçkilərin keçirilməsi təşkil edilməlidir. Təkrar seçkilər a) və b) bəndlərində göstərilən səbəblərdən keçirilərsə, mandatdan imtina etmiş və ya mandatını itirmiş şəxs yenidən namizəd ola bilməz. |
| Belarus | Məlumat yoxdur. |
| Gürcüstan | 1. Əgər Sakrebulonun (yerli şurada nümayəndəli orqan) proporsional seçki yolu ilə seçilmiş üzvünün səlahiyyətlərinə vaxtından əvvəl xitam verilərsə, partiya siyahısında adı həmin üzvdən sonra gələn namizəd iki həftə ərzində onun yerli şuradakı yerinə keçir.<br>2. Əgər mandatını itirmiş üzv seçki bloku tərəfindən seçilmişdirsə, onda onun yeri həmin partiyanın siyahısındakı növbəti namizəd tərəfindən tutulur.<br>3. Əgər yerli şuranın (Sakrebulonun) majoritar seçki yolu ilə seçilmiş üzvünün səlahiyyətlərinə vaxtından əvvəl xitam verilərsə, növbəti may və ya oktyabr ayında əlavə seçki keçirilir. |
| Moldova | Aşağıdakı hallarda yeni seçkilər elan edilir:<br>- əgər yerli şura istefa verərsə, ləğv olunarsa və ya üzvlərinin sayı yerli inzibati idarəetmə haqqında qanunda müəyyən olunan sayın üçdə-birindən az olarsa;<br>- əgər mer istefa verərsə, uzaqlaşdırılarsa və ya öz vəzifələrini daha icra edə bilməzsə |
| Ukrayna | Əgər partiya keçid həddindən çox səs toplayarsa, partiyanın siyahısında olan növbəti namizəd. Yaxud, majoritar seçki ilə seçilmiş mandat olduqda, yeni seçkilər təyin olunur. |

## 6. Kvotalar və müsbət ayrı-seçkilik – İnzibati səviyyədə

**40 saylı Cədvəl: Yerli (inzibati) səviyyədə kvotalar və müsbət ayrı-seçkilik tədbirləri**

| Ölkə | Qəbul edilən kvota | Qanunun tələbi | Sanksiya | Məcbu-riyyət | Kö-nüllü | Təşəb-büs |
|---|---|---|---|---|---|---|
| Ermənis-tan | Yoxdur | Yoxdur | | | | Yoxdur |
| Azərbaycan | Yoxdur | Yoxdur | | | | Yoxdur |
| Belarus | Yoxdur | Yoxdur | | | | Yoxdur |
| Gürcüstan | Seçki siyahısındakı hər 10 namizəddən ən azı ikisi fərqli cinslərdən olan partiyalara büd-cələrinin 10%-i qədər əlavə maliyyə dəstəyi 2014-cü ildən bu yana, əgər siyahı-dakı hər 10 na-mizəddən 30%-i qadın olarsa, həmin əlavə dəstək 30%-ə qədər artırılmışdır. | Yoxdur | Könüllü kvotaya əməl etməmiş siyasi təşkilatlar 30%-lik əlavə maliyyə dəstəyi almır. | | Var | Yoxdur |
| Moldova | | Yoxdur | | | | Yoxdur |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Ukrayna | 2015-ci il seçkiləri üçün yerli seçkilər haqqında yeni qanun qəbul edilmişdir | Var, lakin qanun mübahisələndirilmişdir. | Bəzi yerli seçki komissiyaları kvotaya əməl edilməmiş partiya siyahılarını qeydiyyata almamışdır. Xerson regionunda bəzi siyahılarda qadınların sayı 30%-dən az olduğuna görə həmin siyahılar dəyişiklik edilməyənə qədər qeydiyyata alınmamışdı. | Qanun mübahisələndirildiyinə görə məcburi icra təmin edilə bilməmişdi. | | Yoxdur |

Gürcüstanda iki partiya bloku könüllü kvota qəbul etmiş və 30% əlavə maliyyə dəstəyi əldə etmişdir. Tədqiqatçı şərh etmişdir ki, bu qayda qadın namizədlərin sayına müsbət təsir etsə də, seçkili orqanlarda qadınların az təmsil olunması məsələsinin həlli üçün kifayət deyil və səmərəsizdir. 2014-cü ildə keçirilmiş inzibati səviyyədə seçkilərdə majoritar yerlər üzrə qadın namizədlərin sayı 2011-ci ildə olan 11%-lik göstəricidən 15%-ədək, partiya siyahılarında isə 2010-cu ildəki 20%-lik göstəricidən 33%-ə dək artmışdır.

Ukraynada 2015-ci il seçkiləri üçün partiya siyahılarında hər bir cinsin nümayəndəsi üçün ən azı 30%-lik kvota müəyyən edən, lakin siyahıdakı yeri göstərməyən qanun qəbul edildi. Lakin, qanun seçkidən qısa müddət öncə dərc edildi və hüquqi baxımdan mübahisə yarandı ki, bunu da nəticəsində həmin qanunun tətbiqi birmənalı olmadı.

Avropa Şurası qadınların təmsilçiliyi baxımından seçkilərin nəticələrini təhlil etməyi Ukrayna Seçicilər Komitəsinə (USK) həvalə etmişdi.[56] Qanunun icrasının təmin edilməməsinə baxmayaraq, araşdırma nəticəsində müəyyən edilmişdir ki,

[56] Mənbə: http://cvu.org.ua/eng

araşdırmanın aparıldığı şəhər şuralarında qadınlar namizədlərin 32.1%-ni təşkil etmiş və onlardan da 18.1%-i seçkidə qalib gəlmişdir. Oblastlarda qadınlar namizədlərin 29.6%-ni təşkil etmiş və onlardan 15%-i seçilmişdir. Araşdırmanın aparıldığı 22 şəhərdən 11-də və 22 oblastdan 17-də gender balansı yaxşılaşmışdır Sorğu keçirilən ərazilərin 11.4%-də qadınlar siyahıya başçılıq etmişdir ki, bu da o deməkdir ki, onlar daha çox tanınmış və media vasitəsilə təşviq olunmuşdur.

USK o nəticəyə gəlmişdir qəbul edilmiş yeniliklər səmərəli olmuşdur.

- Seçkilərlə bağlı ədəbiyyatda daha çox qadına rast gəlinmişdir.
- Qadınlar namizədliklərini bir daha irəli sürməyə hazır idi (qadınların 68.6%-i, kişilərin 59.3%-i)
- Kifayət qədər təcrübəli, bacarıqlı və qabiliyyətli qadınlar vardır.

## Gəlinən nəticələrin xülasəsi

- Bütün ölkələrdə qadınların hüquq bərabərliyini müəyyən edən aydın qanunvericilik bazası vardır. Ermənistan və Gürcüstanda qadınların seçkilərlə bağlı hüquqları haqqında spesifik qanunvericilik mövcuddur.
- Bəzi qanunlar, misal üçün, Moldovada qadın məcburi köçkünlərin statusu və maliyyə dəstəyi ilə bağlı məhdudiyyətlərin olmaması, birbaşa və ya dolayısı ilə qadınlara qarşı diskriminativ hesab oluna bilər. Gender baxımından neytral qanunvericilik də, əgər qadınların üzləşdiyi əlverişsizlikləri nəzərə almırsa, dolayısı ilə diskriminativ ola bilər.
- Ölkələr üzrə tədqiqatçılar hesab edirlər ki, seçki sistemləri özü də qadınların iştirakçılığına mane olur, və proporsional təmsilçilik/partiya siyahısı sistemi qadınlar üçün faydalıdır və onları namizəd olmağa həvəsləndirir. Gürcüstanla bağlı rəqəmlər göstərir ki, proporsional seçkilərdə majoritar seçkilərdə olduğundan daha çox qadın seçilmişdir. Lakin, araşdırma qadın namizədlərin sayının artması baxımından proporsional təmsilçilik sisteminin müsbət təsirini göstərə bilməmişdir. Əgər qadınların namizədliyini siyahılarda qalib gəlmək ehtimalının çox olduğu mövqelərdə yerləşdirmək tələbi yoxdursa, onda müvəffəqiyyət üçün ən həlledici amil ehtimaldır və ya, əks təqdirdə, partiyanın səs qazanmasıdır.
- Qadın namizədlərin müvəffəqiyyət göstəriciləri kişilərdən ardıcıl şəkildə aşağı idi.
- Əldə edilmiş sübutlar göstərmişdir ki, təmsil olunacaq ərazi nə qədər kiçik olarsa, qadınların sayı da o qədər çoxdur.
- Araşdırma nəticəsində əldə edilmiş məlumatlar göstərir ki, Ermənistan, Gürcüstan və Ukraynada qanunvericilik və/və ya yerli səviyyədə kvotanın və müsbət ayrı-seçkiliyin tətbiq edilməsinin məhdud olsa da müsbət təsiri vardır.
- Kvotaların və müsbət ayrı-seçkiliyin yaxşı nəticə verməsi üçün onlar haqqında qanunvericiliyin icrasının təmin olunması zəruridir.
- Siyasi partiya tərəfindən namizəd kimi qəbul edilməklə bağlı yuxarıda siyasi partiyalar haqqında bölmədə müzakirə edilən çətinliklərdən əlavə, gəlir və əmlak barədə ətraflı məlumat vermək tələbi qadınları seçicilər qarşısında əlverişsiz vəziyyətə sala bilər. Qadın namizədlər əsasın ictimai sektorda işlədikləri üçün, onların əhəmiyyətli gəlirləri, yığımları və əmlakı olmur.
- Geniş seçki kampaniyasının xərci və çətinliyi qadın və müstəqil namizədlər üçün ən əsas maneələrdir.

- Qadın namizədlərin müvəffəqiyyət dərəcələri kişilərinkindən ardıcıl şəkildə geridədir, lakin o qədər də böyük fərqlə yox. Ən çox fərq Ermənistanda, kvotanı qəbul etmiş yeganə ölkədədir, lakin orada seçildikdən sonra namizədliklərini kişilərin xeyrinə geri götürmüş qadınların sayının təsiri barədə məlumatımız yoxdur.
- Lakin, Ermənistan və Gürcüstandan əldə etdiyimiz məlumatlar göstərir ki, qadınların namizədliyi onların təmsil etdikləri partiyanın qalib gəlmək ehtimalının olduğu majoritar dairələrdə irəli sürüldükdə, onların seçilmək şansı daha çox olur.
- Kvotalar mövcud olduğu halda da, əgər qadınlar partiyanın seçki siyahısı qəbul edildikdən, yaxud da seçkidən sonra öz namizədliyini geri götürə bilirsə, kvotanın faydası olmur, və onların yerini kişilər tutur.
- Gürcüstanda olduğu kimi, siyahısındakı namizədlərin 30%-i qadın olan partiyalara dövlətin maliyyə dəstəyinin artırılması kimi müsbət ayrı-seçkilik uğurlu olmuş və nəticədə yerli (inzibati) seçkilərdə majoritar dairələrdə qadın namizədlərin sayının 11%-dən 15%-ə, partiya siyahılarında isə 2010-cu ildəki 20%-lik göstəricidən 2014-cü ildə 33%-ə qədər artmışdır. Lakin, bu, seçkilərdə qalib gəlmiş qadınların sayına o qədər də ciddi təsir etmədi.

## D. DƏSTƏKLƏYİCİ TƏDBİRLƏR

Tədqiqatçılardan xahiş edilmişdi ki, onlar qadınların namizəd olmasını və seçkilərdə qalib gəlməsini dəstəkləyən hər hansı xüsusi tədbirlərin mövcud olduğunu müəyyənləşdirsinlər.

### Ermənistan

Hökumət gender barədə maarifləndirmə üçün QHT-lərlə birlikdə illik müsabiqə həyata keçirir.

Mükafat aşağıdakılara verilir:

- Gender siyasəti həyata keçirən ən yaxşı şəhər icmasına;
- Gender siyasəti həyata keçirən ən yaşı əyalət icmasına;
- ən yaxşı qadın sahibkara;
- gender məsələlərini işıqlandıran ən yaxşı media qurumuna.

Bu işin ən uğurlu aspekti gender məsələlərinin məhz mədəni stereotiplərin ən güclü olduğu əyalət ərazilərində qaldırılmasıdır.

### Azərbaycan

Azərbaycanda hər hansı dəstəkləyici tədbirlərin olduğu müəyyən edilməmişdir.

### Belarus

Son bir neçə ildə bəzi nəzərə alınmalı olan müsbət dəyişikliklər baş vermişdir.

### Müxalifət hərəkatları və şəbəkələri

“Qadınların Müstəqil Demokratik Hərəkatı” ictimai assosiasiyası 2011-ci ildə Milli Gender Platforması (MGP) təşəbbüsü ilə çıxış etdi. Xeyli hazırlıq işləri görüldü və təxminən 30 təşkilat (müxalif siyasi partiyalar və ictimai təşkilatlar) MGP-nı imzaladı. Lakin, o vaxtdan bəri demək olar ki, heç bir iş görülməmişdir. MGP üzvləri  müntəzəm qaydada ildə iki dəfə görüşür, lakin bu görüşlər hələ heç bir real dəyişikliklə nəticələnməmişdir.

Qadınlar şəbəkəsi “Mara” 2014-cü ildə yaradılmışdır. “Mara” partiyaları daxilində müsbət dəyişikliklər etmək və ümumilikdə partiyalarda qadın üzvlərin və o cümlədən partiyaların idarə heyətlərində qadınların sayının artmasını istəyən, (müxalif) siyasi partiyalardan olan gənc qadınları birləşdirir. Onların fəaliyyəti siyasətdən daha çox partiyanın daxili təşkilatı strukturu ilə bağlıdır.

## Gürcüstan

### Seçki vahidlərinin sayı

2014-cü ildə keçirilmiş yerli seçkilərdə hər bir özünüidarəetmə vahidində mandatların sayı artırıldı. Proporsional partiya siyahısı əsasında daha çox qadın seçildiyindən, vahidlərin sayının (hər bir özünüidarəetmə icmasında 10-dan 15-ə) artması qadın namizədlər üçün əlverişli amildir. Lakin, majoritar sistem üzrə birmandatlı seçki dairələri dəyişməmişdir və qadınlar üçün əlverişsiz olaraq qalmaqdadır.

### Seçki baryeri

Qadın namizədlər əsas etibarilə seçki siyahılarının sonunda yer aldığından, seçki baryerinin aşağı (7%-dən 5%-ə) salınması qadınların seçilmək şansını artırır.

### Etnik azlıqlardan olan seçicilərə dəstək

Səsvermə qaydaları ilə bağlı material və təlimatları müxtəlif dillərdə əldə etmək mümkündür və seçkilərdə milli azlıqlardan olan seçicilərin iştirakının artırılması üçün milli azlıqların dillərində də televiziya debatları keçirilir.

## Moldova

### Təlim

Namizədliklərini irəli sürmələri üçün qadınların təlimləndirilməsi və həvəsləndirilməsi seçki dövründən ən azı iki əvvəl həyata keçirilməlidir. 2007-ci ildə, yerli seçkilərdən sonra, 163 nəfər qadın mer seçilmişdi; 2011-ci ildə 166 qadın seçilmişdi. Buradan çıxarılan dərs aydın idi: seçki kampaniyasından qabaq keçirilən təlim cəhdləri seçilmiş qadınların sayının artırılması baxımından çox səmərəsizdir. Təşkilatların çoxu 2015-ci ildə keçiriləcək növbəti yerli seçkilər üçün təlimlərə daha erkən başladı və həmin yerli seçkilərində 183 qadın mer seçildi.

UN Women və UNDP seçicilərlə ünsiyyətin artırılması və seçki dairələri ilə təmas yaradılmasına kömək etmək üçün qadın deputatlar üçün sosial mediadan səmərəli istifadə haqqında təlim təşkil etmişdir.

### Kvotalar

Gender Bərabərliyi Platforması məqsədi dövlətin gender bərabərliyi siyasətini inkişaf etdirmək olan QHT-lər koalisiyasıdır. Koalisiyanın fəaliyyəti Moldova Parlamenti üçün 40% qadın kvotasının müəyyən edilməsinə yönəlmişdir.

2016-cı ilin aprelində Moldova Parlamenti partiya siyahılarında namizədlərin ən azı 40%-nin qadınlardan ibarət olmasını nəzərdə tutan kvotaları müəyyən edən qanun qəbul etdi. Lakin, görünən odur ki, qanunun hələ də məcburi qüvvəsi yoxdur.

### Media

2013-cü ildə Qadınların İqtisadi İmkanlarının artırılması Proqramının[57] bir hissəsi kimi Müstəqil Mətbuat Assosiasiyası və UN Women bir layihə həyata keçirmişdir ki, həmin layihə çərçivəsində 17 çap və onlayn kütləvi informasiya vasitəsi təşkilatı, xarici mütəxəssislər tərəfindən hazırlanmış şəbəkələrində öz materiallarında kişi və qadınların necə təmsil olunmasını təhlil etmişdir. Təhlil hər ay nəşr edilirdi. Layihənin doqquz ayı ərzində onlar tərəfindən dərc edilən materiallar, bəzi ciddi problemlərin qalmasına baxmayaraq, gender baxımından getdikcə daha bərabər olmuşdur. 2013-cü ilin fevralında məqalələrin 16.7%-i qadınlara həsr olunmuş, 2013-cü ilin oktyabrında isə bu göstərici 28.6%-ə qalxmışdı.

## Ukrayna

### Bərabər imkanlar gender qrupu

İlk dəfə olaraq, 2011-ci ildə Ali Radada (Ukrayna Parlamentində) "Bərabər İmkanlar" parlament qrupu yaradıldı. Qrup müxtəlif fraksiyalardan olan 15 millət vəkilindən ibarət idi. Qrupun təsisçiləri prioritet kimi, kişi və qadınlar üçün aşağıda göstərilən sahələr üzrə bərabər imkanların artırılmasını müəyyən etmişdilər:

- əmək bazarı;
- təhsil;
- səhiyyə xidmətlərindən istifadə;
- Ukraynanın sosial və siyasi həyatında iştirak.

Onlar, xüsusilə də, məişət zorakılığına qarşı mübarizə və uşaqların, ailələrin və uşağını təkbaşına böyüdən anaların, yaxud ataların müdafiə olunması məqsədini güdən bir neçə sosial qanunların və təşəbbüslərin qəbul edilməsi ilə bağlı əməkdaşlıq etməyi planlaşdırmışdır. Assosiasiyanın ən birinci birgə təşəbbüslərindən biri də məişət zorakılığına görə məsuliyyətin gücləndirilməsi ilə bağlı Ukrayna İnzibati Məcəlləsinə dəyişikliklər edilməsini nəzərdə tutan qanun layihəsi idi. Assosiasiyaya qoşulmuş Ukrayna deputatları həm de hesab edirdilər ki, qarşıda duran vəzifələrdən biri də gender siyasətinə ictimai münasibəti dəyişdirməkdən ibarətdir. Xüsusilə də, onlar "partiyaların seçki siyahılarında qadınların daha çox təmsil olunması üçün könüllü kvotaların müəyyən olunması məsələsini də qaldırmağı planlaşdırırdılar".

[57] Mənbə: http://api.md/upload/editor/FINAL_REPORT_Mass-media_institutions_self-assessment_through_gender_dimension.pdf

7-ci çağırış Parlament də ənənəni davam etdirmiş və 25 dekabr 2012-ci ildə bərabər imkanlar qrupunu yaratmışdır. Millət vəkillərindən ibarət yeni yaradılmış parlament qrupu qadınların siyasi həyata cəlb olunması və bununla bağlı birgə qanunvericilik təşəbbüsləri ilə çıxış etmək üçün gender bərabərliyi prinsipini rəhbər tutmağa razılaşdı.

Yekunda, 2013-cü ildə müxtəlif siyasi mövqelər qrupu iki yerə böldü. Ukraynadakı siyasi vəziyyət səbəbindən, qrup həmin çağırışın sonuna kimi fəal olmadı.

2014-cü ildə parlament üzvləri 26 deputatdan ibarət olan "Bərabər İmkanlar" partiyalararası gender qrupunu yaratdılar. Onlar fəaliyyəti iki əsas mövzu üzərində qurmağı planlayırdı: qadınların siyasi həyata fəal şəkildə cəlb olunması baxımından gender bərabərliyinin təmin olunması və bunun dəstəklənməsi üçün birgə qanunvericilik təşəbbüsləri ilə çıxış etmək.

Prioritet sahələrlə yanaşı qrup aşağıdakı sahələr üzrə də işlər görürdü:

- Məişət zorakılığına qarşı mübarizə;
- Qadınların və uşaqların qorunması;
- İctimai həyatın müxtəlif sahələrində kişi və qadınlar üçün bərabər imkanlar.

Ukraynada partiyalararası gender qrupunun dörd illik fəaliyyəti müvəffəqiyyət və həmçinin çətinliklərlə müşayiət olundu.

Müvəffəqiyyətlər arasında aşağıdakı təcrübələri göstərmək olar:

- Parlamentdə, misal üçün, döş xərçənginə qarşı kampaniya və ya gender mövzuları ilə bağlı beynəlxalq tədbirlərdə iştirak kimi gender məsələlərinin aktuallaşdırılması;
- Gender kvotasının iki qanunla təsdiq olunması: "Siyasi Partiyalar haqqında" qanun (2013) və "Yerli Seçkilər haqqında" qanun (2015);
- Parlament binalarından birində "uşaq otağının" açılması.

Eyni zamanda, qrupun fəaliyyətinin daha səmərəli olmasının qarşısını alan bəzi çətinliklər də qalmaqda davam edir:

- "Uşaqlarla bağlı məsələlərin qadınlarla bağlı məsələ olduğunu" hesab edən millət vəkilləri tərəfindən gender siyasətinin yanlış anlaşılması;
- Fraksiyalar arasında siyasi mövqe fərqləri gender qrupunun üzvləri parçalama yaradır;
- Gender qrupu ilə vətəndaş cəmiyyəti arasında güclü əlaqələrin olmaması.

Yuxarıda göstərilən bütün çətinliklərə baxmayaraq, Ali Radanın "Bərabər İmkanlar" gender qrupunun fəaliyyəti gender mövzusunun daha da inkişaf etdirilməsi baxımından səmərəli olmuşdur.

## Müsahiblərin cavabları

Müsahibə vermiş 53 qadından onları seçki kampaniyaları zamanı və seçildikdən sonra dəstəkləyən əsas şeyləri müəyyən etsinlər.

Ən vacib dəstəkləyici amil ailənin dəstəyi idi.

Bir çox müsahiblər, o cümlədən kiçik şəhər və kəndlərdə namizəd olan müsahiblər üçün, ailə üzvləri onların seçki kampaniyasına kömək edən yeganə insanlar olmuşdur.

Siyasi partiyaların dəstəyi əsasən bəzi bukletlər və ya digər promo materialların hazırlanması formasında olur. Müsahiblərdən üçü öz partiyaları tərəfindən keçirilən mətbuat konfranslarını, biri qadın namizədlər üçün liderlik və kommunikasiya haqqında qeyd edilən xüsusi təlimi qeyd etmişdir. Müsahiblərdən ikisi partiya lideri tərəfindən dəstəkləndiklərini bildirmiş, ikisi isə partiyada qazandıqları təcrübəni dəstək mənbəyi kimi göstərmişdir. Bir dəfə, partiya kampaniyanın bir hissəsi kimi tədbirlər və konsertlər təşkil etmişdi.

Dəstək mənbəyi kimi qadın QHT-ləri də göstərilmişdi. Bu təşkilatlar təlim və seminar vasitəsilə dəstək göstərirdi. Üç müsahib QHT-lər və yerli hakimiyyət assosiasiyası  tərəfindən təşkil olunmuş davam edən təlimləri qeyd etmişdir. Bununla belə, bəzi müsahiblər qadın QHT-lərindən aldıqları ümumi köməklik və dəstəyin onları namizədliklərini irəli sürməyə həvəsləndirdiyini də qeyd etmişlər. Bir namizədi namizədliyini irəli sürməyə onu etnik azlıq olduğuna görə dəstəkləyən bir beynəlxalq təşkilat həvəsləndirmişdir.

Aşağıdakı digər məsələlər də qeyd edilmişdir:

- partiya siyahısı sistemi, o mənada ki, onlar özləri öz kampaniyalarını aparmırlar;
- partiya siyahılarında qadınlar üçün kvotalar;
- parlamentin yerli mitinq təşkil etmiş bərabər imkanlar qrupu;
- sosial media dəstək qazanmaq, o cümlədən diasporadan dəstək qazanmaq vasitəsi kimi (üç nəfər tərəfindən qeyd edilmişdir);
- yerli səviyyədə dəstək qazanmaq üçün imza toplanması;
- yerli icmada yaxşı tanınmaq – bu ən çox kiçik kəndlərdə və şəhərlərdə özünü doğruldur.

## Dəstəkləyici tədbirlərlə bağlı digər ölkələrin nümunələri

### Maarifləndirmə

Türkiyədə Qadın Namizədlərə Dəstək Assosiasiyası, KA.DER qadın namizədlərin az olduğunu vurğulamaq üçün innovativ media kampaniyalarından istifadə etmişdir. 2007-ci ildə onlar biznes sahəsində tanınmış qadınların, qadın aktyorların və müğənnilərin qalstuklu və bığlı şəkillərindən ibarət və "Parlamentə düşmək üçün kişi olmaq zəruridir?" şüarı yazılmış plakat düzəltmişdi. 2009-cu ildə onlar üç əsas partiyanın kişi liderlərinin çiyin-çiyinə dayandıqları və onların qadınlarla müqayisədə kişi namizədlərə üstünlük verdikləri mənasını verən mətndən ibarət bilbordlardan istifadə etmişdir.[58]

[58] Mənbə: www.hurriyetdailynews.com/default.aspx?pageid=438&n=campaign-for-womenlaunched-at-empty-hall-2010-10-11

## İşə götürməklə bağlı təşəbbüslər

2012-ci ildə Rutgers Universiteti Amerika Qadınlar və Siyasət Mərkəzinin təşəbbüsü ilə həyata keçirilmiş layihədə rəhbər vəzifələrdə olmaq ehtimalı daha çox olan və ailə ilə bağlı məsuliyyətləri azalan 45 yaşdan yuxarı qadınlar əhatə olunmuşdu. Onlardan nə vaxtsa siyasi təmsilçi olmaq barədə düşünüb-düşünmədikləri barədə soruşulmuş və onlar uğur qazanmaqda onlara kömək etmək üçün yaradılmış beyin mərkəzləri, təlim proqramları və fandreyzinq şəbəkələri ilə əlaqələndirilmişdi.[59]

Digər yaş qrupları ilə bağlı isə, Beynəlxalq Qız Skautlar təşkilatı qvbir çox ölkələrdə "O Qızı Oraya Çatdırmaq" adlı uzun müddətli bir kampaniya aparırdı ki həmin kampaniyanın da məqsədi "balanslaşdırılmış liderliyə" və "nəsillər üzrə qadınların cəmiyyətin bütün sahələrində və səviyyələrində lider mövqelərdə ədalətli şəkildə təmsil olunmasına" nail olmaq idi.

## Fandreyzinq şəbəkələri

ABŞ-da yerləşən EMİLY-nin Siyahısı təşkilatı 1985-ci ildə qadınları səfərbər etmək və onlara təlim keçmək, həmçinin seçkilər zamanı onların tərəfdarlarından vəsaitlər toplamaq üçün yaradılmışdı. Təşkilat Konqresin 87 Demokrat qadın üzvünü, 16 senatoru, 9 qubernatoru və ştatlarda və yerli səviyyədə 500-dən artıq qadını dəstəkləmiş olduğunu bildirmişdir.[60]

## Siyasi partiyaların gördüyü tədbirlər

Britaniya Leyboristlər Partiyası "Qadınlardan ibarət Siyahılar" ("All Women Shortlists") adlı qısa müddətli bir siyasət qəbul etmişdi. Qadın parlament üzvü istefa verdikdə, və ya əgər partiyanın qalib gəlmək ehtimalının çox olduğu yer üzrə kişi istefa verərsə, onda partiyanın yerli üzvləri qadınlar siyahısından bir namizəd seçməlidir. Bu təcrübədən həm milli və həm də yerli səviyyədə istifadə olunur. 2015-ci il seçkilərindən sonra, Leyboristlər partiyasından seçilmiş parlament üzvlərinin 43%-i qadınlardır.

İsveçdə, partiyalar siyahılarına salmaq üçün qadınlar axtardığından, əsas partiyaların daxilində olan qadın seksiyaları partiya rəsmilərinə təqdim etmək üçün, potensial qadın namizədlərin adlarından və CV-lərindən ibarət məlumatlar toplamışdı.[61]

## Parlamentlərdə iş şəraiti

Danimarkada, saat 19:00-dan sonra heç bir səsvermə keçirilmir. İsveçdə, mümkün olduğu qədər axşamlar səsvermə keçirilmir və adətən Bazar ertəsi və ya Cümə günlərinə səsvermə salınmır. Parlamentlərin təxminən 40%-i öz iş qrafikini məktəb tətilləri ilə uyğunlaşdırır.[62]

---

[59] Mənbə: www.cawp.rutgers.edu/sites/default/files/resources/pressrelease_10-07-10_2012.pdf

[60] Mənbə: www.emilyslist.org

[61] Wistrand B. (1981), İsveç qadınları hərəkətdə, İsveç İnstitutu, Stokholm.

[62] Palmieri S. (2011), Gender baxımından həssas parlamentlər, Parlamentlərarası İttifaq, Cenevrə

Şotlandiyada, üzvlər və ziyarətçilər uşaqlara qayğı göstərilməsi üçün yaradılmış şəraitdən istifadə edə bilirlər. Bu da "açıq və əlçatan Parlamentin yaradılması üçün vacib bir element"[63] hesab olunur.

## Gəlinən nəticələrin xülasəsi

- Qadınları öz namizədliklərini irəli sürməyə həvəsləndirmək və kampaniyalar zamanı və seçildikdən sonra onları dəstəkləmək üçün təlim proqramları vacib əhəmiyyət kəsb edir. Bu cür proqramların səmərəli olması üçün onlar seçkilərdən ən azı iki il əvvəl başlamalıdır.
- QHT-lər və digər təşkilatlar təlimlərin keçirilməsində və qadınların namizədliklərini irəli sürməyə həvəsləndirilməsində çox vacib rol oynaya bilər.
- Partiya siyahısı sistemi qadınları namizəd olmağa həvəsləndirir, çünki, qrupun bir hissəsi kimi kampaniya aparmaq daha asandır.
- QHT-lər qadın namizədlərin seçicilər tərəfindən dəstəklənməsində, qanunvericilərə təzyiq göstərilməsi və onların hesabat verməyə məcbur edilməsi baxımından vacib rol oynayır.
- Medianın monitorinqi nəticəsində qadınlara həsr olunmuş məqalələrin sayı artmışdır.
- Gender məsələləri ilə bağlı fəaliyyət üçün partiyalar-arası dəstək və əməkdaşlıq (misal üçün: Ukraynadakı gender qrupu) nəticəsində bu kimi məsələlər aktuallaşmış və irəliləyiş də əldə edilmişdir.
- Yaşlı və yaxud gənc qadınlar kimi, xüsusi qruplardan olan qadınlara yönələn kampaniyalar da müvəffəqiyyətli ola bilər.
- Qadınların maliyyə mənbələrinin olmaması məsələsi ilə bağlı görülən tədbirlər də daha çox qadını seçkilərdə namizəd olmağa həvəsləndirə bilər.
- Qadınlar üçün daha rahat olması üçün, parlamentlərin və yerli şuraların iş şəraitləri dəyişdirilə bilər.

[63] Mənbə: www.scottish.parliament.uk/visitandlearn/12522.aspx

Fəsil 4

# Nəticələr

Araşdırmada Şərq Tərəfdaşlığı ölkələrində qadınların vəziyyəti və bunun qadınların namizəd olmaq və milli, regional və yerli səviyyəli seçkilərdə qalib gəlmək imkanlarına təsiri haqqında kəmiyyət və keyfiyyət xarakterli məlumatlar yer alır.

Araşdırmanın aparıldığı hər bir ölkədə kişilərlə qadınların hüquq bərabərliyini təmin edən qanunvericilik mövcuddur; bununla belə, qadınlar siyasətdə kişilər qədər təmsil olunmur. Araşdırmanın aparıldığı ölkələr üzrə orta statistik göstərici ondan ibarətdir ki, parlament seçkilərində namizədlərin 23%-i, qalib gələn namizədlərin isə 16%-i qadınlardır. Bu göstərici Moldovada 30%, Ermənistanda və Azərbaycanda isə 18%-dir. Belarus parlamentinə seçilmiş şəxslərin 27%-i, Ermənistanda isə 10%-i qadınlardır.

Bütün ölkələr üzrə xeyli oxşarlıqlar var və siyasi reallıqların və çətinliklərin müxtəlif olmasına baxmayaraq, bütün ölkələrdə qadınların siyasi təmsilçiliyinin artırılması istəyinin ümumi əsası mövcuddur.

Araşdırma nəticəsində, qadınların siyasi fəaliyyətə cəlb olunmasını məhdudlaşdıran əhəmiyyətli maneələrin olduğu müəyyən edilmişdir.

Araşdırmanın aparıldığı bütün ölkələrdə bütün tədqiqatçılar və 53 müsahibdən 27-si tərəfindən göstərilən əsas maneə qadının cəmiyyətdəki mövqeyi ilə bağlı oturuşmuş dərin mədəni stereotiplər, yanaşmalar, dəyərlər, normalar və ehkamlardır. Əksəriyyət inanır ki, qadının əsas rolu evdə oturub ailənin qayğısına qalmaqdan ibarətdir və qadın kişilər kimi qərarlar qəbul etmək və ya təşkilatlar idarə etmək iqtidarında deyil.

Qadınlarla bağlı bu yanaşmalar özünü qadınlara qarşı zorakılıqla bağlı yanaşmalarda da çox açıq şəkildə göstərir. Hətta, Azərbaycan, Gürcüstan və Moldovada olduğu kimi, müvafiq qanunvericiliyin mövcud olduğu halda da, hakimiyyət orqanlarına bildirilən zorakılıq hallarının sayı və bu hallarla bağlı aparılmış təhqiqatların sayı QHT-lər tərəfindən verilən məlumatlarla müqayisədə aşağı olaraq qalmaqdadır. Misal üçün, hesab edilir ki, Belarusda təxminən hər üç qadından biri fiziki zorakılıqdan əziyyət çəkmişdir.

Qadınlar həm də iqtisadi baxımdan əlverişsiz vəziyyətdədir. Orta statistik qadınların 52%-i, kişilərin isə 65%-i əmək bazarında iştirak edir.

Qadınların gəlirləri daha aşağıdır. Araşdırmanın aparıldığı ölkələr üzrə qadınların orta statistik gəliri kişilərin gəlirlərinin 59%-i qədərdir.

Qadınlar rəhbər vəzifələr daşıyır – Belarus və Moldova BƏT tərəfindən 128 ölkə arasında aparılmış sorğuların nəticələrinə görə ilk 10 pillədə yer alır, lakin qadınlar əmək seqreqasiyasından əziyyət çəkir və əsasən mehmanxana və iaşə, pərakəndə ticarət, təhsil, səhiyyə və sosial qayğı kimi az maaşlı sektorlarda işləyir. Və, Azərbaycan istisna olmaqla, araşdırmanın aparıldığı bütün ölkələrdə indi universitet məzunları arasında qadınların sayının kişilərdən daha çox olmasına baxmayaraq, vəziyyət belədir.

Mədəni stereotiplər və onların qadınların iqtisadi vəziyyətinə təsiri çox xoşagəlməzdir, çünki onlar qadınların özlərini seçkilərdə namizəd ola biləcək iqtidarda hiss etməsinə imkan vermir.

Hazırda, qadın namizədlər və seçkilərdə qalib gəlmiş qadınlar azlıq təşkil edir. Bu o deməkdir ki, çox vaxt onlardan eyni vəzifədə bir kişinin etdiyindən daha yaxşı işləmək gözlənilir. Parlamentlərdə, milli məclislərdə və yerli və regional hökumətlərdə daha təsirli, bacarıqlı qadınların olması qadınların daha çox üzdə olmasına və istisna kimi görünməyinə səbəb olur və bununla da onların işinə ictimai etimadı artırır və stereotip xarakterli yanaşmalara qarşı mübarizə aparılmasına kömək edir.

Namizədlər və seçilmiş qadınlar barədə əlimizdə olan məlumatlar da bunu təsdiq edir. Namizəd olmuş qadınlar əhəmiyyətli bacarıq və təcrübəyə malikdirlər. Onların demək olar ki, hamısı - Ermənistanda, Azərbaycanda və Belarusda 100%-i; Ukraynada 98%-i - ali təhsillidir. Müsahibə götürülmüş qadınlar xəstəxana rəhbəri, hüquqşünas və kollec direktorları kimi peşə və rəhbərlik etmək qabiliyyətləri tələb edən, səlahiyyət və təsirə malik vəzifələr daşımışdır.

Aydındır ki, qadınların iqtisadi vəziyyətinə baxmayaraq, Şərq Tərəfdaşlığı ölkələrində ümumilikdə siyasi vəzifələr daşımaq iqtidarında olan bacarıqlı, qabiliyyətli qadınlar çatışmazlığı yoxdur.

Araşdırma çərçivəsində aparılmış sorğuların nəticələri göstərir ki, siyasi təmsilçiliklə bağlı qadınlara münasibət dəyişməkdədir və bu dəyişiklik gənc seçicilər arasında çox sürətli baş verir. Milli Demokratiya İnstitutu tərəfindən Ukraynada aparılmış araşdırma[64] göstərir ki, seçicilər namizədin gender mənsubiyyətindən daha çox onun təcrübəsi və siyasi mövqeyi ilə maraqlanırlar.

Bu baxımdan ictimaiyyət siyasi partiyaları və partiyalar daxilində namizədləri seçən şəxsləri qabaqlayır.

Sorğuda iştirak etmiş siyasi partiyalardan yalnız üçünün qadın sədrləri, yeddisinin isə qadın sədr müavinləri var. Yuxarı icra orqanlarında yer alan qadınların faizi Azərbaycandakı bir partiyada 40%-dən Ermənistanda 5-10%-ə qədər dəyişir.

Araşdırmada göstərilən partiyaların əksəriyyətində qadın seksiyaları və ya təşkilatları var idi, lakin bu, özünü həmin partiyaların siyasətində göstərmirdi. Ermənistan, Gürcüstan, Belarus və Ukraynada araşdırmada göstərilən heç bir partiya sonuncu seçkilərdə öz proqramlarında qadınlarla bağlı, qadınların təmsilçiliyi və ya qadınlara və qızlara qarşı zorakılıq kimi məsələlər haqqında, spesifik siyasət qəbul etməmişdi.

Bu o deməkdir ki, qadınlarla bağlı məsələlər vacib deyil və qadınların özlərinin də siyasi həyatda yeri yoxdur.

Siyasi partiyalar, getdikcə daha çox, daha azad düşüncəli gənclərin, o cümlədən gənc qadın seçicilərin səslərini qazanmalı olacaqdır ki, bu da dəyişikliklər üçün aparıcı rol oynaya bilər.

Araşdırma çərçivəsində Şərq Tərəfdaşlığı ölkələrinin seçki sistemlərinə və onların qadınların siyasi təmsilçiliyinə nə dərəcədə dəstək və ya mane olması məsələsinə də nəzər salınmışdır. Lazım olan dəyişikliklərə sadəcə seçki sistemi vasitəsilə nail olmaq mümkün olmasa da, tədqiqatçılar və müsahibə götürənlər

[64] Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı və Milli Demokratiya İnstitutu (2011), "Daha güclü siyasi partiyalar üçün qadınların səlahiyyətləndirilməsi", UNDP və NDI, Nyu York

hesab edirdilər ki, proporsional seçki sistemi qadınlar üçün daha əlverişlidir. Proporsional təmsilçilik sistemi kvotalar və/və ya müsbət ayrı-seçkilik kimi digər tədbirlərlə yanaşı həyata keçirildikdə çox səmərəlidir.

Araşdırma nəticəsində, qanuni kvotaların mövcud olduğu Ermənistan və Ukrayna ilə bağlı əldə edilmiş nümunələr qadın namizədlərin və seçkilərdə qalib gəlmiş qadınların sayında azca artım olduğunu göstərir. Lakin, araşdırmanın aparıldığı ölkələr arasında qadınların siyahıya salınmalı olmasını nəzərdə tutan rəsmi qanuni kvotanın mövcud olduğu yeganə ölkə olan Ermənistanda namizədlər siyahısının razılaşdırılmasından və ya seçkidən sonra siyahıda olan qadınların öz namizədliklərini geri götürməsi və kişilərlə əvəz olunması təcrübəsi bu tədbirin əsl niyyətinə kölgə salır.

30%-lik kvotanı qəbul edildiyi, lakin ümumi şəkildə tətbiq olunmadığı Ukraynada 2015-ci ildə keçirilmiş yerli seçkilər səmərəli icra mexanizminin vacibliyini və partiya siyahılarında qadınların qalib gəlməyin mümkün olduğu sıralarda yerləşdirilməli olmasının qanunla müəyyən edilməsinin lazım olduğunu göstərir.

Gürcüstanda, namizədlər siyahısına bir qism qadınlar əlavə etmiş siyasi partiyalara əlavə maliyyə dəstəyi verilməsi formasında könüllü müsbət ayrı-seçkilik seçkidə qalib gəlmiş qadınların sayının artması baxımından səmərəli bir vasitə kimi göstərilməmişdir.  Bunun səbəbi isə o idi ki, bu könüllü tədbir yalnız parlamentə düşmək şansı olmayan daha kiçik partiyalar tərəfindən qəbul edilmişdi.

Qısacası, kvotaları qanunla müəyyən etmək və qadınların siyahıda qalib gəlmək ehtimalı olan sıralara yeləşdirməli olduğunu göstərmək və həmin qanunun icrasını uyğun şəkildə təmin etmək lazımdır. Seçkidən və ya siyahı razılaşdırıldıqdan sonra qadın öz namizədliyini geri götürərsə, onu başqa bir qadın namizəd əvəz etməlidir.

Maliyyə xarakterli həvəsləndirmələr könüllü olmaqdan daha çox, bütün partiyalara tətbiq edilməli və qeyd edilməlidir ki, əgər dövlət tərəfindən maliyyələşdirmədə hər hansı artım olarsa, həmin vəsait yalnız daha çox qadının namizəd olmasını həvəsləndirən və onların seçki kampaniyalarını dəstəkləyən tədbirlərin görülməsinə xərclənməlidir.

Mədəni stereotip və ehkamlardan əlavə, qadınların siyasi funksiyalar həyata keçirməsi üçün ikinci ən vacib maneə, müsahiblərin fikrincə, maliyyə resurslarının çatışmamasıdır. Namizəd kimi seçilmək və siyasi partiya daxilində tanınmaq üçün görüşlərdə və konfranslarda iştirak etmək müəyyən qədər xərc tələb edir. Lakin, müsahibə vermiş qadınların fikrincə ən böyük problem kampaniyanın öz xərcləridir. Partiyalar ümumi şəkildə material və bukletlər hazırlasa da, qadın namizədlər adətən özləri öz şəxsi maliyyə resursları hesabına da vəsaitlər ayırmalıdır. Bu baxımdan vəziyyət müstəqil namizədlər üçün daha çətindir, çünki onlar, bəzi hallarda, namizədliklərini irəli sürmək üçün depozit də qoymalıdır.

Qadınlar iqtisadi baxımdan əlverişsiz vəziyyətdə olduqlarından, onların maliyyə resursları tapmaq imkanları kişilərlə müqayisədə daha məhduddur və buna görə də, pul çatışmazlığı səbəbindən onlar seçkili vəzifəyə seçilmək  hüquqlarını həyata keçirə bilmirlər.

Partiyalar daxilində maliyyə vəsaitləri adətən qalib gəlmək ehtimalı çox olanlara sərf edilir ki, bu da mövcud qaydanın qorunub saxlanmasına xidmət edir.

Araşdırma çərçivəsində, qadınları namizədliklərini verməyə həvəsləndirmək üçün kvotaların tətbiq edilməsi və digər xüsusi tədbirlərin görülməsinə qarşı

müəyyən edilən bir arqument də odur ki, qanunvericilik həm kişilərə, həm də qadınlara bərabər şəkildə namizəd olmaq və seçilmək hüququ verir. Lakin, "gender baxımından neytral" qanunvericilik gender qeyri-bərabərliyini nəzərə almır və siyasi həyatda iştirak etmək imkanları baxımından qadınların qeyri-bərabər vəziyyətdə olmasına fikir vermir. Bu cür qeyri-bərabərlik yalnız səmərəli kvotalar və müsbət ayrı-seçkilik təbirləri kimi müvəqqəti xüsusi tədbirlərin görülməsi ilə aradan qaldırıla bilər.

Onu da nəzərdən qaçırmaq olmaz ki, qadınlar üçün qeyri-bərabərliyin aradan qaldırılması hal-hazırda seçkili orqanlarda vəzifə tutan kişilərin sayına da əhəmiyyətli təsir edəcək, və dəyişikliyə nail olmaq üçün qanunları da məhz həmin orqanlar qəbul etməli olacaq.

Bununla belə, seçicilərin dəyişməkdə olan yanaşmaları və demokratik legitimlik arzusu qadın və kişilərin balanslaşdırılmış siyasi təmsilçiliyi istiqamətində dəyişiklik üçün aparıcı rol oynayır və bu dəyişikliyi həyata keçirmək üçün müəyyən tədbirlər görmək olar.

# Fəsil 5

# Tövsiyələr

## AYRI-AYRI ÖLKƏLƏR ÜZRƏ

### Ermənistan

Seçki siyahısının qəbul edilməsindən və ya seçkilərdən sonra qadınların öz namizədliklərini geri götürməsi və ya istefa verməsi nəticəsində onların kişi namizədlərlə əvəz olunması təcrübəsi vasitəsilə partiya siyahılarında qadınlar üçün müəyyən edilmiş kvotanın məqsədindən yayınmanın qarşısını almaq üçün tədbirlər görülməsi nəzərdə tutulmalıdır. Misal üçün, bunu istefa vermiş qadın namizədin partiya siyahısında ən az təmsil olunan cinsə mənsub olan növbəti şəxslə əvəz olunması tələbinin qanunvericilikdə müəyyən olunması ilə etmək olar.

### Azərbaycan

Siyasi partiyaları qalib gəlməyin mümkün olduğu yerlərdə qadın namizədlər irəli sürməyə həvəsləndirmək üçün maliyyə xarakterli həvəsləndirmələr kimi müsbət ayrı-seçkilik tədbirlərinin görülməsi nəzərdə tutulmalıdır.

### Belarus

Dövlət  gender bərabərliyi ilə bağlı siyasətlərinin həyata keçirilməsini təmin etmək üçün qadın QHT-ləri ilə əməkdaşlıq etməyi nəzərdən keçirməlidir.

### Gürcüstan

Partiya siyahılarında qadın namizədlər olan siyasi partiyalara verilən maliyyə həvəsləndirmələrinin yalnız qadınların namizəd olmasını, onların seçki kampaniyalarını və onlar ilk dəfə seçildikdə onları dəstəkləmək üçün xərclənməsini təmin etmək. Maliyyə dəstəyinin ödənişi bu kimi tədbirlərin görülməsinin nümayiş etdirilməsindən asılı olaraq həyata keçirilə bilər.

Qadın namizədlərin və seçilmiş qadınların sayının artmasını həvəsləndirmək üçün maliyyə həvəsləndirmələrinin səmərəliliyinə daim nəzarət edilməli və bu cür həvəsləndirmələr nəticə vermirsə, digər təşəbbüslər də nəzərə alınmalıdır.

### Moldova

Partiya siyahılarındakı namizədlərin 40%-nin qadın olmasını nəzərdə tutan kvotanın müəyyən edilməsi haqqında bu yaxınlarda qəbul edilmiş qanunun, qadınların siyahılarda qalib gəlməyin mümkün olduğu sıralarda yerləşdirilməsi tələbinin qoyulması vasitəsilə, tam şəkildə həyata keçirilməsi təmin edilməlidir.

### Ukrayna

Yerli seçkilərdə partiya siyahılarında namizədlərin 30%-nin qadınlardan ibarət olmalı olmasını nəzərdə tutan kvotanın həyata keçirilməsinin, kvotaya riayət edilməmiş seçki siyahılarının qeydiyyata alınmaması yolu ilə, lazımi şəkildə təmin olunması. Qadınların siyahılarda qalib gəlməyin mümkün olduğu sıralarda

yerləşdirilməsi tələbini qoymaqla qanunun səmərəliliyini artırmaq.

16 yaşdan aşağı uşaqların parlament binasına daxil ola bilməsini və valideyn və körpə otaqlarının olmasını təmin etmək.

Gürcüstan, Moldova və Ukrayna

Qanunvericilik orqanlarına proporsional seçkilər üçün qanuni kvotaların müəyyən edilməsini nəzərdən keçirmək.

## BÜTÜN ÖLKƏLƏR ÜZRƏ

### Siyasi partiyalar

Qadınları öz namizədliklərini irəli sürməyə və seçkilərdə qalib gəlməyə həvəsləndirmək və dəstəkləmək üçün tədbirlər görmək, o cümlədən:

- Partiyaya verdikləri maliyyə dəstəyindən asılı olmayaraq namizədlər üçün şəffaf seçim kriteriyalarını müəyyən etmək;
- Qadın namizədlərə maliyyə dəstəyi vermək;
- Seçkilərdən ən az iki il qabaqcadan qadınları namizədliklərini irəli sürməyə həvəsləndirməyə başlamaq və onlara təlimlər keçmək (nümunə kimi, dəstəkləyici tədbirlərlə bağlı Moldavanın təcrübəsini göstərmək olar);
- Partiyanın qadın üzvlərinin və partiya daxilində qadın namizədlərin potensialının inkişaf etdirilməsi strategiyasının hazırlanması;
- Seçildikdən sonra qadınlar üçün mentorluq və onlara dəstək verilməsi;
- Partiyada rəhbər vəzifələrdə olan qadınların sayının artırılması üçün tədbirlər görülməsi;
- Qadın namizədlərin və seçilmiş qadın təmsilçilərin media vasitəsilə çıxışlarının artırılması;
- Partiya tərəfindən təşkil olunan ictimai tədbirlərdə panellərdə və dəyirmi masa görüşlərində gender balansına nail olunması;
- Partiyanın qadın üzvləri və QHT-lərlə məsləhətləşdikdən sonra, partiyanın siyasi sənədlərində və menifestlərində qadınların məsələləri ilə bağlı siyasətlərin müəyyən olunması və bunun geniş şəkildə ictimailəşdirilməsi;
- Partiya daxilində qadın şəbəkələrinin və təşkilatlarının gücləndirilməsi və partiyanın gündəliyində duran məsələlərin və partiyanın siyasətinin müzakirəsi üçün qadınlara yer və imkan yaradılması;
- Bütün səviyyələrdə partiya təşkilatlarının, o cümlədən, yerli təşkilatların, qadınların namizəd kimi seçilməsinə və seçkilərdə qalib gəlməsinə dəstək verilməsi siyasəti barədə məlumatlı olmasının və həmin siyasəti həyata keçirməsinin təmin edilməsi;
- Namizədləri seçən panellərdə gender balansına nail olunması;

- Qadınlar barədə stereotip xarakterli yanaşmaların mübahisələndirilməsi və qadınları narahat edən məsələlərin aparıcı partiya üzvlərinin ictimai bəyanatları vasitəsilə qaldırılması;

- Qadın namizədlərə və seçilmiş qadın üzvlərə toxuna bilən şərhlər və hərəkətlərlə bağlı partiya üzvləri üçün standart davranış qaydalarının müəyyən olunması və ona riayət edilməsinin təmin olunması.

### Hökumətlər/iqtidar partiyaları

Qadınların siyasi təmsilçiliyinə aşağıdakı yollarla dəstək göstərilməsi.

- Hökumət komitələrində qadın sədrlər və müavinlər üçün kvotaların müəyyən olunması.

- Qadınların siyasi təmsilçiliyinə müsbət təsir göstərən qanunvericiliyin qəbul edilməsi, o cümlədən qadınların həyatının sosial və iqtisadi aspektləri ilə bağlı tədbirlər görülməsi, həmçinin maliyyə dəstəyi də daxil olmaqla, göstərilən dəstəyin məhz qadınlara yönəldilməsini təmin edən qanuni kvotaların və müsbət ayrı-seçkilik tədbirlərinin müəyyən olunması.

- Qadınlara və kişilərə fərqli təsirinin qiymətləndirilməsi üçün "gender baxımından neytral" qanunvericiliyin təhlil edilməsi və hər hansı mənfi təsirin azaldılması üçün tədbirlər görülməsi. Misal üçün: seçkili orqanlarda qadınların az təmsil olunmasının aradan qaldırılması üçün müvəqqəti tədbirlərin görülməsi.

- Qadınlarla bağlı məsələlərin qanunvericilik proqramının bir hissəsini təşkil etməsinin təmin edilməsi və buna (məsələn, Ukraynada olduğu kimi) bərabər imkanlar qrupunun yaradılması ilə dəstək verilməsi.

- Kifayət qədər resursların ayrılmasının təmin edilməsi ilə gender bərabərliyi ilə bağlı fəaliyyət planlarının həyata keçirilməsinə dəstək göstərilməsi və görülmüş tədbirlərin və onların nəticələrinin monitorinqi, qiymətləndirilməsi və bu barədə ictimaiyyətə məlumat verilməsi.

- Yerli və regional hakimiyyət orqanlarını təmsil edən təşkilatların qadın namizədlərə və inzibati orqanlara seçilmiş qadınlara təlim keçirməyə və dəstək göstərməyə həvəsləndirilməsi.

- Milli parlamentlərin və yerli və regional hakimiyyət orqanlarının qadınları dəstəkləyən iş şəraiti yaratmasının, o cümlədən müəyyən qayğıları olan qadınların öz işlərinin öhdəsindən tam şəkildə gələ bilməsi üçün lazımi şəraitin yaradılmasını nəzərdə tutan tədbirlərin görülməsinin təmin edilməsi.

- Qadınlarla hörmətlə rəftar edilməsinin təmin olunması üçün, seçilmiş üzvlər üçün standart davranış qaydalarının müəyyən edilməsi və onlara əməl olunmasının təmin edilməsi.

- Statistika idarələri tərəfindən məcburi köçkünlər, etnik və dini azlıqlar və xaricdə yaşayan vətəndaşlarla bağlı gender baxımından ayırd edilmiş etibarlı statistik məlumatlar toplanmasının təmin edilməsi.

- Mərkəzi seçki komissiyaları tərəfindən qanunvericilik, regional və lokal

seçkilərdə namizədlər, həmçinin seçkilərdə qalib gəlmiş şəxslər barədə gender baxımından ayırd edilmiş statistik məlumatların verilməsinin təmin edilməsi.

- Seçilmiş qadınların şəbəkələrinə və xüsusilə də qadınların potensialının artırılması ilə bağlı təşəbbüslərə dəstək göstərilməsi.
- Milli və yerli hakimiyyət orqanlarının, həmçinin inzibati orqanların seçkili vəzifələrdə işləyən qadınlar barədə gender baxımından ayırd edilmiş etibarlı məlumatlar toplamasının təmin edilməsi
- Seçilmiş şəxslər üçün gender məsələləri və qadınların siyasi təmsilçiliyinin vacibliyi ilə bağlı maarifləndirmə kampaniyalarının təşkili.

# Çərçivədən kənarda

Mila Teşaiyeva (Kiyev) maraqlı bir tədqiqatçı kimi, cəmiyyətlərin quruluşunun arxasında hansı aparıcı qüvvələrin dayandığını anlamaq üçün fotoqrafiyadan istifadə edir. "Çərçivədən kənar" adlı bu buraxılış Şərq Tərəfdaşlığı ölkələrində fəal qadınların gündəlik reallıqlarını, onların arzularını və üzləşdikləri çətinlikləri əks etdirir. Burada təqdim olunan qadınlar digərləri üçün nümunədirlər. Onlar məişət zorakılığına və erkən nikaha qarşı çıxmağın və mer və ya yerli bələdiyyə üzvü kimi öz bələdiyyələrində daha yaxşı yaşayış standartları uğrunda mübarizə aparmağın əbəs olmadığını göstərən canlı sübutlardır. Bu material GİZ Cənubi Qafqaz üzrə Yerli İdarəetmə Proqramının tapşırığı ilə hazırlanmış və 2016-cı ilin dekabrında Kiyevdə Şərq Tərəfdaşlığı Ölkələrində Qadınların siyasi təmsilçiliyi adlı bu nəşrin təqdimatı zamanı nümayiş etdirilmişdir.

german cooperation
DEUTSCHE ZUSAMMENARBEIT

Implemented by
giz Deutsche Gesellschaft für Internationale Zusammenarbeit (GIZ) GmbH



Nune Avaqyan,
Gomk Bələdiyyəsinin üzvü, Ermənistan



“Qadınlar az əhəmiyyətli görünə bilən kiçik şeylərlə məşğul ola bilirlər.

Lakin, kiçik şeylər daha böyük məsələlərdən xəbər verir. ”



Tamar Dalaqişvili,
Tetritskaro Bələdiyyəsinin üzvü, Gürcüstan



Şələlə Cəfərova,
Z. Tağıyev Bələdiyyəsinin üzvü



Tamar Dalaqişvili,
Tetritskaro Bələdiyyəsinin üzvü

“Kənddə həmişə əhali ilə müzakirə ediləsi məsələlər var.

Mən DAYAQ mentorluq proqramında iştirak etdiyimdən, mən fikir mübadiləsi  və müzakirə üçün xeyli yeni ideyalar verə bilirəm.”



Məlahət Məmmədova,
Korgöz İcma Lideri, Azərbaycan



Lyudmila Xəlilova,
Qaraçuxur Bələdiyyəsinin üzvü,
"Qadınlar Bələdiyyələrin İnkişafı Uğrunda" İctimai Birliyinin Sədri
və DAYAQ şəbəkəsinin əlaqələndiricisi, Azərbaycan

“Nənəm həmişə mənə deyərdi: Otaqda dörd künc var və sən heç vaxt qapının yerini tanımamalısan. Əgər səninlə bir küncdə pis rəftar edirlərsə, başqa bir küncə get.’

Mən isə öz həyatımı başqa qaydalar üzərində qurmaq qərarına gəldim və indi mən öz bələdiyyəmin ərazisində olan qadınlara qapının yerini tapmaqda kömək etməyə çalışıram.”





Məlahət Əliyeva,
Masazır Bələdiyyəsinin üzvü, Azərbaycan



Eva Lomtadze,
Laqodexi Bələdiyyəsində Komitə sədri

“Mən qanunları bilirəm və biliklərimi tətbiq etmək mənə bir çox ümumi problemlərimizin həllində kömək edir. Mən fəxr edirəm ki, öz regionumuzda 150 ailə üçün ev tikilməsinə nail olmuşam. Başlanğıcda bu qeyri-mümkün görünürdü, lakin mən bunu həyata keçirdim.”



Nune Avaqyan,
Gomk Bələdiyyəsinin üzvü, Ermənistan

“Mən birinci dəfə bələdiyyəyə seçiləndə, əksəriyyəti kişilərdən ibarət olan komandada işləməyə çətinlik çəkirdim. Lakin, bir müddət sonra mən sübut etdim ki, heç kim mənə öz işimi görməyə mane ola bilməz.”



Natela Qoqoladze,
Borjomi Bələdiyyəsinin üzvü, Gürcüstan



Məlahət Məmmədova,
Korgöz İcma Lideri



Lyudmila Xəlilova,
Qaraçuxur Bələdiyyəsinin üzvü,
"Qadınlar Bələdiyyələrin İnkişafı Uğrunda" İctimai Birliyinin Sədri
və DAYAQ şəbəkəsinin əlaqələndiricisi, Azərbaycan

# 1 saylı Qoşma

# Şərq Tərəfdaşlığı ölkələrində mövzu üzrə təhlil aparılması üçün istifadə olunan qısa sorğu forması

| Respondent haqqında məlumatlar | |
|---|---|
| Kim tərəfindən doldurulmuşdur | Xanım ❒ Cənab ❒ |
| Adı | |
| Soyadı | |
| Ölkə | |

## I. GİRİŞ

| Görülən işlərin və aparılmış araşdırmanın təsviri (qısa şəkildə): 300 sözdən çox olmamaq şərtilə |
|---|
| |

| |
|---|
| **Əldə olunan faydalar / nəticələr / gəlinən qənaətlər** və məlumat əldə etməyin mümkün olmaması və s. kimi qarşılaşılan çətinliklər (qısa şəkildə): 300 sözdən çox olmamaq şərtilə<br><br>Faydalar:<br><br>Nəticələr:<br><br>Gəlinən qənaətlər:<br><br>Qarşılaşılan çətinliklər: |
| **İstifadə olunmuş metodologiya** (qısa şəkildə): 300 sözdən çox olmamaq şərtilə<br><br>Keçirilmiş görüşlərin sayı ______________<br><br>Şəxslər, funksiya, təsisatların adı:<br><br>İstifadə olunmuş əsas mənbələr:<br><br>Digər (zəhmət olmazsa, dəqiq göstərin): |

## II. ÜMUMİ MƏLUMATLAR

**İqtisadi əsaslar (məlumatlar):**

Adam başına düşən ÜDM ___________ / mənbə:

Yoxsulluq səviyyəsi: qadınlar _________; kişilər __________ / mənbə:

Gəlir: qadınlar _________; kişilər __________ / mənbə:

Gəlir payı: qadınlar _________; kişilər __________ / mənbə:

Qazanc: qadınlar _________; kişilər __________ / mənbə:

Gender üzrə məşğulluq göstəricisi: qadınlar _________; kişilər __________ / ___

_______________________________________________________________________

_______________________________________________________________________

_______________________________________________________________________

_______________________________________________________________________

_______________________________________________________________________

_______________________________________________________________ /mənbə:

**Sosial əsaslar (məlumatlar):**

Universitet məzunlarının nisbəti: qadınlar _________; kişilər __________ / mənbə:

Ali / mərkəzi idarəetmə orqanlarında qadınların payı: qadınlar _________; kişilər __________ / mənbə:

Məcburi köçkünlər: qadınlar _________; kişilər __________ / mənbə:

Azlıqlar: qadınlar _________; kişilər __________ / mənbə:

Əsas xidmətlərə çatımı olmayan ailələr: _____________ / mənbə:

Hər ailə başına uşaqlar: _____________ / mənbə:

Qadınlara qarşı zorakılıq halları – xahiş olunur qeyd edəsiniz: ________________
__________________________________________________________________________
__________________________________________________________________________
__________________________________________________________________________
__________________________________________________________________________
__________________________________________________________________________
__________________________________________________________________________
_________________________________________________________________ /mənbə:

Siyasi əsaslar (o cümlədən müharibə/münaqişələr, siyasi sabitlik/qeyri-sabitlik, insan hüquqlarının və əsas azadlıqların vəziyyəti, milli azlıqların seçicilər kimi iştirakı, müstəqil qadın hərəkatları/QHT-lər, kvota sisteminə bəslənən münasibətlər haqqında məlumatlar). 400 sözdən çox olmamaq şərtilə

## III. BƏRABƏR İŞTİRAKÇILIQ HAQQINDA MİLLİ VƏ BEYNƏLXALQ QANUNVERİCİLİK VƏ ONUN QƏBUL EDİLMƏSİ TARİXİ (KONSTİTUSİYA, GENDER BƏRABƏRLİYİ HAQQINDA AYRICA QANUNLAR, SİYASİ PARTİYALAR HAQQINDA QANUN, QAYDALAR)

| Sual | Bəli/Xeyr | Cavab Bəli-dirsə, qanunun müddəası, qanunun adı | Qəbul edildiyi tarix |
|---|---|---|---|
| Qanunvericilikdə qadınlar üçün bərabər hüquqlar təmin edilirmi? | | | |
| Dövlət vəzifələrinə namizədliyini irəli sürməsi və həmin vəzifələri tutması üçün qadınlara spesifik hüquqlar verilirmi? | | | |
| Qanunvericilikdə qadınlar üçün əlverişsiz olan hansısa müddəalar varmı? | | | |

## IV. QANUNVERİCİLİK HAKİMİYYƏTİ

### Seçki sistemləri haqqında[65]

| | Sonuncu seçkilərin tarixi | _____/_____/_____ |
|---|---|---|
| 1. | Seçki sistemini göstərin<br>• Plüralist majoritar sistem: sadə səs çoxluğu və ya ən çox səs toplayan namizədin qalib gəlməsi<br>• Plüralist majoritar sistem: mütləq əksəriyyətin səsinin toplanması (iki turlu sistem)<br>• Proporsional təmsilçilik sistemi<br><br>• Açıq siyahılar<br>• Qapalı siyahılar<br>• Digər, xahiş edirik göstərəsiniz ______________<br>• Yarı-proporsional təmsilçilik sistemi<br><br>• Açıq siyahılar<br>• Qapalı siyahılar<br>• Digər, xahiş edirik göstərəsiniz ______________ | ❒<br>❒<br>❒<br>❒ Açıq<br>❒ Qapalı<br>❒ Digər<br>❒<br>❒ Açıq<br>❒ Qapalı<br>❒ Digər |

[65] • **Plüralist majoritar sistem:** sadə səs çoxluğu və ya ən çox səs toplayan namizədin qalib gəlməsi: Bu sistemdə səslərin ən çoxunu toplayan namizəd seçkidə qalib gəlir. Bu o deməkdir ki, hətta namizəd ümumi səslərin yalnız az bir hissəsini toplasa da, əgər namizədlər arasında ən çox səsi o toplayırsa, seçkidə qalib gəlir. Nümunə: Birləşmiş Krallıq.

• **Plüralist majoritar sistem: mütləq əksəriyyətin səsinin toplanması (iki turlu sistem):** Birinci turda qalib gəlmək üçün namizəd səslərin mütləq əksəriyyətini toplamalıdır. Əgər namizədlərdən heç biri birinci turda səslərin mütləq əksəriyyətini toplamırsa, birinci turda ən çox səs toplamış namizədlər arasında səsvermənin ikinci turu keçirilir və bu turda sadə səs çoxluğu ilə üstün olan namizəd qalib gəlir. Nümunə: Fransa.

• **Proporsional təmsilçilik sistemi:** Tipik proporsional sistemdə hər bir partiyaya/siyahıya topladığı səslərin sayına mütənasib sayda nümayəndələr üçün yer ayrılır. Partiya/siyahı üzrə ayrılmış yerlərin sayı onun topladığı səslərin sayına uyğun olur. Bu sistem açıq, yaxud qapalı siyahılar əsasında işləyə bilər. Açıq siyahı o deməkdir ki, seçicilər verilmiş partiyadan/siyahıdan bəyəndikləri namizəd(lər)i göstərə bilərlər. Qapalı siyahı o deməkdir ki, seçicilər hansı namizədin seçiləcəyinə təsir edə bilmədən, yalnız partiyaya/siyahıya səs verirlər. Nümunə: İsveç.

• **Yarı-proporsional təmsilçilik sistemi:** Bu sistem həm majoritar, həm də proporsional seçki sistemlərinin müsbət tərəflərini özündə birləşdirməyə çalışır. Parlamentin bir hissəsi plüralist majoritar seçki sistemi, qalan hissəsi isə proporsional təmsilçilik sistemi vasitəsilə seçilir. Bu sistem açıq, yaxud qapalı siyahılar əsasında işləyə bilər. Açıq siyahı o deməkdir ki, seçicilər verilmiş partiyadan/siyahıdan bəyəndikləri namizəd(lər)i göstərə bilərlər. Qapalı siyahı o deməkdir ki, seçicilər hansı namizədin seçiləcəyinə təsir edə bilmədən, yalnız partiyaya/siyahıya səs verirlər. Nümunə: Almaniya

| | | | |
|---|---|---|---|
| 1.1. | Əgər seçki açıq siyahı əsasında keçirilmişdirsə, bu qadın namizədlərin sayının daha çox, yoxsa daha az olmasına gətirib çıxarmışdır? | Daha çox ❐<br><br>Xahiş olunur izah edəsiniz. | Daha az ❐<br><br>Xahiş olunur izah edəsiniz. |
| 1.2. | Qanunla qadınların namizədlər siyahısında qalib gəlməyin mümkün olduğu sıralarda (ən yuxarı 10 sırada) yer alması tələb olunurmu? | Bəli ❐ | Xeyr ❐ |
| 1.3. | Mandatın ölçüsü (seçicilərin sayı) nə qədərdir? | | |
| 1.4. | Namizədlik üçün tələblər – nominasiya üçün imzalar / pul depoziti | 1.<br>2.<br>3.<br>4. Xahiş olunur lazım olduğu qədər əlavə bəndlər əlavə edəsiniz. | |
| 1.5. | Vakant yerlər necə tutulur? | Xahiş olunur izah edəsiniz. | |
| 2. | Nəticələrə əsasən seçki sisteminin qadınlar üçün əlverişli, yaxud əlverişsiz olduğunu demək olarmı? | Xahiş olunur izah edəsiniz. | |
| 3. | Seçilmiş qadınların sayının artırılması üçün qanun hər hansı müsbət ayrı-seçkilik tədbirlərinin həyata keçirilməsinə icazə verirmi? | Bəli ❐ | Xeyr ❐ |
| 3.1. | Həmin tədbirlər nədən ibarətdir? | Xahiş olunur sadalayasınız. | |
| 3.2. | Qadın namizədlərin və seçilmiş qadınların sayının artırılması baxımından həmin tədbirlər nə dərəcədə uğurlu olmuşdur? | Xahiş olunur izah edəsiniz. | |
| 3.3. | Kvota qaydaları | Bəli ❐ | Xeyr ❐ |
| 3.4. | Maliyyə həvəsləndirmələri | Bəli ❐ | Xeyr ❐ |
| 3.5. | Mövcud sanksiyalar (əgər varsa, xahiş olunur sadalayasınız) | Bəli ❐ | Xeyr ❐ |
| 3.6. | Sanksiyaların tətbiqi | Xahiş olunur izah edəsiniz. | |

| | | | |
|---|---|---|---|
| 3.7. | Kvotaya əməl edilməmiş siyahılara seçki rəsmilərinin münasibəti necədir? | Xahiş olunur izah edəsiniz. | |
| 4. | Son seçkidə seçilmiş qadınların profili | | |
| 4.1. | Yerlərin ümumi sayı ________ | Ümumi ________ % | |
| 4.2. | Seçilənlərin ümumi sayı kişilər/qadınlar _____ / _____<br><br>• Partiya: kişilər/qadınlar _____ / _____<br>• Müstəqil namizəd: kişilər/ qadınlar _____ / _____ | Ümumi ________ %<br>Partiya _____<br>Müstəqil namizəd _____ | |
| 4.3. | Siyasətdə daha çox təcrübə (əgər məlumat varsa)<br>Mənbə: | | |
| 4.4. | Bəyan edilmiş gəlir (əgər məlumat varsa)<br>Mənbə: | | |
| 4.5. | Yaş (əgər məlumat varsa)<br>Mənbə: | Qadınlar _______ | Kişilər ________ |
| 4.6. | Azlıqlara mənsubiyyət (əgər məlumat varsa)<br>Mənbə | Qadınlar _______ | Kişilər ________ |
| 4.7. | Təhsil (əgər məlumat varsa)<br>Mənbə: | Qadınlar _______ | Kişilər ________ |
| 4.8. | Peşə (əgər məlumat varsa) | Qadınlar _______ | Kişilər ________ |
| 5. | Qadın namizədlərin profili | | |
| 5.1. | Namizədlərin ümumi sayı | Ümumi ________ % | |
| 5.2. | Namizədlərin ümumi sayı: kişilər/qadınlar _____ / _____<br>• Partiya: kişilər/qadınlar _____ / _____<br>• Müstəqil namizəd: kişilər/ qadınlar _____ / _____ | Ümumi ________ %<br><br>• Partiya _____<br>• Müstəqil namizəd _____ | |

| | | | |
|---|---|---|---|
| 5.3. | Siyasətdə daha çox təcrübə (əgər məlumat varsa)<br>Mənbə: | | |
| 5.4. | Yaş (əgər məlumat varsa)<br>Mənbə: | Qadınlar ________ | Kişilər<br>_________ |
